Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 261 (7988) ÇƏRŞƏNBƏ AXŞAMI, 20 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Strateji tərəfdaşlığın ən yüksək mərhələsi

## Azərbaycan-Belarus münasibətləri dinamik inkişaf yolundadır

Fəal və müstəqil xarici siyasət həyata keçirən Azərbaycanın hazırda dünyanın ayrı-ayrı qütblərində yerləşən çoxlu sayda dövlətlə müxtəlif səpkili əlaqələri var. Rəsmi Bakı diplomatik əlaqələrdən başlamış, dərin siyasi, iqtisadi-ticari, humanitar-mədəni münasibətlərə qədər bir çox dövlətlə əməkdaşlıq edir. Lakin dostluq və qardaşlıq münasibətlərinə gəldikdə, bir neçə əsas dövlət yada düşür ki, onlardan da biri ölkə rəhbərinin rəsmi səfərdə olduğu Belarusdur.

İki ölkə arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol 11 iyun 1993-cü ildə imzalanıb. 2006-cı ilin fevral ayında isə Belarusun Azərbaycanda, həmin ilin avqust ayında isə Azərbaycanın Belarusda səfirlikləri açılıb.

Bu il uğurlu diplomatik münasibətlərinin 25 ili tamam olan Azərbaycan-Belarus əlaqələri artıq yeni inkişaf mərhələsindədir. Son illərdə fəal qarşılıqlı əlaqələr iki ölkəni bir-birinə o dərəcədə yaxınlaşdırıb ki, artıq nəinki regionda, həm də dünyada Belarus və Azərbaycanı çox yaxın, dost ölkələr hesab edirlər.

Əlbəttə ki, münasibətlərin bu səviyyəyə yüksəlməsinin başlıca amili iki ölkənin lideri - İlham Əliyevlə Aleksandr Lukaşenko arasında mövcud olan dostluq əlaqələri, səmimiyyət və qarşılıqlı hörmətdir. Bu səmimi dostluq əlaqələri ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə dinamik inkişafına təkan verir. Məhz bu əlaqələrin nəticəsidir ki, 2006-2018-ci illərdə İlham Əliyev 5 dəfə Belarusa, Aleksandr Lukaşenko isə 4 dəfə Azərbaycana rəsmi səfər edib. Bu qarşılıqlı səfərlər zamanı iki ölkə arasında 110 mühüm tərəfdaşlıq sənədləri imzalanıb. Dünənki səfər zamanı isə bu sazişlər sırasına daha 8 mühüm sənəd əlavə olunub.

*Ardı 11-ci səh.*

## Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri

# Belarus və Azərbaycan həmişə etibarlı və strateji tərəfdaş olaraq qalacaqlar

### Minsk Milli Aeroportunda qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Belarus Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Minsk Milli Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyevi Belarusun Baş nazirinin müavini Mixail Rusiy və digər rəsmi şəxslər qarşıladılar.

### Minskdə “Qələbə” meydanını ziyarət

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 19-da Minsk şəhərindəki “Qələbə” meydanında 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin şərəfinə ucaldılmış abidəni ziyarət edib. AZƏRTAC xəbər verir ki, meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.



## YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*




# ZƏFƏRLƏR PARTİYASI

### YAP tarixin ən qüdrətli Azərbaycanının siyasi istinadgahıdır

Niyyətim bir siyasi təsisat haqqında yazmaqdır. Onun Azərbaycan həyatındakı yerinə və roluna tarixin aynasında baxmaq istərdim…

Amma bu təsisat bu aynada o qədər miqyaslı görünür ki, nədən başlamağa, düşüncələrimi hansı səmtdən qələmə almağa, açığı, özüm də çətinlik çəkirəm...

Haqqında yazmaq istədiyim bu qurum Qafqazın ən qüdrətli siyasi hərəkatı - Yeni Azərbaycan Partiyasıdır...

❖ ❖ ❖

Dünyada mövcud olan hər məfhumun bəlli bir izahı var.

Siyasi partiyaların mahiyyəti də lüğətlərdə, politoloji ədəbiyyatlarda yetərincə ümumiləşmiş tərzdə təqdim edilir. Belə bir yozuma görə, partiya öz namizədlərini siyasi vəzifələrə təyin etmək yolu ilə dövlət siyasətinə təsir etməyə çalışan siyasi təşkilatdır. Onlar müxtəlif aksiyalarda, seçki kampaniyalarında iştirak edir, müvafiq maraqlar əsasında, xüsusi məqsədlər üçün ifadə edilmiş ideologiyaları təbliğ edirlər.

Anlayıram ki, bu izahların müəllifləri üçün önəmli olan dünyadakı bütün partiyaların ən ortaq cəhətləridir. Gerisi təfərrüatdır... Yeni Azərbaycan Partiyasına gəlincə isə, onun tariximiz və taleyimizdəki rolu ümumi cəhətlərdən daha çox elə bu təfərrüatlarda əks olunub.

Ona görə də bu partiyanın Azərbaycanın milli dövlətçilik tarixində, cəmiyyət həyatında kəsb etdiyi mahiyyət bir partiyanın nəzəri təqdimatından çox-çox üstündür.

*Ardı 7-ci səh.*

## Ana dili - milli varlığımızın ruhu




*Ana dili hər bir xalqın misilsiz mənəvi sərvətidir. Ona görə də tarixən bu sərvətin qorunması bütün zamanlarda alimlərin, ictimai xadimlərin, yazıçıların - ümumən bütün ziyalıların diqqət mərkəzində olub. Ötən əsrin əvvəllərində Mirzə Cəlil yazırdı: “Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır”. Ana dili millətin mənəvi diriliyidir... Ana dili ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi ana dilini də sevməlidir.*
*Ana dili haqqında yüksək fikirlər dövrümüzün böyük şairlərindən Bəxtiyar Vahabzadənin bu misralarında çox gözəl şəkildə öz ifadəsini tapıb:*

*Dil açanda ilk dəfə “ana” söyləyirik biz,*
*“Ana dili” adlanır bizim ilk dərsliyimiz.*
*İlk mahnımız laylanı anamız öz südüylə,*
*İçirir ruhumuza bu dildə gilə-gilə.*
*Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,*
*Bu dil bir-birimizə əhdi-peymanımızdır.*

### Dünyanın dil mənzərəsi

Dil və xalq məsələsi o qədər ayrılmaz, önəmli məsələdir ki, dilçilik tarixində o, dörd məktəbin (fəlsəfi dilçilik, fərdi psixologizm, “sözlər və şeylər” nəzəriyyəsi, etnolinqvistika) əsas tədqiqat obyekti olub. Bunlardan birincisinin - fəlsəfi dilçilik məktəbinin yaradıcısı olan Vilhelm Humbolt yazırdı: “Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir - bundan güclü eynilik təsəvvür etmək çətindir”.

Ana dili xalqın ictimai-siyasi varlığının, mənsub olduğu dövlətin müstəqilliyinin, siyasi mövcudluğunun göstəricisi olmaq etibarilə də çox mühüm əhəmiyyət kəsb edir.

Hazırda dünyanın 260 ölkəsində 7,5 milyarddan çox insan yaşayır. Onlar ünsiyyət vasitəsi kimi 7 minə yaxın dildən istifadə edirlər. 40 ən çox yayılmış dil dünya əhalisinin 2/3-ni əhatə edir. Dünyadakı dillərdən yalnız 95-i dövlət dili statusuna malikdir.

*Ardı 11-ci səh.*



## Fransa hökuməti fransızlara “demokratiya dərsi” keçdi

*Ölkədə etiraz aksiyaları zorakılıqla yatırıldı*

Ötən istirahət günləri Fransanın bütün ərazisində benzin və dizel yanacağının bahalaşmasına, eləcə də vergilərin artmasına etiraz əlaməti olaraq kütləvi aksiyalar keçirilmişdir. Nümayişlərin təşəbbüskarları kimi ölkənin ayrı-ayrı sakinləri çıxış etmişlər.

Avtomobil yanacağının qiymətinin müntəzəm olaraq artması Fransa vətəndaşlarının ağrılı yeridir. Cari ilin əvvəlindən bəri ölkədə benzinin qiyməti 10-15 faiz, dizel yanacağının qiyməti 24 faiz artmışdır. Prezident Emmanüel Makron izah edirdi ki, yanacağın qiyməti dünya bazarlarında neftin qiymətindən asılıdır. Lakin etirazçılar bu fikri qətiyyətlə rədd edirlər.

*Ardı 10-cu səh.*

# Belarus və Azərbaycan həmişə etibarlı

## Belarusda Ticarət Evinin açılması ticarətin şaxələndirilməsinə töhfə verir







Belarus Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Minskdə Azərbaycan Ticarət Evi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına Ticarət Evində yaradılan şərait barədə məlumat verildi.

Minskdə Azərbaycan Ticarət Evi 2017-ci ilin mayında açılıb. Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun 2016-cı ilin noyabrında ölkəmizə rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə müzakirə olunan bir sıra məsələlərlə yanaşı, qısa müddət ərzində hər iki ölkə arasında əmtəə dövriyyəsinin artırılması, Azərbaycanın idxalında Belarus məhsullarının payının çoxaldılması, Belarusda Azərbaycan Ticarət Evinin yaradılması, bu ölkədə istehsal edilməyən kənd təsərrüfatı və emal sənayesi məhsullarının Azərbaycandan idxal olunması barədə tapşırıqlar verilib. Həmin tapşırıqların icrası olaraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Belarus Respublikasının paytaxtı Minsk şəhərində ümumi sahəsi 529 kvadratmetr olan Azərbaycan Ticarət Evi yaradılıb. Ticarət Evinin idarə edilməsi məqsədilə "Azərbaycan Ticarət Evi" MMC yaradılaraq Belarus Respublikasında dövlət qeydiyyatına alınıb.

Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Belarus bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərir, Belarusda satışını təşkil edir, bu sahədə əlaqələndirməni həyata keçirir. Ticarət Evində daimi fəaliyyət göstərən sərgidə Azərbaycanın 30 şirkətinin istehsal etdiyi müxtəlif növ məhsullar nümayiş olunur. Burada, həmçinin "ASAN" və "ABAD" stendləri də ziyarətçilərə təqdim edilir. Bundan əlavə, Azərbaycandan başqa, beş ölkədə fəaliyyət göstərən informasiya texnologiyaları şirkəti "Caspel"in nümayəndəliyinin stendi də sərgidə nümayiş olunur.

Bu Ticarət Evinin açılması iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişləndirilməsinə, ticarətin şaxələndirilməsinə töhfə verir, iki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm rol oynayır, Azərbaycan məhsullarının heç bir vasitəçi olmadan Belarusa birbaşa ixracı üçün gözəl imkan yaradır.

Yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı Azərbaycan Ticarət Evinin fəaliyyətinə uğurlar arzuladı.

Sonda xatirə şəkilləri çəkdirildi.

# Azərbaycan Prezidenti İlham Əliyevin Minskdə rəsmi qarşılanma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 19-da Minskdə rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Belarus əsgərlərini salamladı.

Belarusun dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus Prezidenti Aleksandr Lukaşenkoya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.

Prezidentlər birgə foto çəkdirdilər.

Sonra Prezident İlham Əliyev Belarus Respublikası müstəqilliyini bərpa etdikdən sonra Prezident Aleksandr Lukaşenkonun rəhbərliyi dövründə paytaxt Minskdə, həmçinin digər şəhərlərdə əsaslı şəkildə bərpa olunan tarixi memarlıq abidələrinin, o cümlədən kilsə, qəsr və digər abidələrin fotolarına baxdı.









*Belarus Prezidenti Aleksandr LUKAŞENKO:*

# "Belaruslar Azərbaycanı bizə çox dost olan, bizim yaxşı münasibət bəslədiyimiz qardaş respublika kimi qəbul edirlər"



Noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Belarus Prezidenti **Aleksandr LUKAŞENKO** dedi:

- Əziz İlham Heydər oğlu, Belarus Sizi gözləyirdi. Rəsmi səfər barədə məlumat çox idi. Bildiyiniz kimi, bunun üçün müxtəlif səbəblər vardı. Bəzən feyk xəbərlər də olurdu. Hərçənd, bu da bir nəticədir. Hətta həqiqətə uyğun olmayan müəyyən mənfi informasiya da bəzən müsbət nəticə verir. Buna görə də Sizin səfərinizə səmimi maraq vardı. Biz bunu çoxdan gözləyirdik. Azərbaycan haqqında çox danışırdılar. Dediyim kimi, bunun səbəbləri çox idi. Səbəblər əsasən xoşniyyətli idi. Belaruslar Azərbaycanı bizə çox dost olan, bizim yaxşı münasibət bəslədiyimiz qardaş respublika kimi qəbul edirlər. Bu, həm prezidentlər arasında, həm hökumətlərarası komissiyada, həm də ticari-iqtisadi sahədə münasibətlərə aiddir. Bunu demək kifayətdir ki, təkcə son bir ildə Belarus ilə Azərbaycan arasında ticarətin həcmi təqribən 3,5 dəfə artıb.

Bir daha təsdiqləmək və Sizi əmin etmək istəyirəm ki, bizim münasibətlərimizdə heç vaxt qapalı mövzu olmayacaq. Biz bir dövlətdə yaşamışıq. Sizinlə çox yaxın insanlarıq. Kiminsə bunu istəyib-istəməməsindən asılı olmayaraq, bizim köklərimiz sovet dövrünə və bəlkə daha uzağa gedib çıxır - 10-15 nəsil bundan əvvəlki həmvətənlərimiz Sizin həmvətənlərinizlə yaxşı münasibətdə olublar. Siz tarixçi kimi bunu yaxşı bilirsiniz. Buna görə də Sizi Belarus torpağında salamlayırıq. Bizə tez-tez gəlin. Hava bugünkü kimi olmayanda gəlin. Hərçənd, bunun da bir ləzzəti var - xüsusən Bakının quru küləyindən sonra. Düşünürəm ki, qışqabağı Minskdə olmaq və ona tamaşa etmək Sizin üçün faydalı olacaq. Onun öz gözəlliyi var. Ən azı onu görmək lazımdır. Buna görə şadam ki, Siz bizə təşrif gətirmisiniz. Danışmağa mövzu var. Bizim bütün sahələrdə - həm ticari-iqtisadi, həm diplomatik, həm siyasi münasibətlərimiz yaxşıdır, hərbi sahədə yaxşı münasibətlərimiz var. Lakin mövcud münasibətləri daha da genişləndirmək mümkündür, buna çalışmaq lazımdır. Buna görə əminəm ki, Sizin Belarusa bugünkü səfəriniz perspektivdə bizim münasibətlərimizin möhkəmlənməsi yolunda yeni addım olacaq.

* * *

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Sağ olun, əziz Aleksandr Qriqoryeviç. İlk növbədə, dəvət üçün Sizə təşəkkür edirəm. Yenidən qardaş Belarus torpağında olmağıma çox şadam. Bildiyiniz kimi, bu, Sizin ölkənizə mənim ilk səfərim deyil. Mən Belarusda tez-tez oluram, Siz də Azərbaycana tez-tez rəsmi səfərlər edirsiniz. Bu, bizim yaxşı münasibətlərimizin, məhz ölkələrimiz arasında çox yaxın dostluq əlaqələrinin göstəricisidir. Bu əlaqələrin çox mühüm tarixi aspekti var. Xalqlarımız onilliklər boyu bir-biri ilə fəal ünsiyyətdə olub, əməkdaşlıq ediblər, müstəqillik dövründə isə bu əməkdaşlıq, əlbəttə ki, tamamilə yeni səviyyəyə çatıb.

Bu gün Azərbaycanda Belarus haqqında danışanda, ikitərəfli münasibətlərimizlə bağlı müəyyən hadisələri yada salanda bizim cəmiyyətdə həmişə çox müsbət hisslər yaranır. Vacib olan odur ki, bizim dostluq əlaqələrimiz ölkələrimizin cəmiyyətləri tərəfindən də çox müsbət qəbul edilir. Bilirəm ki, Belarusda da Azərbaycana çox xoş münasibət bəsləyirlər, Azərbaycanda isə Belarusu həqiqətən qardaş ölkə və nəinki keçmiş SSRİ məkanında, həm də dünyada Azərbaycanın ən yaxın tərəfdaşlarından biri hesab edirlər. Bunun səbəbləri çoxdur, o cümlədən Sizinlə şəxsi münasibətlərimiz. İnsanlar bütün bunları - bizim məsələləri necə həll etməyimizi, qarşıya qoyulmuş hədəfə doğru necə getməyimizi görür və qiymətləndirirlər. Son illər bizim münasibətlərimizin fəallaşması, Sizinlə razılaşdırdığımız məsələlərin həlli dövrüdür. Münasibətlərimiz məhz onunla fərqlənir ki, biz razılığa gəldiyimiz bütün məsələləri yerinə yetiririk. Biz bütün beynəlxalq qurumlarda bir-birimizi dəstəkləyirik, əməkdaşlıq edirik, Sizin qeyd etdiyiniz kimi, ticari-iqtisadi əlaqələrimiz möhkəmlənir. Sənaye kooperasiyası çox fəal inkişaf edir. Hərbi-texniki, mədəniyyət, təhsil sahələrində əməkdaşlığın da yaxşı tarixi var. Yəni, biz bütün istiqamətlərdə müsbət, yaxşı əhvali-ruhiyyə, konkret nəticələr görürük və əlbəttə, əminəm ki, mənim budəfəki səfərim həm görülmüş işləri müzakirə və təhlil etmək, onlara müəyyən yekun vurmaq, həm də gələcək əməkdaşlıq, yaxınlaşma yollarını müəyyən etmək üçün bir imkandır. Əminəm ki, bu gün biz bu istiqamətdə mühüm qərarlar qəbul edəcəyik.

Fürsətdən istifadə edib Sizi özünüz üçün münasib vaxtda Azərbaycana növbəti rəsmi səfərə dəvət etmək istərdim. Qonaqpərvərliyə və dəvətə görə bir daha sağ olun.

# və strateji tərəfdaş olaraq qalacaqlar

## Münasibətlərin başlıca əsası qarşılıqlı hörmət və etimadın yüksək səviyyəsidir

Noyabrın 19-da təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.

Belarus Prezidenti **Aleksandr LUKAŞENKO** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar.

Sizi Belarusun paytaxtında salamlamağa ürəkdən şadam. Bu il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının 25 illiyi qeyd edildi. Biz bu əlamətdar tarixə yaxşı nəticələrlə gəlmişik. Əsrin dörddəbiri ərzində ikitərəfli dialoq strateji xarakter alıb. Dövlətlərarası etimadın yüksək səviyyədə olması təsadüfi deyil. Bunun əsasını Belarus və Azərbaycan xalqlarının qədim dostluq ənənələri təşkil edir. Bu, hətta ən mürəkkəb məsələləri də konstruktiv şəraitdə müzakirə etməyə imkan verir. Vurğulamalıyam ki, Belarus ticari-iqtisadi sahədə sistemli və uzunmüddətli əməkdaşlıq əzmindədir. Azərbaycan ilə əmtəə dövriyyəsinin müsbət dinamikasına baxmayaraq, onun həcmi optimal səviyyədən uzaqdır. Bu gün biz Prezidentlə bu barədə xeyli söhbət etdik. Biz əmtəə dövriyyəsinin artırılması üçün potensialın olduğunu görürük. İqtisadiyyatın inkişafına Prezidentlə bizim baxışlarımızın oxşar olması sayəsində geniş istehsal kooperasiyası üçün təməl yaradılıb. Belarusda maşınqayırmanın flaqmanları olan Minsk traktor zavodu, Minsk avtomobil zavodu, habelə Gəncə avtomobil zavodu bu işin layiqli nümunəsini nümayiş etdiriblər. Gəncədə artıq 10 mindən çox traktor və 3500 vahid avtotexnika yığılıb.

Bu gün biz əməkdaşlığın prinsipcə yeni mərhələsinə - üçüncü ölkələrin bazarlarının birgə mənimsənilməsinə başlamağa hazırıq. Vaxtilə biz bu barədə yalnız arzu edirdik. Minsk və Gəncə zavodlarının iştirakı ilə Türkiyə üçün traktorların buraxılışı layihəsi yüksək hazırlıq səviyyəsindədir. Gələcək məhz bu cür təşəbbüslərindir, onlara istiqamətlənmək lazımdır. Azərbaycana elektrobuslar, liftlər, taxılyığan kombaynlar və digər kənd təsərrüfatı texnikası göndərilməsi və onların orada yığılması kimi istiqamətlər üzrə perspektivlər var. Biz vaxtilə öz kombaynlarımızın istehsalı barədə qərar qəbul etməyə məcbur olduq və yanılmadıq. Biz bu texnikanın sizdə birgə istehsalını yaratmağa və hətta Azərbaycandan daha çox üçüncü ölkələr üçün işləməyə hazırıq. Ona görə ki, sizin qonşularınızın bu texnikaya ehtiyacı Azərbaycanın özünün ehtiyacından xeyli çoxdur. Odur ki, biz MAZ və MTZ prinsipləri üzrə bu texnikanın Azərbaycanda birgə istehsalı ilə məşğul olmağa hazırıq.

Bundan əlavə, aqrar sahədə əlaqələri genişləndirmək, ərzaq məhsullarının qarşılıqlı satışını artırmaq lazımdır. Azərbaycan istehlakçısının bizim süd, ət, balıq məhsullarımıza, qənnadı məmulatlarımıza tələbatı var. Beynəlxalq ticarət ikitərəfli ticarətdir. Buna görə də Belarus bazarında sizin malların artırılmasına maraq var. Bu gün Prezident baş çəkdiyi Ticarət Evi haqqında danışdı. Gələcəkdə bu şəbəkəni inkişaf etdirərək vilayət mərkəzlərinə keçmək nəzərdə tutulur. Tanrının izni ilə bu mağazalar və bu ticarət evləri sizin məhsullarla dolu olacaq. Həmin məhsulları təkcə belaruslar almır. Ukrayna hadisələri ilə əlaqədar bütün axınlar Belarusdan keçir, Azərbaycan məhsullarına çox böyük tələbat var. Xüsusən ona görə ki, azərbaycanlılar ticarəti bacaran ən yaxşı adamlardır, mən bunu həmişə etiraf etmişəm. Bunu necə etməyi biz sizdən öyrənməliyik. Bununla əlaqədar keçən il Minskdə Ticarət Evi açılmasını alqışlayıram. Biz bu layihəyə maksimum dəstək veririk, əmtəə dövriyyəsinin tarazlaşdırılmış artımı istiqamətləri üzrə təklifləri bundan sonra da dəstəkləmək niyyətindəyik.



Siz lap yaxın vaxtlarda Türkiyədə neft emalı kompleksi inşa etmisiniz. Azərbaycanlı sərmayədarların Belarusa gəlişinə şad olarıq və strateji sahələrdə ciddi qarşılıqlı fəaliyyətə hazırıq. İndi Azərbaycan Dövlət Neft Şirkətinin "Qrodno-Azot" şirkətinin modernləşdirilməsinə sərmayə qoyması imkanları müzakirə edilir. Biz bu cür səyləri alqışlayırıq.

Nəqliyyat-logistika sahəsində xeyli ehtiyatlar var. Məsələn, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılması və "İpək Yolu İqtisadi Kəməri" təşəbbüsü çərçivəsində dəmir yollarının çəkilişi. Biz həmin layihələrə bu və ya digər şəkildə qoşulmuşuq. Fikrimcə, əczaçılıq üzrə birgə müəssisələrin yaradılması, habelə informasiya-kommunikasiya texnologiyaları, elm və mədəniyyət sahələrində səylərin əlaqələndirilməsi perspektivli olacaq. Biz Azərbaycan üçün, özü də sizə lazım olacaq bütün ixtisaslar üzrə lazımi qədər kadrlar hazırlanmasını davam etdirmək əzmindəyik. O cümlədən sizin xilasedicilərin Belarus Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Universitetində təhsil alması yolu ilə.

Hüquq mühafizə strukturlarının, sosial-müdafiə qurumlarının, aqrokompleksin, xüsusi rabitə və informasiyalaşdırma sahələrinin əməkdaşları arasında ənənəvi sıx və fəal ikitərəfli əlaqələr dəstəklənir. İmzalanmaq üçün hazırlanmış sazişlər bizim əməkdaşlığımızı daha da səmərəli edəcək. Belarus II Avropa Oyunlarının müdiriyyəti ilə əməkdaşlıq edən azərbaycanlı məsləhətçilərə, Azərbaycan Gənclər və İdman Nazirliyinə təşəkkür edir. Gələn il keçiriləcək Oyunların təşkili məsələsində göstərdiyiniz fəal köməyə və dəstəyə görə sizə təşəkkür edirəm və təbii ki, sizin hamınızı həmin Oyunlarda gözləyirik.

Bir daha vurğulayıram, Azərbaycan bizim üçün etibarlı strateji tərəfdaş olub və olaraq qalır. Biz sizinlə dostluğumuzu yüksək qiymətləndiririk və Avropanın mərkəzində Azərbaycanın mənafelərinin irəliləməsinə səmimi və açıq şəkildə kömək etməyə hazırıq. Bizdə əməkdaşlıq üçün qapalı mövzular yoxdur. Biz heç vaxt hansısa üçüncü, beşinci ölkələrə qarşı əməkdaşlıq etməmişik. Biz xalqlarımızın rifahı üçün nə lazımdırsa edirik. Hər hansı gizli, qapalı mövzular yoxdur və heç vaxt olmayacaq. Biz bütün dünya üçün səmimi və açığıq, bizim qarşılıqlı münasibətlərimiz də elədir.

Hörmətli İlham Heydər oğlu, Sizi və nümayəndə heyətinizin üzvlərini Belarus torpağında bir daha salamlayıram. Bilin ki, siz bizim üçün həmişə arzu edilən qonaqlarsınız. Təşəkkür edirəm.

* * *

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli Aleksandr Qriqoryeviç, ilk növbədə, dəvətə görə Sizə bir daha təşəkkür etmək istərdim. Belarusa səfər bizə həmişə xüsusi sevinc bəxş edir. İlk növbədə, Sizi və bütün Belarus xalqını ölkənizin sosial-iqtisadi inkişafında qazandığınız nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Mən Belarusa müntəzəm səfər edən bir şəxs kimi ölkənizin necə dinamik və səmərəli inkişaf etdiyini görürəm. Bizim münasibətlərimiz ölkələrimiz arasındakı səmimiyyəti və əməkdaşlığı yaxşı nümayiş etdirir. Biz bütün məsələlərlə bağlı qarşılıqlı fəaliyyət göstəririk və qəbul edilən qərarlar hökmən həyata keçirilir. Bu gün Siz ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərini qeyd etdiniz. Mən də öz növbəmdə qeyd etmək istərdim ki, biz bütün istiqamətlər üzrə fəal irəliləyiş olduğunu və yaxşı nəticələr qazanıldığını görürük. Bizim hər görüşümüz münasibətlərimizə təkan verir və konkret layihələrin həyata keçirilməsinə doğru aparır. Biz görülmüş işlərə yekun vururuq, gələcək qarşılıqlı fəaliyyətin və əməkdaşlığın yollarını müəyyənləşdiririk və qəbul etdiyimiz qərarları səmərəli şəkildə həyata keçiririk.

Beynəlxalq münasibətlər sahəsində əməkdaşlıq da həmişə çox səmərəli və proqnozlaşdırıla biləndir. Biz həmişə bir-birimizi dəstəkləyirik və düşünürəm ki, beynəlxalq məsələlərdə qarşılıqlı dəstək bizim münasibətlərin səmimiliyini yaxşı nümayiş etdirir. Biz şadıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi artır. Həm keçən il, həm də bu il əmtəə dövriyyəsini xeyli artırmağımıza baxmayaraq, onun artım dinamikası davam edir. Siz qeyd etdiyiniz kimi, sənaye kooperasiyası sahəsində müstəsna müsbət nəticələr əldə edilib. Lakin biz əməkdaşlığı davam etdirmək, qazanılmış səviyyə ilə kifayətlənməmək fikrindəyik. Ona görə ki, sənaye sahəsində əməkdaşlıq potensialını bundan sonra da artırmaq üçün hələ çox iş görmək olar.

Fikrimcə, bizim gələcək əməkdaşlığımızın əsas istiqamətlərindən biri nəqliyyat sahəsi ilə bağlı olacaq. Siz çıxışınızda "Şimal-Cənub nəqliyyat dəhlizi"ni qeyd etdiniz. Azərbaycan öz ərazisində bu dəhlizin fəaliyyəti ilə əlaqədar bütün işləri başa çatdırıb. İndi biz bu gün xeyli yük daşımağa qabil olan nəqliyyat infrastrukturumuzun daha da modernləşdirilməsi məsələləri ilə məşğuluq. Azərbaycan həm də "Şərq-Qərb nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. Düşünürəm ki, bu iki mühüm nəqliyyat marşrutu üzrə ölkələrin fəaliyyətinin əlaqələndirilməsi əməkdaşlıq üçün tamamilə yeni şərait yaradacaq, on minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaq, ölkələrimiz arasında yük axınını xeyli artıracaq. Təsadüfi deyil ki, hökumətlərarası komissiyanın dünənki iclasında mühüm mövzulardan biri nəqliyyat sahəsi ilə bağlı məsələlər olub.

Əlbəttə, biz Belarusun II Avropa Oyunlarını keçirməyə necə fəal hazırlaşdığını diqqətlə izləyirik. Bu, təbiidir, birincisi ona görə ki, biz dostlarıq. İkincisi, birinci Oyunlar Bakıda keçirilib. Biz inanırıq ki, yaradılmış idman infrastrukturu, qonaqların qalmaları üçün gözəl şərait, habelə Belarusun beynəlxalq tədbirlərin təşkili sahəsində nümayiş etdirdiyi yüksək səviyyə Oyunların da çox yüksək səviyyədə keçirilməsinə imkan verəcək.

Siz qeyd etdiyiniz kimi, biz kənd təsərrüfatı, təhsil və elm sahələrində əməkdaşlığa da böyük diqqət yetiririk. Daha doğrusu, bizim çox yaxşı nəticələr əldə etdiyimiz sahələri sadalamaqdansa, fəal əməkdaşlıq etmədiyimiz sahələri sadalamaq daha asan olar. Bizim münasibətlərimizin başlıca əsası qarşılıqlı dəstək, qarşılıqlı hörmət və qarşılıqlı etimadın yüksək səviyyəsidir. Düşünürəm ki, biz bu əsasda birgə səylərimizlə ölkələrimiz, xalqlarımız üçün yaxşı imkanlar yaradacaq, münasibətlərimizi daha da inkişaf etdirəcəyik. Azərbaycan üçün Belarus mehriban dost və etibarlı tərəfdaşdır. Əminəm ki, mənim bugünkü səfərim münasibətlərimizə yeni təkan verəcək.

Qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm və əminəm ki, yaxşı nəticələr ölkələrimiz arasında daha sıx qarşılıqlı fəaliyyətə gətirib çıxaracaq. Sağ olun.

## Müxtəlif sahələri əhatə edən 8 sənəd imzalandı



Noyabrın 19-da geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatını Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko imzaladılar.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında sosial-əmək sahəsində əməkdaşlıq məsələləri üzrə Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Belarusun əmək və sosial müdafiə naziri İrina Kosteviç imzaladılar.

"Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Belarus Respublikasının Rabitə və İnformasiya Nazirliyi arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu"nu Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və Belarusun rabitə və informasiya naziri Konstantin Şulqan imzaladılar.

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında 17 oktyabr 2006-cı il tarixində Minsk şəhərində imzalanmış əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsinə dair 2019-2021-ci illər üzrə Kompleks Tədbirlər Planı"nı Azərbaycanın fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Belarusun fövqəladə hallar naziri Vladimir Vaşenko imzaladılar.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsi arasında hava hücumundan müdafiə silah və texnikasının təchiz olunması sahəsində ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Belarusun Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Roman Qolovçenko imzaladılar.

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikası Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Belarusun kənd təsərrüfatı nazirinin müavini Vladimir Qrakun imzaladılar.

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Belarus Respublikası Məhkəmə Ekspertizası Dövlət Komitəsi arasında məhkəmə-ekspertiza fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov və Belarusun Məhkəmə Ekspertizası Dövlət Komitəsinin sədri Andrey Şved imzaladılar.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu və Belarus Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın baş prokuroru Zakir Qaralov və Belarusun baş prokuroru Aleksandr Konyuk imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Belarusun daxili işlər naziri İqor Şuneviç imzaladılar.

* * *

Sənədlərin imzalanmasından sonra ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş birgə poçt markasının buraxılışı mərasimi oldu. Azərbaycanın və Belarusun dövlət başçıları markaları xüsusi ştamplarla möhürlədilər.

Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko üzərində marka olan zərfi imzaladılar.

## Azərbaycanla Belarus arasında həll edilməmiş məsələlər və müzakirə üçün qapalı mövzular yoxdur

Noyabrın 19-da sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata birgə bəyanatla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Belarusun dövlət başçısı bəyanatla çıxış etdi.



### Prezident Aleksandr Lukaşenkonun bəyanatı

- Hörmətli dostlar!

Bu gün mənim dostum, həmkarım Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə məhsuldar danışıqlar apardıq. Biz ölkələrimiz arasında tərəfdaşlığın strateji xarakterini, ikitərəfli münasibətlərdə problemlərin qətiyyən olmadığını, yalnız xoş məramı və bizim birgə əməkdaşlıq səylərimizi təsdiq etdik. Bu il mühüm tarixlə - Belarusla Azərbaycanın diplomatik münasibətlər qurmasının 25 illiyi ilə əlamətdardır. Əsrin dörddəbiri ərzində ölkələrimiz dövlətlərarası qarşılıqlı fəaliyyətin qurulmasında xeyli irəliləyiblər. Buna müntəzəm dialoq, o cümlədən yüksək səviyyədə dialoq kömək edib.

Mən Prezident həmkarımla görüşlərin etimada əsaslanan, səmimi ab-havasını çox yüksək qiymətləndirirəm. Biz beynəlxalq gündəliyin istisnasız olaraq bütün məsələlərini açıq və məhsuldar müzakirə edirik. Bugünkü danışıqların gedişində əsas diqqət uğurlu ticari-iqtisadi və investisiya əməkdaşlığına yönəldilib. Əldə olunan razılaşmalar bu əməkdaşlığın artırılmasına əlavə impuls verməyə kömək edəcək.

Cari ildə biz qarşılıqlı ticarətin artımını müşahidə edirik. Bir vaxtlar təşəbbüskarları prezidentlər olan layihələr gücünü artırır. Məsələn, Gəncə avtomobil zavodunda 11 il ərzində artıq 10 mindən çox "Belarus" traktoru və onların bazasında xüsusi texnika yığılıb. Müəssisə, həmçinin 3500-dən çox MAZ avtomobili və qoşqular buraxıb. Bu gün məmnuniyyətlə öyrəndim ki, sizin aldığınız Amerika və alman taxılyığan kombaynları ilə yanaşı, Azərbaycana Belarusun ilk "Qomselmaş"ı da gəlib. Bizim üçün bu, qarşılıqlı səmərəli əməkdaşlığın əla nümunəsidir. Yeri gəlmişkən, lokallaşma artıq demək olar ki, yarıya çatıb. Bu, Azərbaycan sənayesinin böyük imkanlarından və onun yüksək kadr potensialından aydın xəbər verir. Amma məhsul nə qədər keyfiyyətli olsa da, onu səmərəli satmaq, həm də yaxşı olar ki, ixrac etmək lazımdır. Buna görə də Minsk traktor zavodu və Gəncə avtomobil zavodu hazırda Türkiyədə traktorların yığılması ilə bağlı bizim ümumi layihə üzərində işləyir. Biz bu mühüm perspektivli istiqaməti inkişaf etdirəcəyik və bu, Azərbaycan Prezidentinin mövqeyi sayəsində mümkün olub.

Belarus Azərbaycan investisiyalarına və yüksək səviyyəli məhsullarına maraq göstərir. Bu gün sizin məhsullar ötən il Minskdə açılan Azərbaycan Ticarət Evində geniş təqdim edilir. Onların Belarus alıcılarında populyarlıq qazanmasına görə Azərbaycan Prezidenti bu şəbəkənin vilayət mərkəzlərinə genişləndirilməsi haqqında qərar qəbul edib.

Nəqliyyat-logistika sahəsində də birlikdə çox iş görmək olar. Biz Azərbaycanın infrastruktur layihələrində - yeni dəmir yollarının, dəniz limanlarının, logistika mərkəzlərinin tikintisində iştirak etməyə hazırıq. Səhiyyədə, təhsildə, informasiya-kommunikasiya texnologiyalarında, idmanda, turizmdə əməkdaşlıq ehtiyatları mövcuddur. Bu gün əldə olunan razılaşmaların gerçəkləşdirilməsi lap tezliklə niyyətlərimizi konkret işlərə çevirməyə imkan verəcək. Məsələn, artıq Azərbaycanda Belarus dərmanlarının buraxılışı üzrə birgə müəssisənin yaradılması sahəsində işlər aparılır. Tam əminəm ki, digər irimiqyaslı maraqlı layihələrin gerçəkləşməsi də çox uzaqda deyil.

Əziz dostlar, sizə məlumdur ki, 2019-cu ildə Belarus Bakıdan sonra II Avropa Oyunlarını qəbul edir. Prezidentlə mən 2015-ci ildə belə miqyaslı tədbiri əla keçirməyin öhdəsindən gələn Azərbaycanın təcrübəsini ətraflı müzakirə etdik. Üstəlik deməliyəm ki, sizdən sonra bütün ölkələr belə oyunları qəbul etməyə qorxurlar. Çünki həmin səviyyə ilə rəqabət aparmaq, mən bunu səmimi deyirəm, qətiyyən mümkün deyil. Biz də bu səviyyəni aşağı salmamaq üçün ciddi fikirləşməliyik. Həm də fikirləşməliyik ki, bunu nəyin hesabına edə bilərik. Amma birmənalı olaraq sizə minnətdarıq ki, mütəxəssisləriniz, nazirləriniz bizə ciddi məsləhətlər verərək bizi faktiki surətdə II Avropa Oyunlarına hazırlayırlar. Həm də mən, ilk növbədə, bu beynəlxalq idman tədbirinə hazırlıqda köməyinə görə öz həmkarıma təşəkkür edirəm. Növbəti dəfə sizin hamınızı, məhz bu Avropa Oyunlarını izləməyi arzulayan Azərbaycan vətəndaşlarını Belarusa gəlməyə dəvət edirəm.

Bizim ölkələrimiz arasında həll edilməmiş məsələlər və müzakirə üçün qapalı mövzular yoxdur. Belarus və Azərbaycan həmişə etibarlı və strateji tərəfdaş olaraq qalacaqlar. Əminəm ki, ənənəvi səmərəli əməkdaşlıq, qarşılıqlı dəstək bundan sonra da Belarus-Azərbaycan münasibətlərini fərqləndirən cəhət olacaq. Təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan dövlətinin başçısı bəyanatla çıxış etdi.

Ardı 4-cü səh.

# Belarus və Azərbaycan həmişə etibarlı və strateji tərəfdaş olaraq qalacaqlar

## Azərbaycanla Belarus arasında həll edilməmiş məsələlər və müzakirə üçün qapalı mövzular yoxdur

### Prezident İlham Əliyevin bəyanatı



*Əvvəli 3-cü səh.*

- Hörmətli Aleksandr Qriqoryeviç!

Əziz dostlar!

Mən yenidən dost Belarus torpağında olmağımdan şadam. Dəvətə görə dostum Aleksandr Qriqoryeviç Lukaşenkoya minnətdaram. Deməliyəm ki, mənim Belarusa indiki səfərim sizin ölkənizə beşinci rəsmi səfərimdir. Aleksandr Qriqoryeviç Azərbaycana dörd rəsmi səfər edib və mən bu gün Belarus Prezidentini yenidən Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Qarşılıqlı səfərlərin sayının özü və onların intensivliyi ölkələrimiz arasında münasibətlərimizin yüksək səviyyəsindən xəbər verir. Aleksandr Qriqoryeviç qeyd etdi ki, bizim ölkələrimiz strateji tərəfdaşlardır və biz bunu əməkdaşlığımızın hər bir sahəsində nümayiş etdiririk.

Siyasi münasibətlərin yüksək səviyyəsi, ölkələrimiz arasında qarşılıqlı hörmət, etimad, prezidentlər arasında şəxsi dostluq - bütün bunlar üzərində Belarus-Azərbaycan dostluğunun möhtəşəm binasının tikildiyi təməldir.

Biz beynəlxalq təşkilatlarda aktiv qarşılıqlı fəaliyyət göstəririk, bütün məsələlərdə bir-birimizi dəstəkləyirik. Mən deyərdim ki, bu dəstək avtomatik xarakter daşıyır - hətta müzakirəsiz, məsləhətsiz, razılaşmasız. Əgər hər hansı beynəlxalq təşkilatda Belarusla, yaxud hər hansı rəhbər orqanlara namizədliyi irəli sürülən bu ölkədən namizədlə əlaqədar məsələ qaldırılırsa, Azərbaycan qeyd-şərtsiz dəstək göstərir. Eyni münasibəti biz Belarus tərəfdən də görürük. Bu, bizim münasibətlərimizin yüksək səviyyəsinin göstəricisidir. Biz, həmçinin ya Azərbaycanın, ya da Belarusun iştirak etmədiyi, amma başqa ölkənin iştirak etdiyi təşkilatlarda da bir-birimizi dəstəkləyirik və bu da təbiidir. Bu, bizim beynəlxalq siyasət, beynəlxalq münasibətlər, regional problemlər və beynəlxalq təhlükəsizliklə əlaqədar məsələləri müzakirə etdiyimiz kimi təbiidir. Bütün bunlar dostlar arasında təbiidir.

Bu gün bizim münasibətlərimizin səviyyəsi məhz elədir ki, istənilən məsələləri açıq müzakirə etməyə imkan verir. Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, bizdə heç bir qapalı mövzu və əməkdaşlığımızın heç bir sahəsində qətiyyən məhdudiyyət yoxdur. Biz bu gün gələcəkdə münasibətlərimizin xarakterini müəyyənləşdirəcək xeyli sənəd imzaladıq. Mən onların arasında, ilk növbədə, əlbəttə, prezidentlərin Birgə Bəyanatını qeyd edərdim. Bu, əməkdaşlığımızın əsas istiqamətlərini ehtiva edən, ölkələrimizin siyasi iradəsini ifadə edən mühüm siyasi sənəddir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə əlaqədar məsələlər üzrə Belarusun mövqeyinə görə həm öz adımdan, həm də Azərbaycan xalqı adından xüsusi minnətdarlığımı bildirmək istərdim. Birgə Bəyanatda vurğular dəqiq qoyulub və deyilir ki, bu münaqişə Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həll edilməlidir. Biz Belarusa həm bizim, həm də bütün region üçün son dərəcə mühüm olan məsələdə belə obyektiv mövqeyinə görə minnətdarıq.

Aleksandr Qriqoryeviçin dediyi kimi, ticari-iqtisadi sahədə yaxşı perspektivlər və nəticələr var. Əlbəttə, əmtəə dövriyyəsinin artımı bizi sevindirir. Bu gün biz vəziyyəti təhlil etdik. Dünən hökumət üzvləri çox uğurlu iş apardılar - hökumətlərarası komissiyanın iclası çox yaxşı nəticələr verdi. Bizə bildirdilər ki, on milyonlarla dollarlıq müqavilələr bağlanıb. Bu, gələcək üçün yaxşı göstəricidir. Biz görülən işləri təhlil edirik, məsələlərin həlli yollarını müəyyənləşdiririk və bu məsələləri həll edirik. Mən Aleksandr Qriqoryeviçlə Gəncə avtomobil zavodunun bazasında "Belarus" traktorlarının yığılması üçün istehsal sahəsi yaratmaq barədə razılaşanda da eyni hadisə baş verdi. Budur, Aleksandr Qriqoryeviçin qeyd etdiyi kimi, artıq 10 mindən çox traktor yığılıb və lokallaşma səviyyəsi ildən-ilə artır. Bu, Azərbaycanda yeni iş yerləri yaradır. Artıq yeni sənaye sahəsi yaradıb. Bu, bizim sənaye potensialımızın artımına səbəb olub. Bu, belaruslu istehsalçılara öz təcrübələrini bizimlə bölüşmək, öz məhsullarını üzə çıxarmaq imkanı yaradıb və indi o məhsullar artıq üçüncü ölkələrin bazarlarına çıxır.

Biz bu gün kombaynların istehsalı üçün oxşar yanaşma barədə razılaşdıq. Artıq qeyd edildiyi kimi, Belarus avtomobilləri Azərbaycanda istehsal olunur. Belə ki, çox yüksək səmərəlilik dərəcəsi ilə tammiqyaslı sənaye kooperasiyası gedir.

Mən bu gün səhər Azərbaycan Ticarət Evinə baş çəkdim. Deməzdim, təəccübləndim, amma sevindim ki, belə gözəl yerdə, şəhərin mərkəzində Azərbaycanın yaraşıqlı guşəsi yaradılıb və orada bizim nailiyyətlərimiz Belarus vətəndaşlarına nümayiş etdiriləcək. Həmçinin mənə dedilər ki, bizim məhsullarımız artıq Belarus bazarına çıxıb və onlara yaxşı tələbat var. Biz bu baxımdan belaruslulardan geri qalmışıq. Artıq Bakıda yüksək keyfiyyətli və bizim vətəndaşlar arasında çox məşhur olan Belarus məhsullarını satan yeddi ticarət müəssisəsi mövcuddur. Biz məhsullarımızı Belarus bazarına çıxarmaq niyyətindəyik. Düşünürəm ki, bu, həm bizim ikitərəfli ticari-iqtisadi əlaqələrimizi möhkəmləndirəcək, həm də bir-birimizin imkanlarını daha çox nümayiş etdirəcək.

Biz şadıq ki, Belarus Bakıdan estafeti qəbul edib və II Avropa Oyunları Minskdə keçiriləcək. Əminəm ki, Oyunlar ən yüksək səviyyədə olacaq. Artıq çox gözəl idman infrastrukturu yaradılıb. Qonaqların qalması üçün də yaxşı şərait var. Düşünürəm ki, təşkilatçılıq da ən yüksək səviyyədə olacaq. Çünki Belarusda keçirilən bütün irimiqyaslı beynəlxalq tədbirlər ən yüksək standartlara cavab verir.

Bizim əməkdaşlığımızın istiqamətlərindən biri də hərbi-texniki sahədir. Biz bu əməkdaşlıqdan çox razıyıq, məhsulların keyfiyyəti və səmərəliliyi çox yüksəkdir. Buna görə də təsadüfi deyil ki, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın artıq yaxşı tarixi, kifayət qədər böyük həcmləri və genişlənməyə yaxşı meyli var. Təsadüfi deyil ki, bu gün imzalanan sənədlər arasında memorandum da var. Bu sənəd ən qısa müddətdə Belarusdan hərbi texnikanın növbəti partiyasının alınması üçün müqaviləyə çevriləcək.

Bu gün bizim müzakirə etdiyimiz digər istiqamətlər - sosial, kənd təsərrüfatı, miqrasiya, fövqəladə hallar sahələri üzrə də yaxşı dinamika mövcuddur. Münasibətlərimiz tam dəyərli, olduqca mehriban və səmimidir. Əminəm ki, mənim səfərim onlara yeni təkan verəcək. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

* * *

Sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.



## Səfər başa çatdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfəri noyabrın 19-da başa çatıb.

AZƏRTAC

# Minskdə ticari-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan hökumətlərarası komissiyasının iclası keçirilib

Minskdə ticari-iqtisadi əməkdaşlıq üzrə Belarus-Azərbaycan hökumətlərarası komissiyasının 11-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan nümayəndə heyətinə Baş nazirin birinci müavini Yaqub Eyyubov rəhbərlik edib.

Belarusun Baş nazirinin müavini Mixail Rusıy iclasda deyib ki, Minsk azərbaycanlı tərəfdaşlarla bütün səviyyələrdə, o cümlədən ikitərəfli hökumətlərarası komissiya formatında fəal qarşılıqlı fəaliyyəti davam etdirmək niyyətindədir. Azərbaycanla ticari-iqtisadi əməkdaşlığın dinamikasından məmnunluğunu ifadə edən M.Rusıy diqqətə çatdırıb ki, cari ilin yanvar-sentyabr aylarında iki ölkə arasında əmtəə dövriyyəsi ötən ilin analoji dövrü ilə müqayisədə 3,3 faiz artaraq 331,5 milyon dollar təşkil edib. "İndi qarşılıqlı əmtəə dövriyyəsinin artımının dayanıqlı və uzunmüddətli hal alması üçün yeni birgə layihələr üzərində fəal iş aparmaq lazımdır. Biz sənaye və kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişlənməsinə, Gəncə avtomobil zavodunda traktorların, taxılyığan kombaynlarının, MAZ texnikasının və digər sənaye məhsullarının buraxılmasına böyük əhəmiyyət veririk. Artıq biz birlikdə kənd təsərrüfatı maşınqayırması sahəsini yaratmışıq", - deyə Baş nazirin müavini qeyd edib.

Onun sözlərinə görə, Belarus-Azərbaycan traktorlarının Türkiyədə yığılması üzrə istehsal iki ölkənin əməkdaşlığını yeni səviyyəyə yüksəldəcək. "Bu, üç ölkənin yeni perspektivli layihəsidir. Onun uğurla həyata keçirilməsi gələcəkdə regiondakı bazara birgə çıxışın təmin edilməsi sahəsində yeni təşəbbüslərimiz üçün yol açacaq", - deyə M.Rusıy əlavə edib.

Belarusun Baş nazirinin müavini nəqliyyat və logistika, neft-kimya, farmasevtika sahələrində əməkdaşlığın da perspektivli olduğunu söyləyib. Belarus hökuməti, həmçinin qarşılıqlı ərzaq tədarükünü də fəal şəkildə dəstəkləmək niyyətindədir. "Belarusun ət və süd məhsulları, qənnadı məmulatları artıq Azərbaycan istehlakçısına yaxşı məlumdur. Biz ötən il Minskdə Azərbaycan Ticarət Evinin açılmasını və dostlarımızın digər analoji təşəbbüslərini alqışlayırıq, hökumətimiz tərəfindən onlara maksimal dərəcədə dəstək göstərəcəyik", - deyə Mixail Rusıy vurğulayıb.

Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov ötən dövrdə ölkələrimiz arasında münasibətlərin daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatdığını qeyd edib. Vurğulayıb ki, Azərbaycan və Belarus prezidentlərinin şəxsi dostluq münasibətləri sayəsində iki ölkə arasında əlaqələr gündən-günə genişlənir. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da möhkəmlənməsinin zəruriliyini qeyd edən Y.Eyyubov deyib ki, əmtəə dövriyyəsinin hazırkı səviyyəsi mövcud potensialımıza uyğun deyil. "Aramızda olan səmimi dostluq münasibətləri mühümdür. Bunun çox böyük dəyəri var", - deyə Baş nazirin birinci müavini diqqətə çatdırıb.

Hökumətlərarası komissiyanın iclasının yekunlarına dair yeddi sənəd imzalanıb. Onlardan üçü Gəncə avtomobil zavodu ilə bağlıdır.

Sənədlərdən birində Belarus-Azərbaycan traktorlarının Türkiyədə yığılması nəzərdə tutulur. "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Xanlar Fətiyevin sözlərinə görə, müəssisənin 2019-cu ilin I rübündə işə başlaması planlaşdırılır. Türkiyədəki zavodun konveyerindən 5 minə qədər traktorun buraxılması nəzərdə tutulur. İlkin mərhələdə layihənin istehsal gücü 2,5 min ədəd miqdarında yerinə yetiriləcək.

Hökumətlərarası komissiyanın iclası çərçivəsində, həmçinin "Belarus dəmir yolu" Dövlət Birliyi (DB) və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (QSC) arasında qarşılıqlı-faydalı əməkdaşlığa dair saziş imzalanıb. Sənədi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və "Belarus dəmir yolu" DB-nin rəisi Vladimir Morozov imzalayıblar.

Vladimir Morozovun sözlərinə görə, Belarusla Azərbaycan arasında daha rahat, dayanıqlı nəqliyyat əlaqəsinin yaradılması nəzərdə tutulur. "Şimal-Cənub dəhlizi"nin inkişafı, bu marşrutla Hindistan, İran, Azərbaycan, Rusiya və Belarusdan yüklərin daşınması üçün şərait yaradılması xüsusi əhəmiyyət kəsb edir. Sənəddə tarif və texnologiya istiqamətləri üzrə işçi qruplarının yaradılması da nəzərdə tutulur.

# Akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" (XVII əsr - XVIII əsrin ilk dörddəbiri)" kitabı haqqında




Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" (XVII əsr - XVIII əsrin ilk dörddəbiri)" kitabı "Şərq-Qərb" nəşriyyatında çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan tarixinin, onun dövlətçiliyinin təşəkkülünün, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektlərinə həsr edilmiş çoxsaylı sanballı əsərlər akademik Ramiz Mehdiyevin qələminin məhsullarıdır. Mübaliğəsiz demək olar ki, bu əsərlərin hər birinin nəşri respublikanın elmi həyatında əlamətdar hadisəyə çevrilib, elmi mühitdə və cəmiyyətdə geniş əks-səda doğurub, qızğın müzakirələrə səbəb olub. Bu əsərlərin başlıca xüsusiyyəti şərhin fəlsəfi dərinliyi, elmi yanaşma, ciddi ardıcıllıq və məntiqilik, habelə qaldırılan mövzuların yeniliyi və tarixin az öyrənilmiş səhifələrinə müraciət edilməsidir.

Bu baxımdan, alimin yeni kitabı da istisna deyil. Bu, Qərb dövlətlərinin, habelə Rusiyanın əlində Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş Qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin dərk edilməsi və ətraflı işıqlandırılması üçün ilk cəhddir. Məsələyə bir qədər geniş yanaşsaq, bu, əzəli Azərbaycan torpaqlarının bir neçə əsr davam edən işğalında Eçmiədzinin roluna, ermənilərin ərazi iddialarının mənbələrinə tamamilə yeni baxışdır. Bu proseslərin dərin təhlili ermənilərin müəllif tərəfindən tutarlı faktlarla təsvir edilən və regiondakı iri dövlətlərin tərkibində həmişə "beşinci kolon" rolu oynamasını şərtləndirən psixoloji portretinə əsaslanır. Akademik R.Mehdiyev yazır: "Ermənilərin tarixindəki faktlar sübut edir ki, satqınlıq, başqa millətdən olan insanları qəbul etməmək ayrı-ayrı epizodlar deyil, konkret məqsədlərə nail olmağa yönəlmiş şüurlu hərəkətlərdir... Bədrəftarlıq onların xarakterinin mühüm cəhətidir".

Müəllif ermənilərin daha bir səciyyəvi cəhətini - saxtakarlıqlara meyilli olmasını açıb göstərir. Yalan həmişə ermənilərin əsas ideoloji silahı olub. Bu, kitabın birinci fəslində dəqiq göstərilib. Alim faktlara əsaslanaraq erməni mənbələrinin guya Qriqorian kilsəsinin Səfəvilərə qarşı fəaliyyətinin həmin ərazilərdə erməni dövlətinin bərpa edilməsi uğrunda mübarizə ilə bağlı olduğuna dair yalan iddialarını ifşa edir. Müəllif sübut edir ki, həmin ərazilərdə erməni dövləti heç vaxt mövcud olmayıb. Alim, həmçinin erməni tarixçiləri tərəfindən guya Səfəvi hökmdarları arasında "erməni fobiyası"nın mövcud olması, onların erməni əhalini məhv etməsi, ermənilərə İslam dinini zorla qəbul etdirməsi və erməni ruhaniləri sıxışdırması barədə irəli sürülən tezisin də əsassız olduğunu göstərir. Bu halda müəllif elə ermənilərin öz mənbələrinə, o cümlədən orta əsr salnaməçisi Arakel Davrijetsinin, salnaməçi Zəkəriyyə Kenakertsinin, habelə Rusiya və Qərb tədqiqatçılarının əsərlərinə istinad edir. Bu əsərlərdə göstərilir ki, Səfəvi dövlətinin hökmdarları erməni əhaliyə tolerant münasibət bəsləyib, dini etiqad və əmlak münasibətləri məsələlərində onlara tam sərbəstlik verib, onların ticarətlə məşğul olmasına maneçilik törətməyib, uzun müddət Avropa və Rusiya bazarlarına o dövrün ən gəlirli mallarından biri olmuş Azərbaycan ipəyinin praktiki olaraq inhisarçı tədarükçüləri olmasına imkan veriblər. Müəllif yazır: "Bunun müqabilində onlardan (ermənilərdən) yalnız vergiləri vaxtında ödəmək, qanunlara riayət etmək və hakimiyyətin iradəsinə tabe olmaq tələb edilirdi". Bu başqa məsələdir ki, ermənilər bu cür xeyirxah münasibətin müqabilində adətləri üzrə qədirbilməzlik göstərirdilər.

Kitabın ikinci fəsli çox maraqlı və faktoloji materiallarla zəngindir. Müəllif bu fəsildə Səfəvilər dövlətinin ərazisində özlərinin kəşfiyyat fəaliyyətini dini və diplomatik məqsədlərlə örtbasdır edən katolik missiyalarının yaranması tarixini izləyir. Qərbin agentura şəbəkəsinə cəlb edilən əsas obyektin kim olmasını güman etmək çətin deyil. Müəllif vurğulayır ki, satılmağa hazır olan erməniləri satın alırdılar. Eçmiədzindəki riyakar və satqın strateqlər bu cür əməkdaşlığa xeyir-dua verirdilər. Alimin yazdığına görə, ermənilər Vatikan missionerlərinə nə lazım olduğunu tezliklə anladılar - Səfəvi dövlətinin daxilində əsl "beşinci kolon" formalaşdırmaq. Lakin bu, Qriqorian kilsəsinin dəstəyi ilə ermənilərin qərbli himayədarları ilə ikili oyun oynamalarına mane olmurdu, nəticədə onların arasında vaxtaşırı münaqişə və ziddiyyətlər yaranırdı. Bununla belə, ermənilər XVII əsrin axırlarında Səfəvilər dövləti tənəzzülə uğrayana qədər Vatikan üçün əsas informasiya mənbəyi, Azərbaycan ərazilərinə soxulmaq üçün təsir vasitəsi kimi qalırdılar. Müəllif bu qənaətə gəlir ki, Qriqorian kilsəsinin azərbaycanlılara və türklərə qarşı düşmən və satqın siyasətinin kökləri uzaq keçmişə gedib çıxır və bu nifrətin səhifələrinin çoxu Azərbaycan və Türkiyə torpaqlarında "böyük Ermənistan" yaratmaq arzusu ilə bağlıdır. Alim bu nəticəyə gəlir: "Başqa səbəb yoxdur. Erməni xalqının bütün bəlaları Qriqorian kilsəsi başda olmaqla onun siyasi elitasının satqınlığından irəli gəlir".

Kitabın üçüncü fəslində Vatikan emissarları və onların erməni əlaltılarına qarşı mübarizədə Səfəvilərin strategiyası və uğurları barədə söhbət açılır. Müəllif qeyd edir ki, Səfəvi hökmdarları onlara xas olan praqmatizm, incə siyasi duyum sayəsində maraqların gizli müharibəsində, o cümlədən erməni kilsəsinə nəzarət məsələsində avropalı strateqləri üstələməyə nail olub, özlərindən Osmanlı Türkiyəsinə qarşı alət kimi istifadə edilməsinə imkan verməyiblər. Müəllif Qriqorian kilsəsi ilə Moskva dövləti arasında gizli siyasi əlaqələr məsələsinə xüsusi diqqət yetirir, göstərir ki, erməni ruhanilər XVII əsrin ikinci yarısından başlayaraq Qərbdə öz siyasi tədbirləri uğursuzluğa düçar olacağı halda Moskva dövlətini alternativ himayədar hesab etməyə başladılar. Həmişə "fərasətli" olmaları ilə fərqlənən ermənilər Səfəvilər dövlətinin zəifləməsini və Xəzər regionunda, Qafqazda öz mövqelərini möhkəmlətməyə çalışan Rusiyanın güclənməsini hiss edərək öz prioritetlərini kəskin şəkildə dəyişdilər, nəzərlərini şimala yönəltdilər. Onlar öz xidmətləri müqabilində ciddi iqtisadi preferensiyalar, ən başlıcası - özlərinin ilhaqçı planlarına dəstək alırdılar.

Müəllif qeyd edir ki, Qərb və Rusiya diplomatiyası tarixində XVII-XVIII əsrlərdə erməni ruhanilər və erməni icması ilə qarşılıqlı fəaliyyət regiondakı müsəlman dövlətini zəiflətmək üçün erməni kartından separatizm aləti kimi istifadə edilməsi sahəsində ilk təcrübə olub. Tarixin sonrakı dövrlərində bu kartdan dəfələrlə istifadə olunub, o, bu və ya digər konkret maraqlara və məqsədlərə xidmət edib. Məsələn, XX əsrin əvvəlində Osmanlı imperiyasının süqutunda erməni amili heç də sonuncu rol oynamayıb. Ermənilər İranı və Azərbaycanı daxildən zəiflətməklə Çar Rusiyası tərəfindən həm Azərbaycan xanlıqlarının, həm də bütün Qafqazın işğal edilməsinə şərait yaradıblar. Müəllif yazır: "XX əsrin əvvəlində ermənilər özlərinin satqınlığı və "beşinci kolon" rolu müqabilində Azərbaycanın tarixi torpaqları hesabına Cənubi Qafqazda müstəqil dövlət yaradılması ilə mükafatlandırıldılar".

Akademik R.Mehdiyevin başqa əsərlərində olduğu kimi, onun yeni kitabında da müəllifin vətəndaşlıq mövqeyi aşkar görünür. Alim əmindir ki, əgər tarixi öyrənməsək və ondan lazımi dərs almasaq, o, təkrarlanma xassəsinə malikdir. Müəllif yazır: "Əsla mübaliğə etmədən faktlar belə deməyə əsas verir ki, həmin dövrdə Səfəvilər dövlətinin ətrafında baş vermiş bir çox proseslər bu gün Azərbaycana münasibətdə müşahidə etdiklərimizlə çox oxşardır. Bu proseslər əvvəlki əsrlərdə baş vermiş və ölkəmizin vətəndaşlarının əksəriyyətinə hətta ümumi şəkildə də məlum olmayan hadisələrin bir növ davamıdır. Tarix absurd teatrında tamaşa şəklində təkrarlanır. Bu, tarixdən lazımi dərs alanlar üçün gələcək təhlükələrin və itkilərin qarşısını almağa kömək edir, bu dərsləri mənimsəmək iqtidarında olmayanlar üçün isə keçmişin müasir "don geydirilmiş" hadisələri yeni faciəyə çevrilə bilər, özü də bu, təkcə Cənubi Qafqaz regionuna aid deyil".

Alim bu baxımdan hər bir xalq üçün öz tarixini bilməyin vacibliyini vurğulayır. Müəllifin haqlı olaraq vurğuladığı kimi, öz keçmişini bilməyən, öz düşmənləri və ənənəvi problemləri ilə tanış olmayan millət özünü başa düşmək və müdafiə etmək iqtidarında olmur. Görkəmli alimin vətənimizin tarixində az məlum olan və az işıqlandırılmış səhifələrə müraciət etməsi, şübhəsiz, bunu dərindən duymasından, öz millətinin taleyinə görə məsuliyyət hissindən irəli gəlir.

Akademik Ramiz Mehdiyevin yeni kitabının məziyyətləri arasında daha bir məqamı xüsusi qeyd etmək istərdik: yetərincə mürəkkəb elmi material mükəmməl və anlaşılan üslubda şərh edilib. Kitabın sırf elmi əsər olmasına baxmayaraq, o, populyar və sadə dildə yazılıb. Fikirlərin səlisliyi, ifadələrin obrazlılığı oxucunu cəlb edir. Ona görə də kitab, necə deyərlər, maraqlı bədii əsər kimi, praktiki olaraq birnəfəsə oxunur.

Bu mövzu üzrə xarici arxiv mənbələrindən istifadə imkanının məhdud olması R.Mehdiyevin həqiqətən sanballı elmi əsər yaratmasına mane olmayıb. Əminliklə demək olar ki, bu kitab Azərbaycan tarixşünaslığında yeni səhifə açacaq. Həqiqətən, müəllif özünün yeni kitabı ilə azərbaycanlı tarixçi alimlərə ölkəmizin uzaq və yaxın keçmişinin tədqiqinə necə yanaşmaq lazım olması nümunəsi göstərir, böyük diqqət tələb edən əsas istiqamətləri müəyyənləşdirir və problemlərin üzərinə işıq salır. Sırf elmi materialın şərh edilməsi ilə kifayətlənməyən alim respublikada humanitar elmlərin taleyinə görə narahatlıq keçirir, qeyd edir ki, bu elmlər təhlil, obyektiv tənqid metoduna keçməli, gərəksiz pafosa, sözçülüyə son qoyulmalıdır. Akademik R.Mehdiyev kitaba sözardında yazır: "Hər hansı xalqın və dövlətin tarixinin yazılması intellektual və vicdanlı yanaşma tələb edir, bu prosesdə emosiyalara və şəxsi qənaətlərə yer yoxdur. Bu baxımdan Azərbaycan tarixi istisna ola bilməz". O əmindir ki, tədqiqatçılar ölkəmizin tarixinin ən mürəkkəb və problemli məsələlərini qaldırmalı, artıq çeynənilmiş, özünün praktiki və elmi əhəmiyyətini çoxdan itirmiş mövzu və problemləri bir kənara atmalıdırlar. Praktik-alim göstərir ki, bu cür problemlər təkcə Səfəvilər dövlətinin deyil, Qafqaz Albaniyasından başlamış Azərbaycan Xalq Cümhuriyyətinə qədər Azərbaycan ərazisində mövcud olmuş digər dövlətlərin tarixində də çoxdur.

Akademik Ramiz Mehdiyev humanitar elm sahələrində çalışan Azərbaycan alimlərini müasir tədqiqat metodikasını daha fəal mənimsəməyə çağırır. O xəbərdarlıq edir ki, əks halda "elmimizin rəqabətə davam gətirməsi və Azərbaycan xalqının tarixi və mədəni irsini yenidən yazmaqda, özlərinin xeyrinə təhrif etməkdə və mənimsəməkdə maraqlı olan qüvvələrin güclü, ardıcıl təbliğatına qarşı dözüb dayanması çox çətin olacaq". Əgər müasir terminologiya ilə desək, bu kitab ölkəmizin tarixini araşdırmaqla məşğul olan Azərbaycanın humanitar alimləri üçün "Yol xəritəsi" ola bilər. Ona görə ki, alimin vurğuladığı kimi, tarixin öyrənilməsinə bu cür münasibət formalaşmayınca "bizim tarixi yaddaşımız beləcə qısa və səthi səviyyədə qalacaq". Bu fikri bundan yaxşı ifadə etmək mümkün deyil!

## "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 690; 2001, № 12, maddə 736; 2002, № 5, maddə 242; 2004, № 4, maddə 202; 2005, № 2, maddə 62; 2007, № 11, maddə 1082; 2010, № 3, maddə 173; 2011, № 12, maddə 1075; 2015, № 2, maddə 86; 2016, № 11, maddə 1779; 2017, № 5, maddə 708, № 7, maddə 1270; 2018, № 1, maddə 21) 8-ci maddəsinin 2-ci bəndinin üçüncü abzasında "Bələdiyyələrin ərazisində" sözləri "Bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyələrin ərazisində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

## "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1309-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1309-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2018-ci il*

## Atəşkəs rejimi 25 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edir






Noyabrın 19-da Bakıda BMT-nin Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsi və aidiyyəti məsələlər üzrə alt komissiyasının 53-cü sessiyası başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbiri BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC) və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi birgə təşkil edib.

Sessiyanın açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov, daxili işlər naziri, general-polkovnik Ramil Usubov, Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, Baş prokurorun birinci müavini Rüstəm Usubov, xarici işlər nazirinin müavini Xələf Xələfov, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə regional təmsilçisi xanım Aşita Mittal, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Qulam İsakzai iştirak ediblər.

Sessiyaya üzv dövlətlər - Azərbaycan, Əfqanıstan, Bəhreyn, Misir, Hindistan, İran, İraq, İordaniya, Qazaxıstan, Küveyt, Qırğızıstan, Livan, Oman, Pakistan, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Tacikistan, Türkiyə, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan və Yəmən, müşahidəçi dövlətlərdən Fransa və İtaliya hüquq mühafizə orqanlarının əməkdaşları, eyni zamanda, Ərəb Daxili İşlər Nazirləri Şurası, Mərkəzi Asiya Regionu üzrə Narkotik Vasitələr və Psixotrop Maddələrin Qanunsuz Dövriyyəsi ilə Mübarizə üzrə İnformasiya və Əlaqələndirmə Mərkəzi (CARICC) və Körfəz Ölkələri Əməkdaşlıq Şurasının Narkotiklərlə Mübarizə üzrə İnformasiya Mərkəzinin məsul nümayəndələri qatılıb.

Sessiyanın açılış mərasimindən əvvəl BMT-nin Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsi və aidiyyəti məsələlər üzrə alt komissiyasının Bakıda keçirilən 53-cü sessiyasının iştirakçıları noyabrın 19-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Daha sonra Şəhidlər xiyabanına gələn beynəlxalq tədbir iştirakçıları ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sessiyanın açılış mərasimində Baş nazirin müavini Əli Həsənov bildirib ki, müasir inkişaf dövrü narkotiklərin qanunsuz dövriyyəsinin qloballaşması ilə səciyyələnir. Dünyada geniş vüsət almış iqtisadi inteqrasiya, ticarət və nəqliyyat əlaqələrinin genişlənməsi prosesləri dünyanın bəzi regionlarında istehsal edilən narkotik vasitələrin digər ölkələrə yayılması ilə müşayiət olunur.

O qeyd edib ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinin bəşəriyyət üçün təhlükəliliyi milli, eləcə də beynəlxalq səviyyədə müvafiq nəzarət sisteminin tətbiq edilməsini zəruri edir. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edən Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulub, ölkədə milli hüquqi baza yaradılıb.

Baş nazirin müavini bu problemlə əlaqədar Prezident İlham Əliyev tərəfindən 13 fərman və 54 sərəncam verildiyi, 36 qanun, Nazirlər Kabinetinin isə 23 qərar və 5 sərəncamının qəbul edildiyini diqqətə çatdırıb.

O vurğulayıb ki, Prezident İlham Əliyevin səmərəli fəaliyyəti nəticəsində Azərbaycan bütün sahələrdə böyük uğurlara imza atıb, dövlətçilik, siyasi və iqtisadi müstəqillik daha da güclənib, ölkənin davamlı və dayanıqlı inkişafı və modernləşməsi təmin edilib, Azərbaycan sürətlə inkişaf edən ölkələr sırasında layiqli yer tutub.

Hazırda müasir nəqliyyat infrastrukturuna malik Azərbaycanın beynəlxalq yük daşımalarında Avropa ilə Asiya arasında mühüm tranzit ölkəyə çevrildiyini diqqətə çatdıran Ə.Həsənov, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı əsas problemin xaricdən ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən narkotiklərlə bağlı olduğunu bildirib.

Daha sonra narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərindən bəhs edən Baş nazirin müavini Azərbaycan hüquq mühafizə orqanlarının əldə etdiyi nailiyyətlər, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın İranla dövlət sərhədinin 132 kilometrlik hissəsinin nəzarətsiz zonaya çevrilməsi, nəticədə işğal edilən ərazilərdən Avropaya və digər ölkələrə güclü narkotik axınının həyata keçirilməsi, bu ərazilərdə ermənilər tərəfindən narkotik tərkibli bitkilərin becərilməsi, yeni növ narkotiklərin sintezi üzrə laboratoriyaların açılması, narkotiklərin istehsalı və tranzit bazasının yaradılması barədə məlumat verib.

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev mərasimdə çıxış edərək narkotiklərin qanunsuz dövriyyəsinin beynəlxalq ictimaiyyəti narahat edən mühüm problemlərdən biri olduğunu və bu problemin təkcə insanların sağlamlığına, mənəviyyatına deyil, həm də dünya iqtisadiyyatına ciddi zərbə vurduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, mütəxəssislərin hesablamalarına görə, narkotiklərin qanunsuz dövriyyəsindən külli miqdarda vəsait əldə edilir və bu istiqamətdə həyata keçirilən mübarizə tədbirləri uzunmüddətli, çoxşaxəli və geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir.

S.Mehdiyev bildirib ki, Azərbaycan Respublikasında narkotiklərin qanunsuz dövriyyəsinə qarşı əsaslı mübarizə ölkə öz müstəqilliyini bərpa etdikdən sonra, ümummilli lider Heydər Əliyevin imzaladığı "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq başlayıb. Bu gün Prezident İlham Əliyevin müvafiq sərəncam və fərmanları, həmçinin bir sıra normativ hüquqi aktlar Azərbaycan Respublikasında narkomanlığa qarşı mübarizənin əsas strateji xəttini müəyyənləşdirir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası narkotiklərlə mübarizədə beynəlxalq əməkdaşlığın aktuallığını nəzərə alaraq BMT-nin "Narkotik vasitələr haqqında", "Psixotrop maddələr haqqında" və "Narkotik vasitələr, psixotrop maddələr və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" konvensiyalarına qoşulub, cinayətkarlıq və narkotiklərlə mübarizə sahəsində dünyanın bir sıra dövlətləri ilə ikitərəfli və çoxtərəfli sazişlər, memorandumlar imzalayıb.

Komitə sədri Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ və ətraf rayonların ərazisindən narkotiklərin becərilməsi, satılması və tranziti, eyni zamanda, transmilli cinayətlərin həyata keçirilməsi üçün nəzarətsiz zona kimi istifadə olunduğunu bildirib və BMT-nin Yaxın və Orta Şərqdə narkotiklərin qanunsuz dövriyyəsi və aidiyyəti məsələlər üzrə alt komissiyasının 53-cü sessiyasının iştirakçılarının bu məsələyə xüsusi diqqət göstərməsinin vacibliyini vurğulayıb.

Mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik Azərbaycan Gömrük Xidmətinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində mühüm addımlar atdığını da diqqətə çatdıran komitə sədri, o cümlədən əməliyyat-axtarış fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə hədəflərin idarə olunması sisteminin və mobil qrupların yaradıldığını, bacarıqlı və bilikli kadrların işə cəlb olunduğunu, müasir texnika və avadanlıqlardan geniş şəkildə istifadə edildiyini bildirib.

Məlumat verilib ki, görülən işlərin nəticəsi olaraq 2018-ci il ərzində gömrük orqanları tərəfindən 1 ton 178 kiloqram narkotik vasitə, psixotrop maddə və onların prekursorları aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb. Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə regional və beynəlxalq əlaqələrin genişləndirilməsinin, qarşılıqlı təcrübə mübadiləsi və elmi-texniki əməkdaşlığın inkişaf etdirilməsininin ümumi işə mühüm töhfə verdiyi vurğulanıb.

Eyni zamanda, diqqətə çatdırılıb ki, Azərbaycanda təsis edilmiş - Ümumdünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzi, Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisi və Regional Kinoloji Mərkəzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mütəmadi olaraq regional və beynəlxalq tədbirlər keçirilir, bu tədbirlər həm Azərbaycanın, həm də region ölkələrinin gömrük əməkdaşlarının potensialının gücləndirilməsində mühüm rol oynayır.

S.Mehdiyev Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzinin fəaliyyətindən də bəhs edib və burada hazırlanan xidməti axtarış üzrə təlim keçmiş itlərin bir sıra ölkələrin müvafiq qurumlarına hədiyyə edildiyini bildirib.

Komitə sədri 53-cü sessiyanın narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə əməkdaşlığın genişləndirilməsinə, mübarizə üsullarının təkmilləşdirilməsilə bağlı beynəlxalq miqyasda bilik və təcrübə mübadiləsinə imkan yaradacağına və dayanıqlı ideyaların işlənib hazırlanmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya üzrə regional təmsilçisi xanım Aşita Mittal tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib və mövcud imkanlardan istifadə edərək bilik və təcrübələri bölüşməklə, regional əməkdaşlığı gücləndirməklə mütərəqqi ideyaların ortaya çıxacağını vurğulayıb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində görüləcək işlər, sessiyada müzakirə olunacaq məsələlər barədə də məlumat verən A.Mittal tədbirin qarşıdakı məqsədlərə nail olunmasında mühüm rol oynayacağına əminliyini ifadə edib.

Daha sonra sessiya başlayıb.

Sessiyada regional və subregional əməkdaşlığın hazırkı vəziyyəti, alt komissiyanın 51-ci sessiyasında qəbul edilən tövsiyələrin həyata keçirilməsi, narkotiklərlə mübarizə üzrə kompleks və balanslaşdırılmış mübarizə strategiyasının hazırlanması və Baş Assambleyanın 2016-cı ildə keçirilmiş xüsusi sessiyasının qərarlarının (narkotik vasitələrə dair komissiyanın 62-ci sessiyası çərçivəsində keçiriləcək nazirlər səviyyəsində iclasların nəticələri nəzərə alınmaqla) icrası məqsədilə beynəlxalq əməkdaşlığın nizamlanmasına dair Siyasi Bəyannamə və Fəaliyyət Planının yerinə yetirilməsi ilə bağlı növbəti tədbirlər, narkotik vasitələrə dair komissiyanın bu qurumun köməkçi orqanlarının gücləndirilməsi barədə 60/1 qərarının icrası, alt komissiyanın 54-cü sessiyasının işinin təşkili və digər məsələlərin müzakirəsi nəzərdə tutulub.

Sessiyada işçi qruplar tərəfindən - narkotiklərin ticarəti ilə əlaqədar çirkli pulların yuyulması, qanunsuz maliyyə axını, "darknet" şəbəkəsi və kriptovalyutalardan istifadəyə qarşı mübarizə, sintetik narkotiklər sahəsində təhlükəli tendensiyalara, o cümlədən yeni psixoaktiv maddələrin, eləcə də prekursorların və siyahıya daxil edilməmiş kimyəvi maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, məlumat mübadiləsi məqsədilə regional əməkdaşlıq mərkəzləri arasında əlaqənin təmin olunması; hərtərəfli və alternativ inkişaf proqramlarının hazırlanması və həyata keçirilməsi məsələlərinə də baxılacaq.

Sonda 53-cü sessiyanın işi ilə əlaqədar alt komissiyanın hesabatının təsdiqlənməsi gözlənilir.

Sessiya noyabrın 23-dək davam edəcək.

# <u>Şahin MUSTAFAYEV:</u> "Azərbaycan Çinlə daha sıx ticarət əlaqələri qurmaq niyyətindədir"

*Azərbaycan Respublikasının iqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev Şanxayda səfərdə olarkən Çin Kommunist Partiyasının rəsmi mətbu orqanlarından biri olan nüfuzlu "Global Times" qəzetinə Çin-Azərbaycan iqtisadi əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri barədə müsahibə verib. Müsahibənin əvvəlində redaktorun qeydi verilib. Qeyddə deyilir: "Çin ilə Azərbaycan arasında son illər iqtisadi əlaqələr həm ticarətin, həm də investisiyaların sürətlə artması ilə daha sıx əməkdaşlıq səviyyəsinə çatıb. Cənubi Qafqaz regionunda, Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan həmçinin Çinin "Kəmər və Yol" təşəbbüsü üzrə mühüm coğrafi mövqeyə malikdir. Çinin həyata keçirdiyi islahatlar və açıqlıq siyasətinin, xüsusilə də Birinci Çin Beynəlxalq İdxal Sərgisi (CIIE) platformasının Azərbaycan və Çin arasında ticarətin inkişafına yaxşı imkan yaradacağı gözlənilir". AZƏRTAC müsahibəni təqdim edir.*

*- Çin ilə Azərbaycan arasındakı ticarət əlaqələrinin hazırkı vəziyyəti necədir?*

- Çin ilə Azərbaycan arasında ticarət dövriyyəsi son illər bir neçə dəfə artıb. 2017-ci ildə ticarət dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 20 faiz artaraq 1,3 milyard dollara çatıb. Ötən il Çindən Azərbaycana 850 milyon ABŞ dollarından çox dəyərdə məhsul ixrac edilib.

Azərbaycan Çinə ənənəvi olaraq əsasən neft, xammal və kimya sənayesi məhsulları ixrac edir. Ötən ildən etibarən Çinə ixrac olunan məhsullar kənd təsərrüfatı, ərzaq və şərabçılıq kimi digər sahələri də əhatə etməyə başlayıb.

Azərbaycan Çindən müxtəlif növ məhsullar, o cümlədən avtomobil, cihaz, mexaniki avadanlıq, mebel, toxuculuq və plastik mallar idxal edir. Hesab edirik ki, ölkələrimiz ticarət sahəsində əməkdaşlıq üçün böyük potensiala malikdir və mövcud ticarət dövriyyəsi bir neçə dəfə artırıla bilər.

*- Azərbaycan Çinlə iqtisadi əlaqələrini hansı sahələrdə daha da genişləndirə bilər? Azərbaycan hökuməti ikitərəfli ticarət əlaqələrinin inkişafı üçün hansı tədbirlər görəcək?*

- Azərbaycan Çinə yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarını, o cümlədən pambıq, tütün, şərab, alüminium və kimya sənayesi məhsulları ixrac edə bilər. Ölkəmiz isə Çindən yüksək keyfiyyətli məhsulların idxalını dəstəkləyir.

Azərbaycan Çinlə ikitərəfli ticarət əlaqələrinin inkişafı istiqamətində bir çox tədbirlər görüb. Ötən il Azərbaycanın Çində ticarət nümayəndəsi təyin edilib. Bu ilin sentyabr ayında Çin Xalq Respublikasının Sincan Uyğur Muxtar Vilayətinin Urumçi şəhərində və Şanxay Vayqaoçao Azad Ticarət Zonasında Azərbaycanın şərab evləri, Siçuan əyalətinin Lucou şəhərində isə Azərbaycan Ticarət Evi açılıb. Azərbaycan məhsullarının, həmçinin Çinin "Direct Imported Goods" ("DIG") supermarketlərində satışına başlanılıb və tezliklə Şanxay şəhərindəki "G-Super" supermarketlər şəbəkəsində də yerli məhsullarımız satılacaq.

Bununla belə, növbəti ildə Çinin müxtəlif bölgələrində Azərbaycanın ticarət və şərab evlərinin açılması nəzərdə tutulur. Ötən illərdə Çinin həyata keçirdiyi islahatlar və açıqlıq siyasətinin təqdim etdiyi əlverişli şəraitdən bəhrələnmişik. Çin ilə ikitərəfli ticarətin genişləndirilməsi üçün Birinci Çin Beynəlxalq İdxal Sərgisi platformasından da səmərəli istifadə olunacaq.

*- Azərbaycanın Birinci Çin Beynəlxalq İdxal Sərgisində iştirakı barədə fikirlərinizi bilmək istərdik.*




- Azərbaycan Birinci Çin Beynəlxalq İdxal Sərgisində 32 şirkətin daxil olduğu 60 nəfərdən ibarət geniş nümayəndə heyəti ilə təmsil olunub. Sərgidə belə geniş tərkibli nümayəndə heyəti ilə iştirak Azərbaycanın bu tədbirə böyük əhəmiyyət verməsinin göstəricisidir.

Azərbaycan şirkətləri Birinci Çin Beynəlxalq İdxal Sərgisində 180 çeşiddən çox məhsul təqdim ediblər. Nümayiş etdirilən məhsullarımıza çinli ziyarətçilər tərəfindən böyük maraq göstərilib.

Qeyd edim ki, Birinci Çin Beynəlxalq İdxal Sərgisinin açılışında Çin Xalq Respublikasının Sədri Si Cinpinin Çinin açıqlıq siyasətini davam etdirmək planları ilə bağlı çıxışı böyük maraqla qarşılandı. Müasir dövrdə bəzi ölkələr proteksionist tədbirlər görürlər və hazırda dünyada çoxsaylı sanksiyalar və məhdudiyyətlər mövcuddur. Bu baxımdan, Çinin belə bir açıq siyasət qəbul etməsi və dünya ölkələrinin iqtisadiyyatları üçün bu cür imkanlar yaratması böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın hər il keçiriləcək Çin Beynəlxalq İdxal Sərgisində iştirakı nəzərdə tutulur.

*- Azərbaycan xarici investisiyaları, o cümlədən Çin investisiyalarını dəstəkləyir...*

- Bildirim ki, Çin şirkətləri Azərbaycana 800 milyon ABŞ dollarına yaxın investisiya yatırıb. Azərbaycanda 112 Çin kapitallı şirkət fəaliyyət göstərir. Məsələn, Azərbaycanda 3 sement zavodunun tikintisi Çinin podratçı şirkətləri tərəfindən uğurla icra edilib.

Azərbaycan hökuməti ölkəmizin biznes mühitini yaxşılaşdırmaq üçün sistemli və ardıcıl tədbirlər həyata keçirir. Bu günlərdə Dünya Bankının açıqladığı "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb və 10 ən islahatçı ölkə sırasına daxil edilib.

Çin şirkətlərinin Azərbaycanda yaradılan əlverişli biznes və investisiya mühitindən səmərəli istifadə edəcəklərinə ümidvarıq. Azərbaycan hökuməti də Çin şirkətləri tərəfindən ölkəmizə yatırılan sərmayələrə dəstək verəcəkdir.

Qeyd etmək istərdim ki, Çin və Azərbaycan yüksək texnologiyalar sektorunda əməkdaşlığı genişləndirə bilərlər. Çinin yüksək texnologiyalar üzrə kommunikasiya şirkətləri "Huawei" və "ZTE" Azərbaycanda uğurla fəaliyyət göstərirlər.

Azərbaycan turizm sahəsində də Çinlə əməkdaşlıq edir. İki ölkə arasında birbaşa aviareyslər mövcuddur və Çin vətəndaşlarına ölkəmizə gələrkən hava limanında vizalar təqdim olunur. Təsadüfi deyildir ki, Azərbaycana səfər edən çinli turistlərin sayı ötən illə müqayisədə 62 faiz artıb. Hesab edirik ki, bu sahədə əməkdaşlığın inkişafı üçün daha geniş potensial mövcuddur.

*- "Kəmər və Yol" təşəbbüsü Azərbaycanın iqtisadi inkişafına necə təsir göstərir?*

- Azərbaycan Çin hökumətinin "Kəmər və Yol" təşəbbüsünü fəal şəkildə dəstəkləyir. 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çinə rəsmi səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu imzalanıb. Azərbaycan "Kəmər və Yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdəndir və bu təşəbbüsdə konkret tədbirlərlə iştirak edir. Məsələn, Azərbaycan Çin və Avropanı birləşdirən "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi"ni təqdim edib. Azərbaycanın yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi may ayında fəaliyyətə başlayıb. Limanı təxminən 3 milyon ABŞ dolları məbləğində avadanlıqla təchiz etdiyi üçün Çin hökumətinə minnətdarlığımızı bildirmək istərdim.

# Moskvada Nəsiminin büstünün təntənəli açılış mərasimi olub

## *Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılış mərasimində iştirak edib*









Noyabrın 19-da Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) XIV-XV əsrlərin böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin büstünün təntənəli açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılış mərasimində iştirak edib.

Nəsiminin büstünün açılışı Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Moskvada keçirilən "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" çərçivəsində baş tutub.

Heydər Əliyev Fondunun vitse-prezidenti **Leyla ƏLİYEVA** təntənəli mərasimdə çıxış edərək dedi:

- Biz bu gün böyük şair, filosof və mütəfəkkir Nəsimiyə həsr olunmuş tədbirə toplaşmışıq. Nəsimi XIV-XV əsrlərdə yaşayıb-yaradıb. O, Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynayıb, Azərbaycan poeziyasının şah əsərlərini yaradıb, Azərbaycan ədəbi dilinin əsasını qoyub. Nəsimi poeziyası müasir dövrümüzdə də yaşayır və aktualdır. Bu ilin sentyabrında Azərbaycanda ilk dəfə Nəsimiyə həsr edilmiş mənəvi-poetik yaradıcılıq festivalı keçirilib. Festival çərçivəsində çoxlu sayda tədbirlər - poeziya, musiqi və rəqs gecələri, tamaşalar, sərgilər, videoinstalyasiyalar, yoqa və meditasiya təşkil olunub. Bütün bunlar ali şüurun dərinliyinə varmaq üçün edilib.

Tədbirlər Nəsiminin doğma yurdu Şamaxıda, "Qala", "Atəşgah məbədi" qoruqlarında və əlbəttə, Bakıda keçirilib. Dörd gün ərzində ümumən 30 tədbir təşkil olunub. Nəsimi fəlsəfəsi o qədər dərindir ki, sonsuzluğu qavramağa, insan şüurunun ən dərin qatlarına nüfuz etməyə və bir çox hadisələri yozmağa qabildir. Biz son dərəcə minnətdarıq və şadıq ki, bu gün Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun binasında bu dahi insanın büstünü açırıq. Bu, bizim üçün də çox aktualdır. Çünki bizim vəzifələrimizdən və arzularımızdan biri budur ki, bu gün Nəsimini tanısınlar, onun poeziyasını oxusunlar və bu poeziya yaşasın. Həqiqət zamanın fövqündə dayanan anlayışdır. Nəsiminin tükənməz ilham mənbəyi gözəllik, məhəbbət və təbiətdir. Böyük şair hesab edirdi ki, həqiqətə çatmaq üçün insan qəlbinin dərinliyinə nüfuz edib, onun gözəlliyini və xeyirxahlığını görmək lazımdır.

Hamınıza "Çox sağ olun!" deyirəm. Mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunova, prorektor Artyom Malginə, institut kitabxanasının direktoru Marina Reşetnikovaya, Tarix Muzeyinin rəhbəri İqor Pavlenkoya və əlbəttə, bu gözəl əsərin müəllifi Mahmud Rüstəmova təşəkkür etmək istəyirəm.

Sonra Leyla Əliyeva öz şeirini oxudu.

MDBMİ-nin rektoru, akademik **Anatoli TORKUNOV** çıxış edərək bildirdi ki, Nəsiminin büstünün qoyulması universitet üçün böyük şərəfdir. O dedi: "Bu gün biz Heydər Əliyev Fondundan olan çoxdankı fəxri, əziz və hörmətli dostlarımızı tamamilə qeyri-adi bir münasibətlə qəbul edirik. Belə ki, kitabxanamızda böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin büstünü açırıq. Nəsimi yaradıcılığı Azərbaycan və ərəb dillərində poeziyaya və bütövlükdə Yaxın Şərq regionunun mədəniyyətinə böyük təsir göstərib. Şərq problemlərinə və Şərq dillərinə böyük diqqət yetirən universitetimizdə dahi mütəfəkkirin büstünün açılışı dərin rəmzi məna daşıyır. Rusiya şərqşünaslığının şanlı ənənələrinin davamçısı olan MDBMİ bir çox baxımdan nadir olan və son dərəcə müvəffəqiyyətlə inkişaf edən, ölkənin tərəqqisinə rəvac verən yeni-yeni böyük ustadlar yetişdirən Azərbaycan mədəniyyətinə həmişə xüsusi diqqətlə yanaşıb".

Anatoli Torkunov çıxışının sonunda dedi: "Öz böyük sələflərinin, o cümlədən İmadəddin Nəsiminin irsinə - bu çox güclü mədəni təbəqəyə söykənən Azərbaycan bu gün də mədəni inkişaf yolu ilə durmadan sürətlə irəliləyir. Azərbaycanda olan hər kəs bununla razılaşmaya bilməz. Mən görürəm ki, respublikada böyük dəyişikliklər, o cümlədən Azərbaycan xalqının topladığı tarixi irsə münasibətdə dəyişikliklər baş verir. Bizim üçün tamamilə aydın məsələdir ki, Nəsimi dünya poeziyasının ən mükəmməl nümunələri arasında yer tutmağa layiq olan əsərlərində həmişə, ilk növbədə, insanın böyüklüyünü, bəşəri sevgini və şəxsiyyət azadlığını tərənnüm edib. Nəsiminin xalqın mənəviyyatından qaynaqlanan parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və müxtəlifliyi ilə əks etdirib. Ustadın yaradıcılığı Azərbaycan xalqının və bir sıra digər xalqların bədii-ictimai təfəkkürünün inkişafına böyük təsir göstərib və göstərməkdədir".



Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Leyla Əliyevaya və Anatoli Torkunova minnətdarlığını bildirərək dedi:

- Bu iki parlaq çıxışdan sonra mənə burada böyük Azərbaycan şairi, mütəfəkkiri və filosofunun büstünü açmaq üçün yaradılan gözəl fürsətə görə, ilk növbədə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektorluğuna təşəkkürümü ifadə etmək qalır. Anatoli Vasilyeviç çox doğru dedi ki, bu büst burada oxuyan tələbələrə həmişə xatırladacaq ki, onlar çox savadlı insanlar olmalıdırlar. Nəsimi fəlsəfəsinin dərinliyini başa düşmək onlar üçün də çox faydalı olacaq.

Büstün yaradılmasına görə Heydər Əliyev Fonduna və heykəltəraşa təşəkkürünü bildirən səfir qeyd edib ki, fondun təşkilatçılığı və köməyi olmadan bunu həyata keçirmək çox çətin olardı. Göstərdiyi dəstəyə və teztez Moskvaya səfər etdiyinə görə Leyla Əliyevaya təşəkkür edən Polad Bülbüloğlu deyib: "O, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinə - RAGB-a başçılıq edir, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəridir. Budur, bu gün biz bu universiteti bitirən hörmətli Prezidentimizin alma-materinə toplaşmışıq. Mən xüsusi vurğulamaq istəyirəm ki, biz azərbaycanlılar üçün bu universitet çox dəyərlidir, çünki ümummilli liderimiz, Azərbaycan siyasətinin patriarxı, böyük dövlət xadimi Heydər Əlirza oğlu Əliyev və indiki Prezidentimiz İlham Heydər oğlu Əliyev bu ali təhsil ocağının fəxri doktorlarıdır. Buna görə də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu bizim üçün kənar ev deyil. Biz həmişə burada olmağa şadıq. Biz bunu yüksək qiymətləndiririk".

Bugünkü tədbir Azərbaycanla Rusiya arasında sarsılmaz dostluğun daha bir təsdiqi olduğunu vurğulayan Polad Bülbüloğlu universitetin rəhbərliyinə, müəllim və professor heyətinə uğurlar arzulayıb, tələbələrə müraciətlə deyib: "Yaxşı oxuyacaqsınız, bizim Prezidentimiz kimi, öz ölkənizdə prezident olacaqsınız. Sizə uğurlar diləyirəm".

* * *

Açılış mərasimində Yevgeni Vaxtanqov adına Moskva Dövlət Akademik Teatrının aktyoru Eldar Tramov tarzən Qorxmaz Axundovun müşayiəti ilə Nəsiminin şeirlərini oxudu.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizdə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunur. Moskvada "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" dahi şairin yubileyinə həsr olunmuş tədbirlər planının bir hissəsidir. Festivalın məqsədi Şərqin ən böyük şair və mütəfəkkirlərindən birinin yaradıcılığını təbliğ etmək, habelə Azərbaycan və Rusiya arasında mədəni-ədəbi əlaqələri genişləndirməkdir.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə sentyabrın 27-30-da Azərbaycanda ilk dəfə "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" keçirilib. Festival çərçivəsində şairin anadan olduğu Şamaxı şəhərində və Bakıda müxtəlif incəsənət növləri üzrə sərgilər, musiqi layihələri, tamaşalar, habelə mühazirə, simpozium və seminarlar təşkil edilib.

# Moskvada "Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda konfrans açılıb

## *Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konfransın işində iştirak edib*

Heydər Əliyev Fondunun Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Moskvada təşkil etdiyi "Nəsimi - poeziya, incəsənət və mənəviyyat festivalı" çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda (MDU AAÖİ) "Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində" mövzusunda beynəlxalq elmi-praktiki konfransın açılışı olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konfransın açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Asiya və Afrika Ölkələri İnstitutunun direktoru İqor Abılqaziyev çıxışında qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yubileyinin dövlət səviyyəsində qeyd edilməsi barədə sərəncam imzalayıb. O deyib: "Bu yubiley beynəlxalq səviyyədə də bayram edilir. Nəsiminin əsərləri dünya poeziyasının mükəmməl nümunələrindən biridir. Bu əsərlərdə insan əzəməti və şəxsiyyət azadlığı tərənnüm edilir. Nəsiminin ədəbi irsi dövrün dərin poetik fikirlərinin və fəlsəfi baxışlarının vəhdətini təşkil edir. Nəsiminin yaradıcılıq irsi Azərbaycan ədəbiyyatının tarixində xüsusi mərhələdir. Azərbaycan poeziyasının humanizm ideyaları ilə zənginləşməsində və yeni məzmun kəsb etməsində unudulmaz şairin xidmətləri ölçüyəgəlməzdir".



İqor Abılqaziyev xüsusi vurğulayıb ki, Azərbaycan xalqının ümummilli lideri, Azərbaycanın və Sovet İttifaqının böyük dövlət xadimi Heydər Əliyev Nəsimi irsinin populyarlaşmasında bilavasitə iştirak edib. O deyib: "Məhz Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub. O vaxtdan Nəsimi irsinin daha ətraflı öyrənilməsi istiqamətində mühüm addımlar atılıb".

Festivalın Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi ilə keçirildiyini xatırladan AAÖİ-nin direktoru deyib: "Çox hörmətli Leyla xanım, fürsətdən istifadə edərək bizə göstərdiyiniz diqqətə görə sizə bütün institutumuz adından təşəkkür dolu ən səmimi sözlərimizi ifadə etmək istərdim".

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qeyd edib ki, Nəsimi ideologiyasının əsasını təşkil edən dəyərlər indi də müasirdir. Əcdadlarımızın önəm verdiyi dəyərləri müasir gənclərin də bilməsi olduqca əhəmiyyətlidir.

Səfir deyib: "İqor Abılqaziyev çox düzgün qeyd etdi ki, sovet dövründə məhz Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyev keçmişin böyük filosof və şairlərinin - Nizaminin, Füzulinin, Nəsiminin və dünyanın söz xəzinəsinə öz töhfəsini vermiş digər şəxsiyyətlərin xatirələrinin əbədiləşdirilməsi istiqamətində böyük işlərə başlayıb. Yəqin ki, bu işi onun oğlunun, Azərbaycanın indiki Prezidenti İlham Əliyevin davam etdirməsi çox rəmzi məna daşıyır. Diqqətəlayiq haldır ki, bu gün bu işlə Heydər Əliyevin nəvəsi, böyük filosofa həsr olunmuş belə tədbirlərin bütün dünyada keçirilməsinin təşəbbüskarı hörmətli Leyla xanım məşğul olur".

Nəsimiyə həsr olunmuş konfransın məhz Azərbaycan dilinin tədris olunduğu AAÖİ-də keçirilməsinin də diqqətəlayiq olduğunu vurğulayan diplomat deyib: "Biz fəxr edirik ki, sizin tələbələriniz Azərbaycan dilini öyrənirlər və bu dildə yetərincə yaxşı danışırlar. Mən Azərbaycan dilini öyrənən tələbələrə böyük uğurlar arzulamaq və demək istəyirəm ki, Azərbaycan dilini yaxşı öyrəndiklərinə görə peşman olmayacaqlar".

Sonra MDU-nun tələbələri Nəsiminin şeirlərini müxtəlif dillərdə oxuyublar, Azərbaycan bəstəkarlarının mahnılarını ifa ediblər. Azərbaycan aktyorlarının ifasında "Mərhaba" adlı musiqili-poetik tamaşa təqdim edilib.

Noyabrın 20-də konfrans işini davam etdirəcək. Konfrans iştirakçıları "Nəsimi festivalı: ideoloji-mədəni irsin dinamik interpretasiyası təcrübəsi", "Nəsimi və Yan Qus. Şərqlə Qərbin mədəni vəhdəti", "Nəsimi dili - dünən, bu gün və sabah" və s. mövzularda məruzələr dinləyəcəklər.

Konfransda Nəsimi yaradıcılığının, şairin bədii-fəlsəfi irsinin müxtəlif aspektlərinə toxunan çıxışlarla yanaşı, müasir gənclərin mənəvi dəyərləri, iki ölkənin gəncləri arasında əlaqələrin inkişafı mövzularında müzakirələr aparılacaq.

# Azərbaycan beynəlxalq müstəvidə dinləri bir araya gətirən qabaqcıl ölkə kimi tanınır

Noyabrın 19-da Berlin şəhərində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində fəaliyyət göstərən Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Azərbaycanın Almaniyadakı səfirliyinin, Almaniya-Azərbaycan Forumunun və Mədəni Diplomatiya Akademiyasının birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfrans zamanı Azərbaycanın multikultural və tolerant həyatını əks etdirən vizual və əyani materiallar, kitab və albomlardan ibarət sərgi-ekspozisiya nümayiş etdirilib.

AZƏRTAC xəbər verir ki, üç yüzə yaxın nümayəndənin qatıldığı tədbirdə Azərbaycan və Almaniyanın dövlət, ictimaiyyət, elm və din xadimləri, o cümlədən dünyanın 40-a yaxın ölkəsindən müxtəlif dini konfessiyaların, beynəlxalq təşkilatların rəhbərləri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin himayədarlar və məşvərət şuralarının üzvləri, Almaniyada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevin salamlarını və xoş arzularını Almaniya dövlətinə və xalqına çatdırıb. Azərbaycanda milli və bəşəri dəyərlərə hər zaman böyük önəmin verildiyini bildirən A.Paşazadə qeyd edib ki, ölkəmizdə dini-mənəvi irsə ehtiram, müxtəlif mədəniyyətlərin dialoq və əməkdaşlığı dövlət səviyyəsində dəstəklənir. Milli, etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. "Bu, bizim qürur mənbəyimizdir. Azərbaycanda elan olunmuş "Multikulturalizm ili" və "İslam həmrəyliyi ili" ümumbəşəri əhəmiyyətli dəyərlərə verdiyimiz önəmin bariz nümunəsidir. Azərbaycanın bu örnək modelinin təməli ümummilli lider Heydər Əliyevin müdrik zəkasının məhsulu olan azərbaycançılıq məfkurəsi ilə qoyulub və bu gün Prezident İlham Əliyevin qlobal səyləri sayəsində inkişaf edir, dünyaya təqdim olunur", - deyə QMİ sədri vurğulayıb.

Allahşükür Paşazadə vurğulayıb ki, Prezident İlham Əliyevin müdrik dövlətçilik siyasəti sayəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. "Biz fəxr edirik ki, Azərbaycan beynəlxalq müstəvidə təkcə enerji layihələri ilə deyil, həm də mədəniyyətləri, dinləri bir araya gətirən qabaqcıl bir ölkə kimi tanınır. Bu yaxınlarda Almaniya Kansleri xanım Angela Merkelin Azərbaycanı ziyarət etməsi Almaniya-Azərbaycan əlaqələrinin dərinləşməsi baxımından əhəmiyyətli hadisə oldu. Tolerantlıq ənənələrimizin, mədəni-mənəvi irsimizin təbliğində müstəsna xidmətləri olan Heydər Əliyev Fondunun xəttilə Almaniyada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş mötəbər tədbirin əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycanda 200 ildir alman icmaları mövcuddur və onlar bizim multikultural cəmiyyətimizin ayrılmaz hissəsidirlər.

Biz din xadimləri dünyada sülhün, əmin-amanlığın və insan həyatının qorunması yolunda öz səylərimizi əsirgəmirik. Dünyanın bir çox ölkələrində, o cümlədən Böyük Britaniya, İsveç, Finlandiya, İspaniya, Almaniyada keçirdiyimiz beynəlxalq forumların ümumi məramı dünyamızda sülhün, əmin-amanlığın qorunub saxlanılması, insan həmrəyliyinə nail olunmasıdır", - deyə A.Paşazadə qeyd edib.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov tədbirdə çıxış edərək diqqətə çatdırıb ki, Azərbaycan dünyada multikulturalizmin dövlət siyasəti olduğu azsaylı ölkələrdən biridir. Dövlət bu siyasətin həyata keçirilməsində, onun prinsiplərinə riayət olunmasında, tolerantlıq və qeyri-ayrı-seçkilik siyasətinin həyata keçirilməsində aparıcı rol oynayır. Azərbaycan dövləti cəmiyyətdə dağıdıcı meyillərin qarşısını almaq məqsədilə multikulturalizm siyasətinin ölkənin suverenliyinə, ərazi bütövlüyünə, demokratik inkişafına və onun milli təhlükəsizliyinə xidmət etməsi üçün əlindən gələni əsirgəmir.

Etibar Nəcəfov bildirib ki, demokratik inkişaf yolunu seçmiş, multikultural mühiti və tolerantlığı ilə tanınan Azərbaycan üçün dini etiqad azadlığı ölkənin daxili siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan hökuməti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının ayrılmaz bir hissəsi kimi yanaşır. Azərbaycan Respublikasının Konstitusiyası, "Dini etiqad azadlığı haqqında" qanun və digər sənədlər Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının hüquqi əsasları kimi çıxış edirlər.

Bütün dinlərin, dini icmaların qanun qarşısında bərabər olduğunu söyləyən şöbə müdiri deyib: "Buraya Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dövlət qeydiyyatından keçən dini qurumları aid edilir. Dövlət komitəsinin verdiyi məlumata görə, 2009-cu ildən bəri komitə tərəfindən 861 dini qurum dövlət qeydiyyatından keçib. Onlardan 830-u müsəlman, 31-i qeyri-müsəlman təşkilatlarıdır. 31 qeyri-müsəlman təşkilatından 20-si xristian, 8-i yəhudi, 2-si bəhayi, 1-i isə krişna şüuru dini icmasıdır. Dövlət dini icmaların fəaliyyətinə bütün zəruri dəstəyi verir. Onlara maliyyə yardımı ayırır. Xüsusilə dövlət məscidlərin, sinaqoqların və kilsələrin bərpası və yenidən qurulması üçün onlara maddi yardım göstərir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan hər zaman müxtəlif dini etiqadların daşıyıcılarının sülh şəraitində, bir-biri ilə qarşılıqlı hörmət və ehtiram ruhunda yaşadığı ölkələrdən biri olub. Azərbaycan xalqına xas olan tolerantlıq dəyərləri ölkəmizdə bugünə qədər sülh şəraitində birgəyaşayışın və mədəni müxtəlifliyin qorunub saxlanılmasında müstəsna rol oynayıb. "Nəticədə, Azərbaycan tarixən sivilizasiyalararası dialoqa önəmli töhfələr verən və dözümsüzlüyün bütün formalarını rədd edən dəyərlər məkanı kimi öz mövqeyini saxlamağa müvəffəq olub", - deyə komitə sədri vurğulayıb.

Azərbaycanda dövlət-din münasibətlərinin modeli zamanın tələblərinə uyğun olaraq Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilib.

Azərbaycanın həm etnik, həm dini, həm məzhəb baxımından zəngin ölkə olduğunu söyləyən Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov bildirib ki, tarixboyu fərqli dini və etnik icmaların nümayəndələri Azərbaycan xalqı ilə bərabər yaşayıb. Bu gün multikulturalizmin Azərbaycan modeli ifadəsi siyasi leksikonumuza daxil olub.

"Heç kəs dini etiqadına görə təhdid oluna bilməz. Biz insanları və fərqliliyi sevməliyik. Bu, dünyada sülhün bərqərar olmasının əsasını təşkil edir. Biz həmişə şərə qarşı mübarizə aparmalıyıq. Şər dünyamızda yayılmamalıdır",- deyən ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri bildirib ki, müharibələr, ksenofobiya, islamofobiya bugünkü dünyamızın reallığıdır. O, bütün münaqişələrin, ziddiyyətlərin dialoq və müzakirələr aparmaqla həll oluna biləcəyini qeyd edərək deyib: "Dialoq həmişə müdriklərin seçimi olub. Biz vahid amal uğrunda çalışmalı, sülh yolu ilə getməliyik. Sülhü, əmin-amanlığı təbliğ etməli və möhkəmləndirməliyik".

Almaniya hökumətinin dini azadlıqlar üzrə müvəkkili Markus Qrubel təəssüflə bildirib ki, bu gün dünyanın bir çox ölkələrində mədəni müxtəliflik, ifadə azadlığı yalnız sənədlərdə yer alır, cəmiyyətə nüfuz etmir. Almaniyada da dini və irqi ayrı-seçkiliyə cəhdlər göstərilir. Biz isə buna qarşı gücümüzü səfərbər etmişik. Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil etsə də, burada heç vaxt dini münaqişələrə rast gəlinməyib.

İƏT İslam tarix, incəsənət və mədəniyyət araşdırmalar mərkəzinin (IRCICA) baş direktoru Xalid Eren tədbirin Azərbaycanın təşəbbüsü ilə reallaşdığını xüsusi vurğulayıb.

İskəndəriyyə və bütün Afrika Papası və Patriarxı II Teodoros konfransın əhəmiyyətindən bəhs edərək bu cür konfransların mədəniyyətlərarası, sivilizasiyalararası dialoqun təşviqi baxımından önəmini vurğulayıb. O deyib: "Biz çalışırıq ki, fəaliyyətimizi dünyada mövcud olan çağırışlara uyğun quraq. Mədəniyyətlərarası dialoq işimizin təməlini təşkil edir. Bu dialoq hazırkı dövrdə xüsusilə vacibdir. Dini ayrı-seçkilik bütün bəşəriyyət üçün əsas təhlükədir".

Tunisin sabiq Prezidenti Məhəmməd Monsef Marzuki hazırda dünyada dini ekstremizmin çox geniş yayıldığını qeyd edib.

Almaniya-Azərbaycan Forumunun idarə heyətinin sədri Hans Eberhard Şlayer təmsil etdiyi forumun ölkələrimiz arasında əlaqələrin genişləndirilməsinə xidmət etdiyini bildirib. Qeyd edib ki, hazırda dünyada aclıq, təcavüz, miqrasiya kimi iqtisadi və sosial problemlər mövcuddur. Bu məsələlərin həlli üçün isə dialoq və qarşılıqlı əməkdaşlıq tələb olunur.

Bundestaqın üzvü, Şərq tərəfdaşlığı üzrə məruzəçi Nikolas Löbel bu il Birinci Dünya müharibəsinin bitməsinin 100 illiyinin qeyd edildiyini xatırladıb. Bildirib ki, dünya müharibələri siyasətin zəifliyi idi. Müharibələrin səbəbi dini, irqi, ictimai fərqlərin qabardılması idi. Belə faciələrin bir daha yaşanmaması üçün bizə dialoq lazımdır. Din cəmiyyətin birləşməsində vacib rol oynayır.

Azərbaycanın Almaniya üçün Cənubi Qafqaz regionunda vacib tərəfdaşlardan biri olduğunu qeyd edən Nikolas Löbel deyib ki, Azərbaycan Şərqlə Qərbin qovuşuğunda yerləşən bir pəncərədir. Azərbaycan gənc, güclü və demokratik prinsipləri olan ölkədir.

Konfrans Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının moderatorluqları ilə panel iclaslarla işini davam etdirib.

Sonda konfransın yekun bəyannaməsi imzalanıb. Bəyannamədə deyilir ki, konfrans iştirakçıları dövlətləri, BMT və digər beynəlxalq və regional təşkilatları, eləcə də dini liderləri mədəniyyətlər və dinlərarası dialoqun və qarşılıqlı anlaşmanın təşviq olunmasının davam etdirilməsinə və bu sahədə əməkdaşlığın genişləndirilməsinə, milli, dini və etnik zəmində zorakılıq hallarına rəvac verən və zərərli ideologiyalara əsaslanan təbliğatın qarşısının alınmasında əməkdaşlığın artırılmasına, geniş dialoqun davam etdirilməsinə və maarifçiliyin gücləndirilməsinə çağırırlar. Həmçinin siyasi motivlər daşıyan və məqsədyönlü qızışdırılan ksenofobiya, antisemitizm və islamofobiyanın, habelə dinin adından sui-istifadə etməklə terrorizmin və insanlıq əleyhinə cinayətlərin törədilməsinin qarşısının alınması üçün təsirli tədbirlər görməyə, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə sadiqliklərini təsdiq etməklə dünyanın bir çox bölgələrində, o cümlədən Yaxın Şərqdə, Fələstində, Suriyada davam edən münaqişələrin, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə həll olunmasına töhfə verməyə, Birləşmiş Millətlər Təşkilatının mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı olan çağırış və təhdidlərlə mübarizə, o cümlədən münaqişələrin yaranmasının, qaçqın, məcburi köçkünlərin və miqrantların axınına səbəb olan terrorizmin, aqressiv separatizmin, ekstremizmin qarşısının alınması sahəsində səmərəli fəaliyyətin aparılması üçün səylərin birləşdirilməsinə səsləyirlər.

Konfrans çərçivəsində "Bəşəri çağırış" filmi nümayiş etdirilib.

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*




# ZƏFƏRLƏR PARTİYASI

## YAP tarixin ən qüdrətli Azərbaycanının siyasi istinadgahıdır

*Əvvəli 1-ci səh.*

❖ ❖ ❖

Bəzən dəyərlərin necə yaranması haqqında çox düşünürəm...

Dünyanın ən qiymətli incilərini minilliklər cilaladığı kimi, dəyərləri də zaman formalaşdırır. Tarixi zərurət, vaxtın konkret anında üst-üstə düşən bir çox məqamlar nəyi yaradır və bu yaradılan yenə də zamanın sərt sınaqlarından çıxıb daha da möhkəmlənirsə, əsl dəyər bax budur.

Yeni Azərbaycan Partiyası da ilk növbədə zamanın, tarixi şəraitin ərsəyə gətirdiyi, tarixi dəyərdir...

Və hər nə qədər qəribə olsa da, bu cür dəyərlər, bir çox hallarda elə dəyərlərin gözdən düşdüyü, insanların həqiqətləri ayırd etməyə çətinlik çəkdiyi, bəzənsə yanlışların ardınca düşdüyü əyyamlarda formalaşır.

Görünür, vaxtın ağır sınaqlarından biri də elə budur.

❖ ❖ ❖

Bu qeydləri qələmə alarkən Yeni Azərbaycan Partiyasının formalaşdığı dövr bir an içində kino lenti kimi yaddaşımda canlanır. O vaxt baş verənlərin cəmiyyət olaraq bizim həyatımızdan keçdiyinə, həmin xaos, qarmaqarışıqlıq, təlatümlər dövrünü özümüzün yaşadığımıza inana bilmirəm.

Bütün bunları indiki nəslə təsvir eləmək bəzən adama o qədər çətin gəlir ki...

Böyük bir imperiya süquta uğramışdı. Az qala bir əsrə yaxın müddətdə milyonlarla insanın tapındığı kommunist ideologiyası, kommunizmə ümidlər puça çıxmışdı. Bu ideologiyanın on illər ərzində insanlara yalan satdığı, onları öz milli köklərindən, təbii inkişaf axarından, dünyadakı tərəqqidən uzaq tutduğu məlum olmuşdu.

Kommunist partiyası ilə birgə birpartiyalı sistem də iflas etmişdi. İnsanlar anlamağa başlamışdılar ki, demokratik inkişafın bir yolu da çoxpartiyalılıqdadır. Cəmiyyətin siyasi həyatında fəal iştiraka can atan hər bir fərdin bunu müxtəlif partiyalarda iştirak vasitəsilə, yaxud heç bir partiyaya qoşulmadan bitərəf qaydada gerçəkləşdirə bilmək azadlığındadır.

Müstəqillik neməti Azərbaycan insanı üçün belə bir azadlığı, bəli, yaratmışdı. Amma bu azadlığın müstəqilliyin ilk illərində ortaya qoyduğu qarışıq mənzərəni də bir xatırlayaydınız.

❖ ❖ ❖

Tarixi dövrlər bəzən heyrətamiz şəkildə bir-birinə bənzəyir.

Ötən əsrin 90-cı illərində Azərbaycan həyatında özünü göstərən xaosun, siyasi partiyalar bolluğunun oxşarını memuar ədəbiyyatımızın ünlü simalarından olan Manaf Süleymanov XX əsrin əvvəllərinə aid "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərində çox maraqlı tərzdə təsvir edib.

Eynən 90-cı illərdə olduğu kimi, ötən əsrin əvvəllərində də Azərbaycanda xeyli sayda partiya təsis olunubmuş. Hətta vəziyyət o həddə çatıbmış ki, partiya nümayəndələri şəhər küçələrində masa qoyub öz qurumlarına üzv toplayırmışlar. Üzvlük üçün ərizə yazan hər kəs elə masadaca bir stəkan şərbətə qonaq edilirmiş. Manaf Süleymanov yazır ki, elə adamlar vardı, çoxlu şərbət içməkdən ötrü gün ərzində bir neçə partiyaya üzv olurdular.

Nə qədər gülünc təəssürat bağışlasa belə, müstəqilliyin ilk illərində partiyalarla bağlı durum da bundan bir elə fərqli deyildi. Bəzən heç evdə külfətini bir yerə toplaya bilməyən adamlar partiya qeydiyyatdan keçirib özlərini siyasi lider elan edirdilər. Ciddi-ciddi fəaliyyət planları, seçki platformaları hazırlayırdılar. Qəzetlərdə müsahibələr verirdilər. Qəzetlərin özləri də siyasiləşmişdi. Hərəsi bir partiyaya bağlı idi. Firqə davaları, mətbuatda qarşılıqlı atmacalar, çəkişmələr getdikcə güclənirdi. Bu davalar Azərbaycanın müstəqilliyini beşikdəcə boğmağa can atan xarici qüvvələrin əli ilə yavaş-yavaş etnik münaqişələrə, separatçı hərəkətlərə, vətəndaş qarşıdurmalarına doğru adlayırdı.

Ən pisi isə o idi ki, bu çəkişmələr bəzən real və həm də silahlı davalara çevrilirdi. Çünki Azərbaycanda sözlə təsviri mümkünsüz olan qeyri-adi bir siyasi sistem əmələ gəlmişdi. Partiyaların silahlı dəstələri, ayrı-ayrı hərbi batalyonları vardı. Hətta iş o yerə çatmışdı ki, ictimai asayişin qorunmasına, dövlətin və vətəndaşların təhlükəsizliyinə görə məsul olan daxili işlər orqanlarının rəhbərinin özü belə həm də siyasi partiyaya rəhbərlik edirdi. Bu orqanların gücündən, imkanlarından partiyanın maraqları, rəqiblərin zərərsizləşdirilməsi üçün istifadə olunurdu.

Ətrafda isə gündən-günə halı ağırlaşan, torpaqları yağı düşmən tərəfindən işğal edilən, sosial-iqtisadi çətinliklər məngənəsində boğulan, vətəndaş müharibəsinə sürüklənən, parçalanma təhlükəsi ilə üz-üzə qalan kövrək, zəif Azərbaycan dövləti vardı...

❖ ❖ ❖

Müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın durumu onun ayaqda qalmasını, inkişafını istəyən, özünün, övladlarının gələcəyini bu dövlətin istiqbalında görən əksəriyyəti narahat edirdi.

Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xüsusilə xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə əndişələndirirdi. Onlar bu gedişlə ölkənin hansı uçurumlara yuvarlanacağını yaxşı görürdülər. Amma bu təşkilatlanmamış əksəriyyət nəyisə dəyişmək gücündə olmadığını da bilirdi. Çünki meydanlar, küçələr hakimiyyət kürsülərinə də oralardan gəlmiş səriştəsiz qaragüruhun əlində idi.

Bütün reallıqları onlar diktə edirdilər...

Bu siyasətbazların siyasi meydanda yaratdıqları mənzərə o qədər ikrah doğururdu



ki, çoxları özünü bu mənzərədə görmək istəmirdi. Əksəriyyət baş verənləri müşahidəçi mövqeyindən izləyib, bu işlərin sonunun necə olacağını gözləməyi üstün tuturdu. Amma bu son Azərbaycan dövlətinin sonu ola bilərdi. Ona görə də hansısa sağlam bir qüvvə meydana çıxıb vəziyyəti dəyişməli idi.

Azərbaycanın gələcək taleyini qaragüruhun əlindən almağa təşəbbüs göstərməli idi.

Və belə zamanlarda xalqın həmişə üz tutub çıxış yolu üçün müdrik bir fikrini, ağıllı bir məsləhətini umduğu insanlar - ziyalılarımız hərəkətə keçdilər. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər. Bu, elə bir partiya olmalı idi ki, ona rəhbərlik edəcək şəxs ümumən Azərbaycan xalqına liderlik qüdrətində olsun. Bunu öz həyat və fəaliyyətinin əvvəlki səhifələrində sübuta yetirsin. Ölkənin və xalqın gələcəyinə görə məsuliyyəti öz üzərinə götürə bilsin.

İnsanlar xalqın başında aparılan sınaqlardan, oyunlardan cana doymuşdular artıq. Hər kəs normal həyatına dönüb, gündəlik iş-gücünə yönəlmək istəyirdi. Dövlətin, xalqın və toplum içində özünün, doğmalarının təhlükəsizliyindən yana rahat olmağa can atırdı.

Və bu arzu, istək Moskvadan Vətənə yenicə dönərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilən ulu öndər Heydər Əliyevin fəal siyasətə qayıdışı ilə üst-üstə düşdü.

Bu tarixi məqamın diqqətə çatdırdığı bircə həqiqət vardı: Azərbaycanı üzləşdiyi bəlalardan ancaq O xilas edə bilərdi. Azərbaycanın taleyindən narahatlıq hissi ilə toparlanmağa can atan ziyalılarımızı, cəmiyyətin sağlam qüvvələrini və ümumən xalqı öz şəxsiyyətinin əzəməti ətrafında ancaq O, bir araya gətirməyi bacarardı.

Beləliklə, Azərbaycan xalqı, onun seçkin insanları Heydər Əliyev şəxsiyyəti işığında birləşdilər. 91 nəfər görkəmli ziyalımızın imzası ilə Naxçıvana, ulu öndərə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi.

❖ ❖ ❖

"91-lər"in müraciətində Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik xahiş olunurdu. 1992-ci il oktyabrın 16-da Azərbaycan ziyalılarının müraciəti mətbuatda dərc edildi. Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, ozamankı hakimiyyətin onun Bakıya gəlməsinə yaratdığı maneələr ucbatından partiyanın təsis konfransını Bakıda keçirmək mümkün olmadı. Onda partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana getdi. Partiyanın təsis konfransı milli dövlətçiliyimizdə hər zaman mühüm rol oynamış qədim Naxçıvan torpağında baş tutdu.

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Partiyanın Siyasi Şurasının, İdarə Heyətinin tərkibi, sədrin müavinləri müəyyənləşdi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən, xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası siyasi səhnəyə daxil oldu.

Məşhur bir ifadə ilə desək, Yeni Azərbaycan Partiyasını dövr özü yaratdı, zəmanə özü yaratdı.

Elə ümummilli lider Heydər Əliyev də Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyasının ardıcıl qələbələrinin ən böyük sirri də elə bundadır...

Azərbaycanın ağır günlərində belə bir qurumda toplaşıb gələcəyə doğru çıxış yolları arayan insanların niyyətindədir...

Adətən, partiyanı hakimiyyətə gəlmək üçün yaradırlar. Burada qeyri-normal nəsə yoxdur. Dünyanın əksər siyasi sistemlərində belədir. Amma Yeni Azərbaycan Partiyasında bir araya gəlmiş insanların məqsədi əsla hakimiyyət, vəzifə kürsüləri, imtiyazlar əldə etmək deyildi. Diqqət etsək, görərik ki, Yeni Azərbaycan Partiyasının formalaşdırılmasında yaxından iştirak etmiş şəxslərin çoxu heç sonralar yüksək dövlət vəzifələri tutmadılar. Yenə də ziyalı kimi cəmiyyətdə öz missiyalarını davam etdirməyi inzibati vəzifələrdən üstün tutdular.

Çünki bu insanların davası vəzifə davası deyildi, Azərbaycan davası idi...

Bu partiyanın yaradılmasında başlıca məram Azərbaycanın qaragüruhdan, onların yaratdığı təhlükələrdən xilası idi. Ona görə də yaradılmasından qısa müddət sonra Yeni Azərbaycan Partiyası ölkəmizdə əsas güc mərkəzinə çevrildi. Heydər Əliyev ideyalarını rəhbər tutaraq cəmiyyətimizdə vəhdətin əldə olunması üçün mükəmməl örnək yaratdı.

Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası oldu. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi.

Və onun sıralarında, təəssübkeşliyində, Heydər Əliyev ideyaları ətrafında sıx birləşdi...

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyasının hakim partiyaya çevrilməsi də, əslində, fərqli şəkildə baş verdi. Ənənələrə görə, əvvəlcə siyasi partiya çoxluğu əldə edərək sonra öz liderini hakimiyyətə gətirir. Amma 1993-cü ildə xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevi Azərbaycanın siyasi rəhbərliyinə gətirən təkcə Yeni Azərbaycan Partiyası deyildi. Ölkənin xilası üçün hakimiyyət rəhbərliyinə qayıdışını bu səriştəli, qətiyyətli, müdrik dövlət xadimindən təkidlə tələb edən ümumxalq iradəsi idi. Ona görə də Yeni Azərbaycan Partiyası Heydər Əliyevi deyil, Heydər Əliyev öz partiyasını hakimiyyətə gətirdi.

Yeni Azərbaycan Partiyası tarixdə çox nadir siyasi təşkilatlardan sayıla bilər ki, yarandıqdan cəmi 7 ay sonra hakim partiyaya çevrildi. Bu hadisənin özü Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti və partiyanın yaranması faktına tarixin özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi.

❖ ❖ ❖

Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquqi, dünyəvi, sivil dövlət quruculuğu prosesinin uğur qazanmasında, demokratik islahatların öz məqsədinə çatmasında Yeni Azərbaycan Partiyası mühüm rol oynadı. Bu partiya, ilk növbədə Heydər Əliyevin müxtəlif sahələrdə irəli sürdüyü strateji vəzifələri layiqincə yerinə yetirməyə qabil, peşəkar, məsuliyyətli, səbatlı kadr bazasını formalaşdırdı. Uzun illər partiya-dövlət orqanlarında çalışaraq böyük bir yol keçmiş səriştəli insanların öz zəngin təcrübələrini gənc nəslə ötürmələri üçün əsl məktəb rolunu oynadı.

Dövlətçilik ərkanı deyilən maraqlı bir anlayış var.

Ümumiyyətlə, lüğətlərdə ərkan sözünün iki mənası göstərilir. Bir mənası yüksək vəzifəli dövlət məmurlarının, dövləti idarə edən adamların toplusudur. Digər mənası isə ədəb qaydalarıdır, rəsmi adətlərdir. Fikrimcə, bu mənaların hər ikisi bir yerdə dövlətçilik ərkanını əmələ gətirir. Və hər bir dövlətin möhkəmliyi, uğurları, qarşıya qoyduğu hədəflərə çatması üçün dövlətçilik ərkanına malik olması çox mühümdür. Bunu isə ümumi dəyərləri, ideyaları bölüşən insanlar formalaşdırır. Azərbaycanda dövlətçilik ərkanının formalaşmasında Yeni Azərbaycan Partiyası, bu partiyada təmsil olunan, yüksək dövlətçilik düşüncəsini paylaşan insanlar böyük rol oynadı.

Bu partiya ölkəmizin siyasi mühitinə də bir mədəniyyət gətirdi, əxlaqi normalar müəyyənləşdirdi. Azərbaycanın siyasi mühitini sağlamlaşdırmağa başladı. Öz nümunəsi ilə göstərdi ki, qaragüruhçuluqla, dava-şavalarla, çığır-bağırla nəyəsə nail olmaq mümkün deyil. Müsahibədə ikən tamaşaçılara tərəf siqaret tüstülətmək, parlament zalının döşəməsində bardaş qurmaq, vəzifə kürsülərinə ən ucadan qışqırıb çığır-bağır salanları gətirmək heç bir ədəb qaydalarına, uyğun deyil. İnkişafın, tərəqqinin yolu məhz qaydalardan, davamlı islahatlardan, fərqli fikirlərə hörmətdən, ən əsası isə xalqın, dövlətin maraqlarını firqə maraqlarından uca tutmaqdan başlanır.

Yeni Azərbaycan Partiyası öz tarixində bu nümunəni yaratdı.

Radikalizm, qeyri-adekvat davranışlar, mənasız emosionallıq, küçə-meydan əhvalı bu partiyanın siyasətinə həmişə zidd oldu. Yeni Azərbaycan Partiyası problemləri də, onların həlli yollarını da həmişə düzgün, aydın göstərməyə çalışdı. Hər bir siyasi partiyanın ən mühüm vəzifələrindən birinin cəmiyyətdə siyasi mədəniyyətin yüksəlməsi üçün maarifləndirmə işlərinin aparılmasından ibarət olduğunu fərq etdi və bu istiqamətdə əməyini əsirgəmədi.

Bu partiyanın üzvləri təhqiri, böhtanı, qaralama kampaniyalarını özlərinə rəva bilmədilər heç zaman. Münaqişələrin həmişə demokratik cəmiyyətlərə xas təmkinlə diskussiya məcrasına yönəldilməsi üçün səy göstərdilər.

Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Və bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.

Bu siyasi təsisat partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsiplərinə sadiqliklə Azərbaycanın siyasi gələcəyinin ideya bazasını formalaşdırdı.

❖ ❖ ❖

Bu partiyanın yaxından iştirakı ilə Azərbaycan böyük bir inkişaf yolu keçdi. Ölkəmizdə azad bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Vətəndaş cəmiyyəti formalaşdı. Söz və mətbuat azadlığı təmin edildi. İnsan hüquq və azadlıqlarının qorunması istiqamətində mühüm addımlar atıldı. Çoxpartiyalı sistem yaradıldı. Seçki təcrübəsi ildən-ilə daha da təkmilləşdirildi. Azərbaycan dünyanın nüfuzlu qurumlarına tamhüquqlu üzv qəbul olundu.

Və Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə, təcrübəsi ilə, yaratdığı örnəklərlə, yetişdirdiyi peşəkar kadrlarla bu prosesin hər zaman önündə gəldi. İnkişafın avanqardı oldu. Azərbaycanda sabitliyin qorunması, demokratik siyasi münasibətlər sisteminin bərqərar edilməsi, bazar iqtisadiyyatı modelinin yaradılması, tarixi ənənələrə və müasir dünyanın təcrübəsinə əsaslanan milli dövlətin qurulması kimi bir sıra mühüm vəzifələri uğurla yerinə yetirərək ölkənin siyasi həyatındakı yerini müəyyənləşdirdi. Bütün bunlar Yeni Azərbaycan Partiyasını daha da gücləndirdi. Regionun aparıcı siyasi qüvvəsi kimi Azərbaycanda və ölkə hüdudlarından kənarda onun nüfuzunu daha da yüksəltdi.

Azərbaycanda hüquqi dövlətin, sabit və sosialyönümlü iqtisadiyyatın, vətəndaş cəmiyyətinin inkişafını istəyən, cəmiyyətdə vəhdətə, qloballaşma proseslərinin üstünlükləri ilə xalqın milli-mənəvi dəyərlərinin tənasübünə can atan vətəndaşların əhatəsi bu partiyada gündən-günə genişləndi və yenə də genişlənir.

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyasından əvvəl ölkəmizdə xeyli sayda partiya vardı. Ondan sonra da kifayət qədər partiya yaradıldı. Amma o təsisatların çoxu özünü doğrulda bilmədi. Ətrafında ciddi sosial baza formalaşdırmağı bacarmadı. Yaxud meydan eyforiyasının təsiri ilə bu təsisatlarda cəmləşmiş insanları uzun müddət bu təsirdə tutub saxlamağa müvəffəq olmadı. Çünki ortada ideya yox idi. Ona görə də bu partiyaların əksəriyyəti seçkilərdəki ardıcıl məğlubiyyətlərdən sonra param-parça olub sıradan çıxdı. Tarixin arxivinə qovuşdu.

Yeni Azərbaycan Partiyası isə monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Sıralarında ən müxtəlif sosial qruplardan olan insanları birləşdirərək milli vəhdətə böyük töhfələr verdi. Bununla sübuta yetirdi ki, təməl möhkəm, niyyət saf, əqidə mətin olanda nəticə ancaq uğurdur.

Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir.

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyası tariximizdəki bir çox mənəvi nailiyyətlərin partiyasıdır. Bu nailiyyətlərdən biri də Azərbaycanda əsrlərdir yol gələn qadın fəallığı ənənələrinin Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın şəxsində ən yüksək zirvəsinə çatmasıdır. Mehriban xanımın timsalında Azərbaycan qadınının layiq olduğu ən yüksək ictimai məqama, mənəvi ucalıqlara yüksəlməsidir.

Bu gün adı bütün dünyada xeyirxahlıq, insanlara sevgi, nəciblik, mərhəmət, şəfqət kimi ali məzmunlarla assosiasiya olunan Mehriban xanım Əliyevanın öz fəaliyyəti ilə yaratdığı örnək, təlqin etdiyi dəyərlər Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağını artırır. Xanımlarımızın Yeni Azərbaycan Partiyasına axınını gücləndirir. Bu marağı şərtləndirən amillərdən biri də hakim partiyada sosial mənsubiyyətindən asılı olmayaraq hər kəs üçün bərabər imkanlar mühitinin mövcudluğudur.

Yeni Azərbaycan Partiyası sıralarında bu baxımdan gənclər də böyük üstünlük təşkil edir. Partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti məhz gənclərdən ibarətdir. Çünki gənclər Yeni Azərbaycan Partiyasında ölkənin, cəmiyyətin və bu cəmiyyətin bir üzvü kimi özlərinin uğurlu gələcəklərini görürlər. Bu partiya onları küçələrə, meydanlara, dövlətə qarşı itaətsizlik göstərməyə, sosial şəbəkələrdə hakimiyyətə qarşı ürəkbulandırıcı nifrinlərlə, günlərini mənasız şəkildə yola verməyə çağırmır. Bu partiya Azərbaycan gəncliyini universitet auditoriyalarına, oxumağa, təhsillərini artırmağa, davamlı fərdi inkişafla məşğul olmağa səsləyir, uğurlu karyera qurmaq, cəmiyyət üçün layiqli, faydalı üzvlər olmaqdan ötrü özlərini yetişdirməyə səsləyir. Yeni Azərbaycan Partiyası Azərbaycan üçün vətənpərvər bir gənclik yetişdirir. Gənclərimizi yad ideologiyaların, qaragüruhun, dini mövhumatın ziyanlı təsirlərindən qoruyur. Bu partiyada milli dövlətçilik ənənələri, azərbaycançılıq məfkurəsi nəsillərdən-nəsillərə ötürülür. Bu partiyada gənc liderlər, ölkə həyatına ən müxtəlif sahələrdə töhfə verən peşəkarlar yetişir.

❖ ❖ ❖

Bu partiyanın taleyimdəki rolu ilə hər zaman qürur duymuşam, onun yerlərdə təşkilatlanması prosesində, az da olsa, iştirakımdan fəxarət hissi keçirmişəm. 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsindən sonra Xətai rayonunun ziyalıları, mütərəqqi insanları dövlətçilik maraqlarını və xalqın mənafeyini rəhbər tutaraq partiyanın rayon təşkilatını yaratmaq üçün fəaliyyətə başladılar. Bu insanlar çox ağır ictimai-siyasi vəziyyətə və güc strukturlarının təqiblərinə baxmayaraq, o cümlədən özlərinə və ailələrinə qarşı törədilə biləcək hər bir təxribatı, təhdid və təzyiqləri gözə alaraq qarşıya qoyduqları məqsədə çatmaq üçün tam səfərbər olundular. Təsis konfransının "Bakı" kinoteatrında keçirilməsi qərara alındı. Beləliklə, 1993-cü il fevral ayının 13-də Bakı şəhərinin rayonları arasında ikinci olaraq Xətai rayonunda Yeni Azərbaycan Partiyasının rayon təşkilatı yaradıldı.

Həmin dövrdə Xətai rayon təşkilatı 25 ərazi ilk partiya təşkilatında 500 nəfər üzvü birləşdirirdi. Fəxrlə qeyd etməliyik ki, ötən tariximizdə Yeni Azərbaycan Partiyasının Xətai rayon təşkilatı da böyük inkişaf yolu keçib, öz sıralarını daim genişləndirib, partiyanın proqram və prinsiplərinə uyğun olaraq qarşıya qoyulan vəzifələrin icrasını ləyaqətlə yerinə yetirib.

*Elmi nəzəriyyələrə görə, adla onun aid olduğu subyektin taleyi arasında bağlılıq yoxdur. Amma Yeni Azərbaycan Partiyasının adı və tarixi taleyinə nəzər saldıqda böyük bir istisnanın yarandığını görürük. Yeni Azərbaycan adı bu partiya üçün bir taledir həm də...*

*Onun öz tarixi ilə öz adını doğrultmasıdır.*

*Yeni Azərbaycan Partiyası yeniləşən, inkişaf edən, qüdrətlənən Azərbaycanın partiyasıdır...*
*Dünənin, bu günün və gələcəyin partiyasıdır...*

**Hüseynbala MİRƏLƏMOV,**

*Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının Xətai rayon təşkilatının sədri*

## 20 noyabr Ümumdünya Uşaqlar Günüdür





# “Ana qayğısını, nəvazişini Mehriban xanımdan görürük...”

*Bir ev var: çox rahat, isti, səliqəli, yataqları yumşaq, yeməkləri ləzzətli... O qədər oyuncaq var ki, elə bil nağıl dünyasının içərisindəsən...*

*Uşaqların ehtiyacı olan hər şey var burada, amma yenə də nə isə çatmır...*

*Bu evin balaca sakinləri hər gələn zəngin o başında anasının, hər açılan qapının arxasında atasının olacağını ümid edir, bunu çox istəyirlər.*

*Uşaq evindən danışırıq, atılmış, tərk edilmiş, imtina olunmuş uşaqların yeganə ümid yerindən...*

## Birinci vitse-prezident Mehriban Əliyevanın böyük himayədarlığı və şəfqəti nəticəsində uşaq evlərinin sakinləri artıq kimsəsiz deyillər











### Kimsəsizlərin ən böyük himayədarı

20 noyabr Ümumdünya Uşaqlar Günüdür. BMT Baş Məclisi 1954-cü ildə bütün ölkələrə Ümumdünya Uşaqlar Gününün dünya uşaqlarının qardaşlığı və həmrəyliyi günü kimi bayram edilməsini tövsiyə edib. BMT-nin Baş Məclisi tərəfindən 1959-cu il noyabrın 20-də Uşaq Hüquqları Bəyannaməsi, 1989-cu ilin həmin tarixində isə Uşaq Hüquqları Konvensiyası qəbul olunub.

Uşaq hüquqlarının təmin edilməsi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin uğurla reallaşdırılmasına Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva hərtərəfli dəstək verir.

Mehriban Əliyeva “Uşaqlara yaxşılıq nə qədər çox olsa, yenə azdır” devizini rəhbər tutaraq, çox dəyərli bir mərama söykənib: Azərbaycan uşaqlarını bəxtəvər görmək. O həm də kimsəsizlərin ən böyük himayədarıdır. Çünki ulu öndərin adını daşıyan fond yarandığı ilk gündən valideyn himayəsindən məhrum olan, dövlət müəssisələrində tərbiyə edilən uşaqların taleyini diqqət mərkəzində saxlayır. Uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirilir. “Uşaq evləri və internat məktəblərinin inkişafı prqramı” və “Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması” layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunub.

Böyük qürur duyğusu ilə deyə bilərik ki, nəcib və ali məqsədlər, bəşəri ideyalar naminə çalışan, insan amilini daim uca tutan xoşməramlı şəxsiyyətlər arasında Mehriban Əliyevanın adı xüsusi çəkilir. Bu istiqamətdə həyata keçirdiyi nəcib missiya onu bütün Azərbaycan uşaqlarının ən yaxın dostuna, qayğıkeşinə çevirib. Mehriban xanım Əliyevanın mərhəmət və humanistlik nümunəsi, milli-mənəvi dəyərlərimizin qorunmasında misilsiz fəaliyyəti ümummilli liderin siyasi məktəbindən, ideyalarından bəhrələnir. Azərbaycanın birinci xanımının gündəlik fəaliyyətini bu prinsiplər təşkil edir: Vətənə bağlılıq, millətinə, xalqına sonsuz məhəbbət, xəstə və kimsəsiz uşaqlara qayğı, zəngin mədəniyyətimizə dərin hörmət, bir sözlə, insanlıq və bəşəri duyğular naminə fədakarlıq.

### Məzunların bir çoxu ali məktəblərə qəbul olunub

Mehriban xanım Əliyevanın diqqətində olan belə uşaq evlərindən biri də Bakının Nizami rayonundakı 1 saylı uşaq evidir. Uşaq evinin 1950-ci illərdə tikilmiş və uzun illər təmir edilmədiyindən yararsız hala düşmüş binasında 2005-ci ildə Heydər Əliyev Fondunun vəsaiti hesabına əsaslı təmir və yenidənqurma işləri aparılmış və Mehriban Əliyeva uşaq evinin açılışında iştirak etmişdir.

Uşaqların Beynəlxalq Müdafiə Günü ərəfəsində həmin ünvana baş çəkirik. Hazırda 1 saylı uşaq evinin 110 sakini var. Burada 3 yaşdan 18 yaşadək uşaqlar yaşayır, təhsil və tərbiyə alırlar.

Həmin uşaqların təhsili ailələrdə böyüyən uşaqlardan heç nə ilə fərqlənmir. Onlar yaxınlıqda yerləşən 220 nömrəli məktəbdə oxuyurlar. Uşaq evinin rəhbərliyi fərdi şəkildə hər bir uşağın təhsili ilə maraqlanır. Bununla yanaşı, burada təcrübəli müəllimlər uşaqlarla xüsusi proqram əsasında məşğul olurlar. Aralarında əlaçılar da çoxdur. Məsələn, 11-ci sinfi əla qiymətlərlə bitirən Elvin artıq Azərbaycan Diplomatik Akademiyasının IV kursunda oxuyur. Elbrus adlı gənc Rəssamlıq Akademiyasının III, Təbriz isə Kooperasiya Universitetinin II kursunda təhsil alır. Builki məzunlardan 3 nəfər - Mirzə İdman İnstitutuna, Həmid və İlkin isə Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Prezident yanında İdarəçilik Akademiyasına qəbul olublar. Onların təhsil haqqı və digər xərcləri Heydər Əliyev Fondu tərəfindən ödənilir.

### Bacarıqlı əllər

Uşaq evinin direktoru Nərminə Zöhrabova qeyd edir ki, burada uşaqlara peşə qabiliyyətinin öyrədilməsi və əl işləri ilə bağlı inkişaf etmələri üçün də hər cür şərait yaradılıb. Kompüter, dülgərlik, xalçaçılıq, tikiş, rəssamlıq, rəqs və digər dərnəklər uşaqların müxtəlif peşələrə yiyələnmələrinə imkan yaradır. Nənələrimizin əl işi olan iynənin arxası ilə naxış vurma sənətinə isə qızlarla yanaşı, oğlanların da xüsusi marağı var və çox gözəl naxış vururlar.

Geniş rəsm otağına daxil oluruq. Molbertlərin üzərində səylə çalışan balaca rəssamların əl işləri çox rəngarəngdir. Kimisi fikirlərini sadəcə bir çiçək, kimisi göylərdə azad uçan quşlarla, kimisi də ata, ana və uşaqlardan ibarət ailə ilə bağlı rəsmi kağıza köçürür.

Uşaq evindəki akt, oxu, idman, rəqs zalları, hər yaş qrupunun öz yataq otağı, rəsm, tikiş, məşğələ, istirahət və kompüter otaqları, uşaqların əl işləri muzey-sərgisi, bərbərxana, müasir səviyyədə təchiz olunmuş tibb kabineti, hamam, üzgüçülük hovuzu, həyət yay konsert meydançası, yaşıllıqlar, stadion uşaqların fiziki və əqli cəhətdən sağlam inkişafı üçün hər cür şərait yaradıldığının bariz nümunəsidir.

Hazırda Milli Olimpiya Komitəsi ilə danışıqlar aparılır ki, stolüstü tennis üzrə dərnəklər də yaradılsın. Həmçinin qızlardan və oğlanlardan ibarət ayrıca futbol komandasının yaradılması da plandadır.

Oxu zalındakı rəflərdə uşaqların müxtəlif fənn olimpiadalarında, idman və əyləncəli yarışlarda qazandıqları mükafatlar da nümayiş etdirilir.

Uşaq evinin direktoru məlumat verdi ki, 2016-cı ildə Müasir İncəsənət Muzeyində uşaqların əl işlərindən ibarət sərgi təşkil edilib və orada 500 adda əl işi sərgilənib: “Sərginin 3 gün davam etməsi planlaşdırılsa da, Mehriban xanım Əliyeva baxışdan sonra deyib ki, qoyun bu əl işləri daha 15 gün də sərgilənsin”.

### “Leyla Əliyeva hər ay buranı ziyarət edir, Adili tez-tez evlərinə qonaq aparır”

Uşaq evinin 2003-cü ildən fəaliyyətə başlamış “Azəri” mahnı və rəqs ansamblı dəfələrlə respublika müsabiqələrinin qalibi olub, xarici ölkələrə səfərlər edib. Kollektiv Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə hər ilin aprelində İstanbulda keçirilən ənənəvi uşaq bayramında fəal iştirak edir. Festivalda 16-17 ölkə çıxış edir və Azərbaycan yeganə ölkədir ki, orada uşaq evinin qrupu ilə təmsil olunur. Bu ilin oktyabrında isə uşaq evinin kollektivi Volqaqradda keçirilən Beynəlxalq Uşaq Festivalında iştirak edib.

Uşaqlar ilə söhbət edirik. Səbinə deyir ki, rəqsi çox sevir və gələcəkdə də bu sənəti davam etdirmək fikrindədir. Sevinc isə həkim olacaq. Söhbət əsnasında o da məlum oldu ki, uşaqların əksəriyyəti rəqsi sevsə də, bu igidlərin çoxu böyüyəndə hərbçi olmaq niyyətindədir.

Heydər Əliyev Fondunun layihəsi əsasında bu uşaq evi xarici ölkələrdə yerləşən uşaq evləri ilə mübadilə aparır. Məsələn, Rusiyanın Moskva şəhərindəki “Bizim ev” adlı uşaq evinin kollektivi 1 həftə ərzində 1 nömrəli uşaq evində olublar. Daha sonra 1 nömrəli uşaq evinin sakinlərini orada qonaq ediblər.

1 nömrəli uşaq evinin Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki düşərgəsinin fəaliyyəti də fondun uşaqlarla bağlı reallaşdırdığı layihələr silsiləsinə daxildir. Belə ki, 2006-cı ildə Heydər Əliyev Fondu tərəfindən inşa olunan bu düşərgə 2013-cü ildə əsaslı təmir edilib, həyətyanı sahə abadlaşdırılıb. Burada yeni, müasir stadion inşa olunub, hovuz yenidən qurulub, uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün gözəl şərait yaradılıb.

Direktor vurğulayır ki, bütün görülən işlər, əldə olunan nailiyyətlərin hamısı Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanım Əliyevanın adı ilə bağlıdır: “Elə bir şey olmayıb ki, bizim ona ehtiyacımız olsun, Heydər Əliyev Fondu bunu etməsin, yetər ki, bu barədə onlara deyək. Heç deməsək belə, hər həftə, hər gün buradakı vəziyyətlə maraqlanırlar. Mehriban xanımın daim nəzarətindəyik, şəxsi himayəsindəyik. Fondun vitse-prezidenti Leyla Əliyeva hər ay bu uşaqları ziyarətə gəlir. Burada olan balaca Adili isə o qədər çox istəyir ki... Onu qucaqlayır, öpür, doğma balası kimi bağrına basır, onu öz evlərinə belə aparır. Bu doğmalığı hiss edən Adil də tez-tez ərk edərək soruşur ki, Leyla xanımgilə getmirik?”.

### “Mehriban xanım Əliyevanın qayğısı anamızın yoxluğunu bizə hiss etdirmir”

Həyat 3 yaşından uşaq evinə verilib. Deyir ki, yalnız görüş günlərində və tətillərdə anasını görür. Buradakı uşaqların hamısı ona doğma olsa da, ən yaxın rəfiqəsi Gülzardır. Hər ikisi anasından ötrü çox darıxır. Gecələr anası yuxusuna gəlir, onu öpür, nəfəsi ilə isidir, Həyat isə balaca əlləri ilə onu bərk-bərk qucaqlayır, istəmir ki, ondan ayrılsın, amma hər dəfə də üzünü çevirib tələsik addımlarla uzaqlaşır, qaranlıqda yox olur... Öz ağlamasının səsinə oyanır və 11 ildir təkrarlanan bu yuxu və reallıq arasında nə edəcəyini bilmir...

Bayramla Ruslan qardaşdırlar və onlar da lap kiçik yaşlarından bu uşaq evinin sakininə çevriliblər. Tətillərdə analarının gəlib onları öz doğma evlərinə aparacağı günü səbirsizliklə gözləyirlər...

Nərminə Zöhrabova dedi ki, hər həftənin bazar günü onlarda “açıq qapı” günü keçirilir və uşaqların valideynlərinin, yaxınlarının gəlib onlarla zaman keçirmələri, söhbət etmələri üçün hər cür şərait yaradılır: “Övladını bura verən hər bir kəs istənilən zaman gəlib onu götürə bilər. Onu da vurğulayım ki, 10 yaşdan sonra uşaqların uşaq evlərində qalmaları o qədər də uyğun olmur. Təsəvvür edin, 17 yaşında uşaq var ki, ömrünün 14 ilini burada keçirib. Bu yaşda olan uşaqların psixologiyası xüsusilə çox həssas olur. Çox zaman görürsən ki, onlar öz talelərini, yazılmış qismətlərini qınayırlar. Deyirlər ki, görün bizim taleyimiz necə təzadlıdır, bir dəfə dünyaya gəl, onu da uşaq evində böyü...”

15 yaşlı Emil deyir ki, bu uşaq evinə yeni gələndə çox pis olurmuş, özünü tənha hiss edirmiş: “Amma burada hər birimizə göstərilən qayğını, diqqəti gördükdən sonra əmin oldum ki, biz kimsəsiz deyilik. Mən lap kiçik yaşlarımdan bu uşaq evinin sakiniyəm və bu illər ərzində Mehriban xanımın xüsusi qayğısının şahidiyəm. Hətta onun diqqəti, mehribanlığı, qayğıkeşliyi sayəsində anamızın yoxluğunu belə o qədər hiss etmirik. Buna görə də hər zaman qürurla deyirəm ki, biz kimsəsiz deyilik. Heç himayədarı Mehriban xanım olan uşaq kimsəsiz ola bilərmi?!”

Uşaq evində böyüyüb məzun olan tam kimsəsiz qızlar müvəqqəti olaraq uşaq evinin yataqxanasında qalırlar. Bəziləri isə Heydər Əliyev Fondunun Abşeron rayonu Masazır qəsəbəsində uşaq evləri və internat məktəblərinin məzunları üçün tikilmiş binada evlə təmin olunurlar. Həmçinin fond 2016-cı ildə toyu olan uşaq evinin məzunları İbrahim və Yasəmənə “Koroğlu” metrostansiyası yaxınlığında 2 otaqlı ev verib. Hazırda onların 11aylıq bir övladları da var. Toy mərasimində Mehriban xanım Əliyevanın adından cütlüyə avtomobil də hədiyyə olunub. Digər ailəsi olan uşaqlar isə buranı tərk edərək öz evlərinə gedirlər.

### Bu yuva nə qədər isti olsa da...

Artıq günortadır və uşaqlar nahar etmək üçün yeməkxanaya yığışıblar. Ətrafı boranı plovun gözəl ətri bürüyüb. Böyük uşaqlar yeməklərin, çörəyin paylanmasına, balacaların yemək yeməsinə kömək edirlər.

Balaca Qənirə deyir ki, ən xoşladığı xörək dovğadır. Mirzə isə şirniyyat, xüsusilə tort yeməyi sevir, istəyir ki, hər gün tort yesin...

Balacaların həvəslə boşqaba vurduqları qaşıqların cingiltisi altında yavaş-yavaş bu balaca sakinlərin evini tərk edirik...

1 saylı uşaq evində valideyn himayəsindən məhrum uşaqların mənəvi sıxıntı keçirməmələri üçün dövlətimizin və Heydər Əliyev Fondunun xətti ilə bütün lazımi addımlar atılır. Yalnız belə rahat şərait və cəmiyyətin bütün təbəqələrinin xoş, qayğıkeş münasibəti uşaqların ata-anasızlıq dərdini azalda bilər.

Bəli, məhz azalda bilər, amma tam yox edə bilməz. Çünki heç bir yuva ana hərarətini, ana qucağını əvəz edə bilməz. O yuva nə qədər isti olsa, nə qədər qayğı ilə əhatə olunsa belə... Onları tərk edən valideynlərinin gətirdikləri əsasların hamısı bir uşağın gözlərində donub qalan yaşa, ürəyində cığır salan həsrətə bir bəhanədir.

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# İnkişafın Azərbaycan modeli dünyada özünü doğruldur



YAP Yasamal rayon təşkilatının təşəbbüsü ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

YAP Yasamal rayon təşkilatının qərargahında Azərbaycanın Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə müstəqilliyimizlə yaşıd olan partiyanın yaranma tarixindən, o dövrdə ölkəmizdə baş verən mürəkkəb ictimai-siyasi hadisələrdən bəhs olunub.

YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxışında Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevə olan ümumxalq məhəbbətindən, ümummilli liderin xalqımız qarşısındakı xidmətlərindən danışıb.

Qeyd edib ki, ötən əsrin sonlarında Azərbaycanda mövcud olan mürəkkəb ictimai-siyasi hadisələr, dövlətçilik təcrübəsindən xəbərsizlərin Azərbaycana rəhbərliyi müharibə şəraitində yaşayan ölkəmizi uçuruma aparırdı. İnsanlar təlaş içərisində idilər. O dövrdə xalqı bir ideya ətrafında birləşdirəcək vahid təşkilata, qətiyyətli liderə ehtiyac duyulurdu. Belə bir şəraitdə cəmiyyətimizin parlaq simaları, Azərbaycan tarixinə "91-lər" kimi yazılan böyük hörmətə layiq ziyalılar Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyevə müraciət edərək xalqı düçar olduğu bəlalardan qurtarmaq üçün çıxış yolu tapmağa çağırdılar. 1992-ci il noyabrın 21-də Naxçıvanda 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Həmin hadisə yenicə müstəqilliyini qazanmış respublikamızın həyatında tarixi hadisə, dönüş nöqtəsi oldu.

T.Əhmədov vurğulayıb ki, ulu öndərin hakimiyyətə qayıdışı ilə iqtisadi böhranla üzləşən Azərbaycanın inkişaf konsepsiyası, strategiyası müəyyənləşdirildi və ölkəmizin parlaq gələcəyi təmin olundu.

Milli Məclis Sədrinin birinci müavini, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov Azərbaycanın qazandığı uğurlarda böyük rolu olan, ümumxalq tribunasına çevrilən YAP-ın tarixindən bəhs edərək deyib: "Hakimiyyətə qayıdışı ilə Azərbaycanı təhlükələrdən xilas edərək xilaskar adını qazanan ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası tək ölkəmizdə deyil, regionda və dünyada vahid siyasi qüvvə kimi tanınır. Hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik yaradan, müstəqil Azərbaycanın Konstitusiyasını hazırlayan ulu öndər bildirirdi ki, Ali Qanunumuzun hər maddəsində dinindən, dilindən, milliyyətindən asılı olmayaraq bütün vətəndaşların sərbəst yaşamaq, azad düşünmək hüquqları əksini tapmalıdır".

Z.Əsgərov qeyd edib ki, artıq inkişafın Azərbaycan modeli dünyada özünü doğruldur və təbliğ edilir. Ölkəmiz üç peyki ilə azsaylı üzvü olan kosmik ailədə təmsil olunur. Ulu öndərin Azərbaycan vətəndaşlarının rahat, firavan yaşaması üçün həyata keçirdiyi siyasi, iqtisadi, sosial islahatları davam etdirməklə ölkə vətəndaşlarının etimadını qazanan Prezident İlham Əliyevə ümumxalq ehtiramı və inamı sonsuzdur. Milli Məclis Sədrinin birinci müavini bildirib ki, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına uğurla evsahibliyi etməklə, Şərqlə Qərbi birləşdirən körpü rolunu oynamaqla Azərbaycan ən zəngin bəşəri dəyərlərə malik inkişaf etmiş dövlət olduğunu təsdiqləyib.

Milli Məclisin Sədr müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova tədbirdə çıxış edərək ulu öndərin xalqımızın milli məfkurəsinin, təfəkkürünün formalaşmasında, ölkəmizin suverenliyinin əbədiliyi naminə gördüyü işlərdən bəhs edib. Bahar Muradova bildirib ki, dövlətçiliyin möhkəmlənməsini, müstəqilliyin əbədiliyini başlıca vəzifə kimi qarşıya qoyan ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycanın inkişaf yolu müəyyənləşdirilib və bu gün ölkəmiz həmin yolla uğurla irəliləyir.

Azərbaycanın ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq uğurla, inamla inkişaf etdiyini qeyd edən Bahar Muradova deyib: "Azərbaycan bu gün dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edir, tarixi nailiyyətlərə imza atır. Bu uğurların əsasını Prezident İlham Əliyevin liderlik bacarığı, xalq-iqtidar birliyi təşkil edir".

Yeni Azərbaycan Partiyasının ümumxalq partiyasına çevrildiyini söyləyən Milli Məclisin Sədr müavini qeyd edib ki, bu gün partiya regionda və dünya miqyasında çox böyük nüfuza malikdir.

YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, ulu öndərin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının Nizamnamə və Proqramının əsasında Azərbaycan xalqına xidmət daim öndə olub. "Qeyd olunduğu kimi, YAP xalqımızın üzləşdiyi o ağır illərdə yarandı. Ölkədə anarxiyanın tüğyan etdiyi, iqtisadi tənəzzülün hökm sürdüyü, insanların çörəklə imtahana çəkildiyi o illərdə xalq ayağa qalxaraq öz liderini seçdi. Yarandığı günlərdə sıralarında cəmi 550 üzvü olan Yeni Azərbaycan Partiyası bu gün öz sıralarında 700 mindən çox insanı birləşdirir. Bu isə xalqımızın partiyamıza olan inamından irəli gəlir. Birmənalı şəkildə qeyd edə bilərik ki, qüdrətli Azərbaycanın varlığı, müstəqilliyimiz ulu öndərin adı ilə bağlıdır. Konstitusiya Aktının qəbulu, zəngin qanunvericilik bazasının formalaşdırılması da ümummilli liderin cəsarəti sayəsində mümkün olub. Bu gün yüz illərlə dövlətçilik təcrübəsi olan ölkələr Azərbaycandan nümunə götürürlər",- deyə Vüqar Rəhimzadə vurğulayıb.

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev YAP-ın təsis olunduğu illərdə ölkədəki gərginlikdən, səbatsız hakimiyyətin yaratdığı xaosdan danışaraq bildirib ki, ilk gündən ölkədəki sabitliyin, inkişafın istiqamətlərini irəli sürdüyü konsepsiya ilə müəyyənləşdirən ulu öndər Heydər Əliyev bununla müstəqilliyimizin əbədiliyini təmin edib. Ölkədə ictimai-siyasi proseslərin mürəkkəbləşdiyi bir zamanda tarixi zərurətdən yaranan, xalqa daha yaxın olan Yeni Azərbaycan Partiyası ölkədə demokratiyanı, müasir siyasi sistemi formalaşdırdı.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov tədbirdə çıxış edərək vurğulayıb ki, ulu öndərin müdrikcəsinə müəyyənləşdirdiyi inkişaf strategiyasının dövlət başçısı tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan dünya miqyasında özünə güvənən, güclü, nüfuzlu ölkə kimi tanınır, bütün sahələr ciddi uğurlara imza atır. Bu gün Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür. Ölkəmizdə vətəndaş həmrəyliyi mövcuddur.

Tədbirdə YAP sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri verilib.

# Ölkəmizin inkişafında qadınlar da fəal iştirak edirlər

Noyabrın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) mərkəzi qərargahında "XXI əsr: Modern cəmiyyət - insan tərbiyəsində qadınların rolu" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə partiyanın qərargahında ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad ediblər.

Tədbiri açan YAP Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin (BSU) rektoru Nurlana Əliyeva konfransın əlamətdar günə - noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümünə təsadüf etdiyini deyərək bu münasibətlə təbriklərini çatdırıb.

Azərbaycan cəmiyyətində qadınların rolundan danışan Nurlana Əliyeva bildirib ki, bu gün qadınlar ölkənin ictimai həyatında fəal iştirak edirlər. YAP sıralarında təmsil olunan fəal qadınlar cəmiyyətdə böyük nüfuz sahibidirlər. Qadınlar dünyada sülhün, təhlükəsizliyin əsas təbliğatçılarıdır. Bu mənada, modern cəmiyyətdə qadınların fəal rolu var.

Konfransda məruzə ilə çıxış edən Milli Məclisin deputatı, BSU-nun prorektoru Sahibə Qafarova bildirib ki, bu gün əsas beynəlxalq sənədlərdə cinslər arasında bərabərlik, kişi və qadınlar üçün bərabər imkanların təmin edilməsi əsas prioritetlərdən biri kimi təsbit olunub. Qadınların ictimai həyata daha çox inteqrasiya olunduğu bir zamanda zərif cinsin nümayəndələrinə geniş hüquqların verilməsi, onların bütün sahələrdə təmsilçiliklərinin artırılması, fəaliyyət sferalarının təhsil, səhiyyə kimi ənənəvi istiqamətlərdən daha da genişləndirilməsi, iqtisadi, sosial sahələrdə, hətta siyasi və dövlət idarəetməsində qadınların potensialından səmərəli faydalanması kimi tədbirlər bir sıra məsələlərin uğurla həllinə şərait yaradır. Heç də təsadüfi deyil ki, bu gün dünya xalqlarının taleyinin müəyyənləşdirilməsində, bəşəriyyətin yeni inkişaf paradiqmalarının ortaya çıxmasında nüfuzlu qadın liderlərin əhəmiyyətli rolu var. Avropanın bəzi qabaqcıl dövlətlərinin qadın liderləri qlobal problemlərin həllinə töhfə verirlər. Azərbaycan da demokratik norma və prinsipləri mənimsəmiş, uğurla inkişaf edən modern dövlət olaraq gender bərabərliyinin təmin edilməsi üçün önəmli addımlar atır, ölkəmizdə qadın hüquqlarının qorunmasına hər zaman diqqət göstərilir. Bu gün müstəqil Azərbaycanın qadınları parlamentdə, icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, hüquq mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Sədr müavini Bahar Muradova əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Tədbirin aktual mövzuya həsr olunduğunu deyən Bahar Muradova Azərbaycan qadınlarının cəmiyyət həyatındakı rolundan geniş bəhs edib. O bildirib ki, bu gün Azərbaycan dünyaya sürətlə inteqrasiya edir. Ölkəmizin inkişafında vətəndaşlarımız fəal rol oynayırlar və bu prosesdə qadınlar da bərabər şəkildə iştirak edirlər. Qadınlar cəmiyyətimizin ayrılmaz hissəsidir.

Tədbirdə, həmçinin Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, BSU-nun kafedra müdiri Sevinc Axundova və Respublika Sanitariya-Karantin Müfəttişliyinin rəisi Sara Həsənova çıxış edərək qadının dövlət siyasətindəki rolundan danışıblar. Bildiriblər ki, qadınlar bu gün mühüm dövlət işlərində, parlamentdə təmsil olunurlar. Bundan başqa, Azərbaycanın diplomat xanımları ölkəmizlə bağlı reallıqları beynəlxalq tədbirlərdə dünya ictimaiyyətinin diqqətinə çatdırırlar. Azərbaycanın Avropaya inteqrasiya etməsinə baxmayaraq, xalqımız kökünə və mədəniyyətinə bağlıdır. Bunun kökündə aparılan dövlət siyasətinin durduğunu deyən natiqlər Birinci vitse-prezident Mehriban Əliyevanın azərbaycançılıq ideologiyasının təbliğində mühüm işlər gördüyünü qeyd ediblər.

Qeyd olunub ki, bu gün Azərbaycanda qadın hüquqlarının ən yüksək səviyyədə təminatından, gender bərabərliyindən bəhs olunursa, bu məsələdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əhəmiyyəti mütləq şəkildə vurğulanmalıdır. Azərbaycanda uğurlu gender siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə qadın şəxsiyyətinin önəmini yüksək qiymətləndirib. Əsası ulu öndər tərəfindən qoyulan Azərbaycanın gender siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı gender məsələlərinə xüsusi həssaslıqla yanaşır, bu sahədə müvafiq addımların atılmasına şəxsən nəzarət edir.

Bildirilib ki, tariximizin və mədəniyyətimizin bir çox parlaq səhifələri də məhz Azərbaycan qadınının adı ilə bağlıdır. Çox sevindirici haldır ki, bu gün də bütün fəaliyyətini xalqımızın, dövlətimizin daha da inkişafına həsr edən belə işgüzar, cəsarətli, vətənpərvər xanımlar var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti həm də hər bir azərbaycanlı qadın üçün fəxr, qürur mənbəyidir. Onun millimənəvi dəyərlərimizin qorunması, xalqımızın zəngin irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, gənc nəslin sağlam mühitdə böyüməsi və tərbiyə olunması, səhiyyənin, təhsilimizin, mədəniyyətimizin inkişafı sahəsində əvəzsiz xidmətləri yüksək ali ideallara və milli maraqlarımıza söykənir.

## Azərbaycan Ədliyyəsi - 100

# Ədalət mühakiməsinin etibarlı təminatı

## Azərbaycanda müasir hüquq sisteminin tələblərinə uyğun məhkəmə hakimiyyəti formalaşıb

Bu il xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyini böyük təntənə ilə qeyd etdi. Amma bayram tədbirləri davam edir. Çünki 2018-ci ildə cümhuriyyət dövründə əsası qoyulmuş bir çox dövlət təsisatlarının da yaradılmasının 100-cü ildönümü tamam olur.

İndi isə növbə ədliyyə orqanlarına çatıb. Artıq 18 ildir ki, ədliyyə sistemində çalışanlar noyabrın 22-ni bayram günü kimi qeyd edirlər. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın dahi oğlu Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə təsis edilmiş bu günü ədliyyə işçiləri hər il yeni-yeni nailiyyətlərlə qarşılayırlar. Noyabr ayının 22-nin ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilməsi ümummilli lider Heydər Əliyevin dövlətçilik tariximizə, Xalq Cümhuriyyətinə və onun qurucularına böyük ehtiramının təzahürüdür.

Bu məqalədə əsasən ədliyyənin mühüm qolu olan və mənim də təmsil olunduğum məhkəmə sisteminin inkişafı, xüsusən müstəqillik illərində bu sahədə həyata keçirilən islahatlardan söz açmaq istəyirəm. 1918-ci ildə Azərbaycanda məhkəmə sistemi dağınıq, pərakəndə və iflic vəziyyətində idi. Şəhər və qəzaların əksəriyyətində hüquqşünas kadrlar, xüsusilə müstəntiq və hakimlər çatışmırdı, bəzi yerlərdə isə məhkəmə idarələri öz fəaliyyətini dayandırmışdı. Ona görə cümhuriyyət hökuməti ilk gündən məhkəmələrin fəaliyyətinin nizama salınması, ədalət mühakiməsinin həyata keçirilməsi, penitensiar sahədəki vəziyyətin yaxşılaşdırılması üçün hüquqi islahatlara başlamışdı. İlk növbədə, respublikada qanunçuluğun bərpası ilə əlaqədar müvafiq hüquqi tədbirlər görülmüş, qısa müddətdə məhkəmə aparatları bərpa edilmişdir. Nazirlər Şurasının qərarları ilə 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa olunmuş, Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsinə əsasən, Azərbaycan Məhkəmə Palatası Mülki və Cinayət departamentlərindən ibarət idi. Palatanın yurisdiksiya dairəsi isə respublikanın bütün ərazisini əhatə edirdi. Məhkəmə Palatası həm də respublikanın dairə məhkəmələri və bu məhkəmə dairələrindəki barışıq şöbələri üçün ikinci instansiya (apelyasiya) məhkəməsi sayılırdı.

Cümhuriyyət parlamentinin 26 dekabr 1918-ci il tarixli iclasında hökumətin qəbul etdiyi deklarasiyada göstərilirdi ki, ədliyyə hökumətin diqqət mərkəzində olan mühüm sahələrdən biridir. O da qeyd olunurdu ki, məhkəmə orqanları olmadan heç bir dövlət mövcud ola bilməz. Bu, Xalq Cümhuriyyətinin ölkədə hakimiyyətlərin demokratik bölgüsünə verdiyi mühüm qiymətin təsdiqi idi.

1920-ci ilin aprelində hakimiyyətin bolşeviklər tərəfindən zəbt olunmasından və Azərbaycanın işğalından sonra yaradılan bütün demokratik dəyərlər məhv edildi. Sovet hakimiyyəti illərində Azərbaycanda ədalət mühakiməsini Azərbaycan SSR Ali Məhkəməsi, Naxçıvan Ali Məhkəməsi, Dağlıq Qarabağ Muxtar Vilayətinin Vilayət Məhkəməsi, SSRİ xüsusi məhkəmələri və xalq məhkəmələri həyata keçirmişdir.

İnkişaf etmiş sivil dövlətlərin təcrübəsi göstərir ki, müstəqilliyi şərtləndirən, onu əbədiləşdirən amillər, ilk növbədə, qanunların aliliyinin təminatından, məhkəmə hüquq islahatlarının həyata keçirilməsi keyfiyyətindən, ədalət mühakiməsinin beynəlxalq tələblərə uyğunlaşdırılmasından çox asılıdır. Bu mənada 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra qarşıda duran əsas vəzifələrdən biri də ölkənin keçmiş sovetlər birliyindən miras qalmış hüquq sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması idi. Lakin ilk illərdə hüquqi islahatların aparılması istiqamətində nəinki addımlar atılmadı, heç təşəbbüs də göstərilmədi. Yeni hüquqi islahatlar yalnız ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyə başlamasından sonrakı dövrə təsadüf etdi və bu sırada məhkəmə islahatları xüsusi qeyd edilməlidir.

Müstəqil Azərbaycanın demokratik dəyərlər və prinsiplərə uyğun hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş ilk Konstitusiyası respublikamızda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuş, hüquqi islahatların aparılmasına zəmin yaratmışdır.

Konstitusiyada ilk dəfə olaraq məhkəmə hakimiyyəti anlayışı verilmişdir. Bununla da cəmiyyətdə yaranan bütün hüquq münasibətlərinin həlli məsələsi məhkəmə orqanlarının səlahiyyətinə aid edilmişdir. Məhkəmə hakimiyyətinə verilmiş yeni səlahiyyətlər nəzərə alınmaqla ölkə tarixində ilk dəfə olaraq Əsas Qanunda hakimlərin sərbəstliyi və müstəqilliyinin vacib təminatı, onların dəyişməzliyi prinsipləri reallaşmışdır.

Bu mənada məhkəmə hakimiyyəti, onun hüquqi dövlətdə rolu və yeri ilə bağlı əsas ideyalar Konstitusiyada bünövrə kimi qoyulmuş konseptual əsaslardan irəli gəlir. Ulu öndər də yaxşı bilirdi ki, müstəqil məhkəmə hakimiyyəti yaratmadan mükəmməl siyasi sistem qurmaq mümkün deyil. Belə məhkəmə hakimiyyəti yaratmaq üçün isə ölkədə köklü islahatlara ehtiyac var idi. Ona görə məhz Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" qanun qəbul edildi. Həmin qanunun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər haqqında proqram xarakterli fərman imzalandı və ölkəmizdə məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin bərqərar edilməsi prosesinə başlanıldı.

Beləliklə, həmin qanuna əsasən, respublikada hakimiyyətin üç müstəqil qolundan biri olan məhkəmələr dünyanın mütərəqqi təcrübəsinə əsaslanan modeldə formalaşdırılmışdır. Bu modelə əsasən, ölkədə birinci instansiya, apelyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sistemi fəaliyyət göstərir. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra qanunla nəzərdə tutulan hallarda apelyasiya qaydasında baxılmasına, daha sonra isə kassasiya qaydasında yenidən baxılmasına imkan verir. Bu sistem birinci instansiya məhkəməsinin buraxdığı hər hansı səhvin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərə düzgün və obyektiv baxılmasına şərait yaradır.

Dövrün tələbi ilə səsləşən mütərəqqi hüquq islahatlarının aparılması, ədalət mühakiməsini həyata keçirən məhkəmələrin müstəqilliyinin təmin olunması, qanunun aliliyi prinsipinin bütün səviyyələrdə qorunması vətəndaş cəmiyyəti quruculuğu prosesinin fundamental şərtlərindən biridir. İctimai münasibətlər də qanunlarla tənzimləndiyindən, cəmiyyət həyatındakı mühüm yeniliklər hüquq sistemində də əsaslı dəyişikliklər və yeniləşmə tələb edir. Bunu nəzərə alaraq ulu öndər Heydər Əliyevin insan hüquqlarının qorunmasını ön plana çəkməklə əsasını qoyduğu məhkəmə-hüquq islahatları son 15 ildə onun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir.

Məhz ölkə rəhbərliyinin iradəsi və təşəbbüsü ilə 2004-cü ildən başlayaraq məhkəmə sisteminin daha da müasirləşdirilərək Avropa standartlarına tam uyğunlaşdırılması işi həyata keçirilir. Təbii ki, hər bir islahat öncə qanunvericilikdən başlayır. Bu baxımdan, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirlər çərçivəsində Avropa Şurası ilə səmərəli əməkdaşlıq şəraitində hazırlanaraq qəbul edilmiş "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlar xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq norma və prinsiplərə uyğun olan həmin qanunlara əsasən, məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Yeni qanunvericiliklə hakimlərin immunitetinə və səlahiyyət müddətlərinə yenidən baxılmış, hakim vəzifəsinə müddətsiz təyinat müəyyən olunmuş, onların intizam məsuliyyəti məsələləri şuranın səlahiyyətinə aid edilmiş, hakim vəzifələrinə namizədlərin seçilməsi üçün yeni qurum - Hakimlərin Seçki Komitəsi yaradılmışdır. Bununla yanaşı, Məhkəmə-Hüquq Şurası yanında hakimlərin və dövlət ittihamçılarının, o cümlədən hakimliyə namizədlərin tədrisi ilə məşğul olan ayrıca sektor fəaliyyətə başlamışdır.

Məhkəmə hüquq islahatlarının məntiqi davamı kimi Prezident İlham Əliyevin 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərmanı isə respublikamızın məhkəmə sisteminin əsaslı şəkildə müasirləşməsi və təkmilləşdirilməsi prosesində ən mühüm addımlardan biri kimi dəyərləndirilə bilər. Bu fərman reallıqdan doğan zərurət olmaqla məhkəmə islahatlarının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını təmin etdi. Fərmana əsasən, Bakı, Gəncə, Sumqayıt, Şəki və Şirvan şəhərlərində apelyasiya məhkəmələri, həmçinin Bakı, Sumqayıt və Şəkidə yerli iqtisad məhkəmələri, Naxçıvan Muxtar Respublikasında isə Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmə təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli "Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1043-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" fərmanına əsasən, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi əsasında Bakı Ağır Cinayətlər Məhkəməsi, habelə Lənkəran, Gəncə, Şəki ağır cinayətlər məhkəmələri yaradılmışdır.

1 və 2 saylı Bakı, Gəncə, Sumqayıt, Şəki, Şirvan və Naxçıvan Muxtar Respublikasının iqtisad məhkəmələrinin bazasında inzibati-iqtisadi məhkəmələr təşkil edilmiş, onların sədrləri və hakimləri təyin olunmuşlar. 2011-ci il yanvarın 1-dən iqtisadi, inzibati işlərə məhz yeni yaradılmış inzibati-iqtisadi məhkəmələrdə baxılır. Bu isə iqtisadi xarakterli mübahisələrin ixtisaslaşmış birinci məhkəmə instansiyasında tam, ədalətli, obyektiv araşdırılmasına, qanuna müvafiq şəkildə baxılmasına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edir. Bakıda 1 və 2 saylı, o cümlədən Gəncə, Sumqayıt, Şəki və Şirvanda inzibati-iqtisadi məhkəmələrin yaradılması ədalət mühakiməsinin səviyyəsinin keyfiyyətcə daha da yaxşılaşmasını təmin etmişdir. Ölkədə ilk dəfə olaraq inzibati məhkəmələrin fəaliyyətə başlamasını insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm bir addım kimi xarakterizə etmək olar.

Məhkəmə-hüquq islahatları çərçivəsində məhkəmə fəaliyyətinin müasirləşdirilməsinə, əhalinin müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilir, bu məqsədlə müasir infrastruktur yaradılır. Dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində son illər paytaxtda və bölgələrdə müasirliyi ilə fərqlənən və ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş yeni məhkəmə bina və kompleksləri tikilib istifadəyə verilib, o cümlədən hazırda bir neçə məhkəmə üçün yeni binaların inşası aparılır. Görülən məqsədyönlü işlər ədalət mühakiməsinin effektiv həyata keçirilməsinə, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasına, keyfiyyətli xidmətlərin göstərilməsinə öz müsbət təsirini göstərmişdir. Hakimlərin sayının da iki dəfə artırılması iş yükünün xeyli azalmasına və keyfiyyətə müsbət təsir göstərmişdir.

Mülki, inzibati-iqtisadi, cinayət və hərbi işlər üzrə ali məhkəmə orqanı olan Azərbaycan Respublikasının Ali Məhkəməsi də bu illərdə böyük inkişaf yolu keçmiş, kassasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini layiqincə təmin etmişdir. Bu dövrdə Ali Məhkəmənin də fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Ali Məhkəmənin strukturu yeniləşdirilmiş, məhkəmə fəaliyyətinin hüquqi və informasiya təminatı gücləndirilmiş, aparatda yeni texnologiyalar tətbiq edilmiş, aparatın yeni strukturunun fəaliyyəti gücləndirilmişdir.

Ali Məhkəmənin funksiyaları yalnız məhkəmə prosesi ilə məhdudlaşmır. Daxili hüquq sisteminin effektivliyini və qanunun aliliyini təmin edən ədalət mühakiməsinin yuxarı məhkəməsi olan Ali Məhkəmə son instansiya olaraq, milli məhkəmələrdə məhkəmə prosesinin ümumi təcrübəsini müəyyən edir, qanunvericiliyin bütün məhkəmələr tərəfindən ardıcıl olaraq tətbiq edilməsini, hüququn ziddiyyətsizliyini və dürüstlüyünü, habelə qanunun təkmilləşdirilməsini təmin edir. Məhkəmə təcrübəsinin ziddiyyətsizliyi milli məhkəmələr tərəfindən tətbiq edilən hüquqi müddəaların şərh edilməsinin gözlənilən olmasına, habelə məhkəmə qərarlarının ardıcıllığına və proqnozlaşdırılmasının mümkünlüyünə təminat verir.

Məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən islahatlar çərçivəsində tətbiq olunan yeniliklərdən biri də "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasıdır. Bununla bağlı, Prezident İlham Əliyev 2014-cü il fevralın 13-də müvafiq sərəncam imzalamışdır. Artıq tətbiq olunan "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə vətəndaşlar məhkəmələrə yaradılan şəxsi kabinet vasitəsilə elektron şəkildə müraciət etmək imkanı əldə etmişlər. Bu isə müasir informasiya texnologiyalarının üstünlüklərindən yararlanmaqla məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir. Azərbaycan Respublikasının Ali Məhkəməsində 2016-cı ildən "Elektron məhkəmə" informasiya sistemi tətbiq edilməyə başlanmış və bu sistemin tətbiqi göstərilən elektron xidmətlərin keyfiyyətinin artmasına, Ali Məhkəmənin ümumi iş fəaliyyətində operativliyin təmin olunmasına gətirib çıxarmışdır.

Azərbaycanda son illər aparılan, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları sayəsində tamamilə yeni və beynəlxalq standartlara cavab verən, vətəndaşların hüquq və azadlıqlarının daha da etibarlı müdafiəsini təmin edən müasir məhkəmə sistemi yaradılmış və bu sahədə əldə edilmiş nailiyyətlər və qabaqcıl təcrübə ölkəmizdə bu islahatlara önəmli dəstək verən Avropanın aparıcı dövlətləri tərəfindən də etiraf olunmaqdadır.

Prezident İlham Əliyev ölkədə hüquqi, siyasi və iqtisadi islahatların bundan sonra da paralel şəkildə aparılacağını, o cümlədən ədliyyə və məhkəmə orqanlarına dövlət səviyyəsində lazımi diqqət və qayğının göstəriləcəyini daim xüsusi vurğulayır. Bu islahatlar nəticəsində Azərbaycanda məhkəmələrin fəaliyyəti daha da müasirləşəcək, əhaliyə göstərilən hüquqi yardımın səviyyəsi yüksələcək, ədalət mühakiməsinin daha çevik, işlək mexanizmlər əsasında həyata keçirilməsi mümkün olacaq.

***Hikmət MİRZƏYEV,***
*Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının sədri*

# Ədliyyə orqanlarının kadr korpusu komplektləşdirilir



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sistemində aparılan islahatlar, həmçinin kadr seçimi prosesini əhatə edir. Bu məqsədlə ədliyyənin müxtəlif sahələrinə qulluğa qəbulla bağlı açıq müsabiqə və müsahibələr keçirilir. Bu zaman dövlət siyasətinə uyğun olaraq gənclərin işlə təminatına xüsusi diqqət yetirilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari ilin mayında, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş test imtahanından 226 namizəd müvəffəqiyyət qazanaraq ikinci mərhələyə buraxılıb. Qanunvericiliyin tələblərinə cavab verən namizədlərlə aşkarlıq şəraitində fərdi qaydada söhbət aparılıb. Azərbaycan ədliyyəsinin 100 illiyinin qeyd olunduğu günlərdə ikinci mərhələ yekunlaşıb. Müsabiqənin yekun nəticələrinə görə uğur qazanacaq namizədlər peşə fəaliyyətinə buraxılışla əlaqədar Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunacaqlar.

Eyni zamanda, notariat orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi çərçivəsində əhaliyə göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir. Yubiley ərəfəsində vətəndaş məmnunluğunun təmini, xidmətlərə əlçatanlığın artırılması və xüsusi notariat institutunun möhkəmləndirilməsi məqsədilə "Notariat haqqında" qanunda mütərəqqi dəyişikliklər edilərək xidmətlərin məsafədən, video əlaqə vasitəsilə həyata keçirilməsi imkanı təsbit olunub. Habelə fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən Notariat Palatasının yaradılması nəzərdə tutulub. İnsanların təxirəsalınmaz ədliyyə xidmətlərindən yararlanmaq məqsədilə ədliyyə köşklərinin, xüsusilə sərhəddə, hava və dəniz limanlarında, dəmiryolu vağzallarında quraşdırılmasına, bu köşklər vasitəsilə video əlaqə yaradaraq notariat hərəkətlərinin rəsmiləşdirilməsinə və lazımi sənədlərin əldə edilməsinə şərait yaradılacaq.

Bu tədbirlər çərçivəsində notarius korpusunun komplektləşdirilməsi, bu zaman regionların sosial-iqtisadi tərəqqisinə uyğun olaraq, hüquq təsisatlarının inkişafı, yerli hüquqşünasların işlə təminatı Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, mütəmadi müsabiqələr keçirilir. Bir sıra rayonlarda, o cümlədən yaradılması nəzərdə tutulmuş yeni "ASAN xidmət" mərkəzlərində təşkil olunacaq notariat kontorlarında vakant notarius vəzifələri üzrə elan olunmuş növbəti müsabiqədə iştirak edən namizədlərlə bu günlərdə test imtahanı keçirilib. Yekun nəticələrə görə, imtahanda 24 nəfər müvəffəqiyyət qazanaraq ikinci mərhələyə - müsahibəyə buraxılıb.

Nazirlik tərəfindən, həmçinin penitensiar və tibb xidmətlərinin ixtisaslı kadrlarla komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür.

Dövlət başçısının penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2017-ci il fevralın 10-da imzaladığı mühüm, proqram xarakterli sərəncamı ilə penitensiar xidmətin peşəkar kadr korpusunun formalaşdırılması barədə verilən tapşırıqlara əsasən, ötən dövrdə 240-dan çox gənc bu xidmət sahəsinə orta rəis heyətinə qulluğa qəbul olunub.

Bu sahədə aidiyyəti təhsil müəssisələri ilə səmərəli əlaqələr qurularaq Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində nazirliyin müvafiq olaraq penitensiar və tibb sahələri üçün ixtisaslı kadrlar hazırlanır. Ümumilikdə isə aparılmış şəffaf seçimlər nəticəsində, həmçinin xüsusi təhsil müəssisələrini bitirmiş əksəriyyəti gənclər olan 1200-dən çox mütəxəssis penitensiar xidmətdə orta rəis heyətinə, 440 mütəxəssis isə tibb xidmətinə qulluğa qəbul edilib.

Bu günlərdə isə Ryazan Hüquq və İdarəçilik Akademiyasında təhsillərini başa vuraraq penitensiar xidmətdə orta rəis heyətinə təyinat alan növbəti bir qrup gənc əməkdaşlarla nazirliyin rəhbərliyinin görüşü keçirilib.

Gənclər əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub.

Nazirlikdə keçirilmiş tədbirdə çıxış edən ədliyyə naziri Fikrət Məmmədov 100 illik yubileyi qeyd olunan Azərbaycan ədliyyəsinin tarixindən və müasir fəaliyyətindən bəhs edərək ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini, son 15 ildə respublikamızın hərtərəfli davamlı tərəqqiyə nail olunmasını, o cümlədən ədliyyə və məhkəmə sistemindəki nailiyyətləri vurğulayıb.

Penitensiar sahədə aparılan islahatlardan geniş söhbət açan nazir dövlət başçısının 2017-ci il 10 fevral tarixli sərəncamının müstəsna əhəmiyyətini qeyd edib, habelə xidmətdə qulluq keçmənin xüsusiyyətləri barədə məlumat verərək gənclərin işlərində məsuliyyətli olmasını, layiqli vətəndaş və dövlət qulluqçusu kimi formalaşmasını, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, etik davranış qaydalarına dönmədən əməl olunmasını, korrupsiya və digər neqativ halların yolverilməzliyini vurğulayıb, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Gənclər çıxış edərək ədliyyənin yubileyi ərəfəsində qulluğa qəbul olunmalarından yüksək qürur hissi keçirdiklərini bildirib, müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisi naminə ölkə başçısının ətrafında sıx birləşərək yorulmaz fəaliyyətində daim layiqli yardımçı olacaqlarını vurğulayıb, onlara göstərilən bu yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli qaydada and içiblər, aidiyyəti işçilərə xüsusi rütbələr verilib.

# Ekoloji tarazlıq təmin edilir

Xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ətraf mühitin mühafizəsinə, ekoloji durumun yaxşılaşdırılmasına, xüsusilə yaşıllaşdırmaya mühüm önəm verilmiş, bu məqsədlə proqramlar qəbul olunmuş, irimiqyaslı tədbirlər həyata keçirilmişdir.



Ümummilli liderin müəyyən etdiyi ekoloji siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməklə öz real bəhrəsini verir.

Dövlət başçısının tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas istiqamətlərindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Respublikamızda yaşıllıq zolaqlarının daha da genişləndirilməsi, habelə Bakı və şəhərətrafı qəsəbələrdə ekoloji tarazlığın bərpa edilməsi, insanlar arasında təbiətə qayğı hissinin təbliği istiqamətində son illərdə geniş tədbirlər həyata keçirilir.

Bu istiqamətdə Bakı şəhərinin sənaye rayonu olan Qaradağda da ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyinin, insanların sağlamlığının təmin edilməsi, eləcə də yaşıllıqların artırılması, yeni ağacların əkilməsi istiqamətində görülən işlər ildən-ilə genişləndirilir. Həyata keçirilən tədbirlərin davamı olaraq noyabrın 17-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində və Lökbatan dairəsindən Yeni Yasamal yaşayış massivi istiqamətində avtomobil yolunun qərb hissəsində 300 nəfərin iştirakı ilə növbəti iməcilik keçirilmişdir.

İməcilikdə Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov, Yeni Azərbaycan Partiyasının Qaradağ təşkilatının fəalları, təsərrüfat xidmətləri, gənclər, rayon ictimaiyyətinin, idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak edirdilər. İməcilik iştirakçıları ərazini tullantılardan təmizləmiş, mövcud yaşıllığa aqrotexniki qulluq göstərmiş və burada Abşeron yarımadasının iqliminə uyğun 700 ədəd yeni zeytun və badam ağacları əkmişlər.

İməcilikdə mövcud olan yaşıllıq sahələrində mövsümi budama işləri aparılmış, quru ağaclar təmizlənmiş, çoxillik güllərə qulluq göstərilmiş, əkilən güllərin alağı təmizlənmiş, suvarılmış, parklar quru ot və alaqlardan təmizlənmiş, ərazidə olan çəmənliklərə gübrə verilmişdir. Eyni zamanda ərazidə mövcud olan çəmənlik və ağacların suvarılması, qurumuş ağacların vaxtında ərazidən götürülməsi, çəmənliklərin biçilməsi və digər işlər həyata keçirilmişdir.

Qaradağ rayonunda keçirilən ənənəvi iməcilik və ağacəkmə aksiyaları ərazidə ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyinin, insanların sağlamlığının təmin edilməsi, rayonun daha da gözəlləşməsi istiqamətində görülən işlərin davamı olmuşdur. Qaradağ rayonunda ərazinin yaşıllaşdırılması, yeni ağacların əkilməsi, yaşıllıqlara qulluq, abadlıq və səliqə-sahmanla bağlı iməciliklər növbəti aylarda da davam etdiriləcək.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Paytaxtın yaşıllaşdırılmasına növbəti töhfə





Müstəqil Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Ekologiyanın və ətraf mühitin mühafizəsi dövlətin qarşısında duran əsas istiqamətlərdən biridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı şəhərində yaşıllıqların salınmasına və onların genişləndirilməsinə olan diqqət və qayğısının bariz nümunəsidir ki, hər il paytaxtın rayonlarında minlərlə yeni ağaclar əkilir, onlara qulluq göstərilir, yeni-yeni yaşıllıq zonaları yaradılır, istirahət parkları salınır.

Bu işlər çərçivəsində paytaxtın bütün rayonlarında ağacəkmə aksiyaları keçirilir. Belə aksiyanın biri də Səbail rayonunda təşkil olunmuşdur. Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalovun, rayon ictimaiyyətinin, təsərrüfat xidmətlərinin, idarə və təşkilatların nümayəndələrinin, YAP fəalları və gənclərin iştirakı ilə Şıx yaşayış massivindəki "Dostluq parkı"nda keçirilən xoşməramlı aksiyada ümumilikdə 200 nəfərdən çox insan iştirak etmişdir.

Parkın ərazisində təmizlik işləri görülmüş, ərazi və mövcud ağacların dibi quru otlardan təmizlənmiş, yeni əkiləcək ağacların damcı üsulu ilə suvarılması üçün su xətləri çəkilmiş, köhnələri isə təftiş olunmuşdur.

Keçirilən aksiyada Abşeron yarımadasının iqliminə uyğun 500 ədəd yeni zeytun və badam ağacları əkilmiş, əvvəlcədən əkilmiş ağaclara qulluq göstərilmişdir. İlboyu göstərilən qulluq nəticəsində ötən il əkilmiş ağacların böyük əksəriyyətinin boy atdığı müşahidə olunmuşdur.

Səbail rayonunda keçirilən ağacəkmə aksiyaları ərazidə ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyinin, insanların sağlamlığının təmin edilməsi, rayonun daha da gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

Mövsüm ərzində Səbail rayonunda ərazinin yaşıllaşdırılması, yeni ağacların əkilməsi, yaşıllıqlara qulluq və abadlıqla bağlı iməciliklər davam etdiriləcəkdir. Ümumiyyətlə, son illərdə respublikamızın zəngin flora və faunasının qorunması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində çox mühüm addımlar atılır. Vətəndaşların ağacəkmə aksiyalarında, yaşıllıqların salınmasında fəal iştirakı, həmçinin Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# DSX-nin hərbi hissəsində andiçmə mərasimi keçirilmişdir







17 noyabr 2018-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilmişdir.

Dövlət himninin səslənməsi ilə başlayan mərasimdə gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriki çatdırılmışdır.

"17 noyabr Milli Dirçəliş Günü"nə təsadüf edən mərasimdə çıxış edənlər xalqımızın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri olan və ötən əsrin 80-ci illərinin sonunda sovet imperiyasının ikili siyasətinə etiraz əlaməti olaraq müstəqillik arzularını reallaşdırmaq üçün ölkəmizdə geniş vüsət almış milli azadlıq hərəkatının tarixi rolundan və o dövrdə respublikamızın ictimai-siyasi həyatında baş verən hadisələrdən geniş söhbət açmışlar.

Xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndərin sarsılmaz iradəsi, əzmi və zəngin dövlətçilik təcrübəsi ilə qısa zaman ərzində ölkədə sabitliyi bərpa etməsi, tənəzzülün qarşısını alaraq Azərbaycanı inkişaf və tərəqqi yoluna çıxarması, dövlətçiliyimizin qorunmasını, müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etməsi böyük iftixar hissi ilə xatırlanmışdır.

Tədbirdə ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilmişdir. Çıxış edənlər vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulamışlar.

Valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmiş, övladlarına təbriklərini çatdıraraq vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə etmişlər.

Tədbir gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatmışdır.

***"Azərbaycan"***

# Fransa hökuməti fransızlara "demokratiya dərsi" keçdi

*Əvvəli 1-ci səh.*

Onlar əmindirlər ki, hökumət yanacağa qoyulmuş vergini azaltmaqla avtomobil sahiblərinə kömək edə bilər. Bununla belə, qiymət artımı gələn il də davam edəcək. Hökumət elan etmişdir ki, hər hansı etiraza baxmayaraq, əlavə yanacaq vergisi tətbiq olunmaqla yanvarın 1-dən etibarən benzinin qiyməti 2,9 avrosent, dizel yanacağının qiyməti 6,5 avrosent artacaq.

Hökumət yanacaq vergisini ekoloji cəhətdən təmiz energetikanın inkişafı naminə artırdığını iddia edir. Müxalifət və sadə fransızların özləri isə hesab edirlər ki, hakimiyyət orqanlarının əsl məqsədi biznes və sərmayəçilər üçün vergilərin azaldılması nəticəsində dövlət büdcəsində yaranmış kəsiri aradan qaldırmaqdır. Belə ki, neft məhsullarına qoyulan verginin artırılması gələn il büdcəyə 38 milyard avro gətirməlidir. Lakin yenilənə bilən energetikanın inkişafı üzrə "Ekoloji dəyişikliklər" xüsusi proqramı üçün cəmi 7 milyard avro nəzərdə tutulmuşdur. 17 milyard avro region və departamentlərin yerli büdcələrinə, 1 milyard avrodan bir qədər artıq məbləğ nəqliyyat infrastrukturuna yönəldiləcək. Yığılan verginin yarısı - 19 milyard avro dövlətin ümumi büdcəsində "əriyəcək".

Qeyd edək ki, nümayişlər vahid mərkəzdən idarə olunmurdu, aksiya iştirakçıları sosial şəbəkələr vasitəsilə bir-birləri ilə təmas qururdular. Ona görə də onların harada toplaşacağını və saylarının nə qədər olacağını müəyyənləşdirmək çətin idi. Bu səbəbdən hüquq-mühafizə orqanları vəziyyəti nəzarət altında saxlamaqda çətinlik çəkirdi. Bununla belə, yerli KİV etiraz hərəkatının liderlərindən biri kimi sahibkar Pristsilla Lüdoskinin adını çəkirdi. Onun yanacağın qiymətini azaltmaq çağırışı 750 mindən çox imza toplamışdı. Lüdoski "Le Parisien" qəzetinə müsahibəsində bildirmişdi ki, "dövlət lobbiçilərə yox, sadə adamlara işlədiyini unutmamalıdır".





Etiraz aksiyaları ölkənin bütün ərazisini bürümüşdü. Marsel, Tuluza, Paris dairəvi yolu, Normandiya, Bretan və digər bölgələr nümayişlərə səhnə olmuşdu. Yuxarı Savoyya departamentində polis etirazçıları dağıtmaq üçün gözyaşardıcı qaz tətbiq etmişdir. Şol, Renn, Nimdə polislə toqquşmalar baş vermişdir. Amyen rayonunda etirazçılara qoşulmuş motosikletçilər şose yolunu bağlamışdılar.

Parisdə kütlə Yelisey sarayına soxulmağa cəhd göstərmiş, amma gözyaşardıcı qaza əl atan polisin təzyiqi ilə geri çəkilməyə məcbur olmuşdur. Nümayişçilər paytaxtda, həmçinin Daxili İşlər Nazirliyinin binasını zəbt etmək istəmişdilər.

Rəsmi məlumata görə, nümayişlərin ilk günündə ölkənin 2 mindən çox şəhər və qəsəbəsində 287,7 min nəfərin iştirakı ilə 2034 aksiya keçirilmişdir. İğtişaşlar zamanı 409 nəfər zərər çəkmişdir. Yaralılardan 14-nün vəziyyəti ağırdır. Polis, jandarm və yanğınsöndürmə-xilasetmə xidmətinin 28 əməkdaşı yaralanmışdır. Onlardan bəzilərinin vəziyyəti ağırdır.

Daxili işlər naziri Kristof Kastanerin verdiyi məlumata görə, noyabrın 18-nə keçən gecə yolları kəsən nümayişçilər sürücülərə münasibətdə özlərini davakar aparmışlar: toqquşmalar və bıçaqlanma hadisələri qeydə alınmışdır. Srağagün gərginlik bir qədər azalmışdır. Şose yollarını, yanacaqdoldurma stansiyaları və supermarketlərə gedən yolları bağlamaq üçün 150-dən çox aksiya keçirilmişdir. Qeyri-rəsmi məlumata görə, həmin aksiyalarda təxminən 40 min nəfər iştirak etmişdir. Etiraz aksiyalarının gedişində 282 nəfər tutulub saxlanmış, onlardan 157-si həbs olunmuşdur. Nümayişçilərdən biri maşının altına düşüb ölmüşdür.

Fransada baş vermiş etiraz aksiyaları və nümayişlərin gedişində müşahidə olunmuş iğtişaşlar, polis zorakılığı vahiməli mənzərə yaradır. Bu cür hadisələr başqa bir ölkədə olsaydı, rəsmi Paris dil boğaza qoymayıb demokratiyadan, insan hüquqlarından dəm vurardı. İkili standart göz qabağındadır: öz vətəndaşlarının qanuni tələblərinə gözyaşardıcı qazla cavab verən bir dövlət başqalarına "demokratiya dərsi" vermək iddiasına düşür.

Özü də Fransanın ikili standartları təkcə vətəndaşların sərbəst toplaşma hüququ ilə əlaqəli deyil. Rəsmi Paris beynəlxalq hüququn norma və prinsiplərinə münasibətdə də oxşar davranışı ilə seçilir. Məsələn, bir neçə gün əvvəl Dağlıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyan Fransa paytaxtında peyda olmuşdur. Görəsən, separatçının Parisdə nə işi var? Nəyə görə Fransa hökuməti Abxaziya, Cənubi Osetiya, Dnestryanı, Donbas separatçılarını qılıncla qarşıladığı halda Saakyana qucaq açıb onun başını sığallayır? Qarabağlı separatçı ilə abxaz, yaxud osetin separatçısı arasında nə fərq var? Bəlkə, separatçının doğması ilə yadı olur? Doğrudur, rəsmi Paris Dağlıq Qarabağdakı qondarma rejimi tanımadığını bəyan edir. Bəs necə olur ki, bir dövlət separatçı rejimi tanımır, amma bu rejimin başçısına qucaq açır?

Fransa hakimiyyət orqanlarının Qarabağ separatçıları ilə məhrəm davranışı rəsmi Bakıda sərt reaksiya doğurmaya bilməz. Azərbaycan rəhbərliyi və ictimaiyyət haqlı olaraq Fransa ilə qarşılıqlı münasibətlərə yenidən baxmağın zəruriliyini nəzərdən keçirir. Necə olur ki, üzərinə beynəlxalq öhdəliklər götürən, Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində vasitəçilik edən bir ölkə eyni zamanda neytral mövqe ilə dabanadaban zidd hərəkətlər edir? Dağlıq Qarabağdakı separatçı rejimi tanımamaq və separatçılarla qol-boyun olmaq bir araya sığa bilməz. Odur ki, Bakının Parisə münasibətdə atacağı addımlar başadüşülən olmalıdır.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

# Strateji tərəfdaşlığın ən yüksək mərhələsi

## Azərbaycan-Belarus münasibətləri dinamik inkişaf yolundadır

*Əvvəli 1-ci səh.*

Həmçinin iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunmuş birgə poçt markasının buraxılışı mərasimi də keçirildi. Hər iki ölkənin lideri markaları xüsusi ştamplarla möhürlədilər. Mətbuata birgə bəyanatlarla çıxış edən dövlət başçıları mövcud siyasi-iqtisadi əlaqələrin bundan sonra daha da şaxələndirilməsi istiqamətində mühüm addımların atılacağını söylədilər.

İki ölkə arasında iqtisadi-ticari əlaqələrə nəzər yetirdikdə görərik ki, Belarus Azərbaycanın mühüm ticarət tərəfdaşlarındandır. Birgə səylərlə əməkdaşlığın möhkəm iqtisadi bünövrəsi qoyulub, sənaye sahəsində bir sıra layihələr həyata keçirilməyə başlanılıb.

Elə bunun səbəbidir ki, İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsi, “Made in Azerbaijan” brendinin təşviqi məqsədilə xarici ölkələrdə yaradılan ticarət evlərimizin ilki Belarusda açılıb. Yəni, Azərbaycanın xaricdə ilk ticarət evi 2017-ci ildə Belarusda fəaliyyətə başlayıb.

Dünənki səfər zamanı cənab İlham Əliyev Azərbaycan Ticarət Evi ilə də tanış olaraq onun fəaliyyətinə uğurlar arzuladı. Təbii ki, ticarət evinin açılması iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişləndirilməsinə, ticarətin şaxələndirilməsinə töhfə verir, iki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm rol oynayır, Azərbaycan məhsullarının heç bir vasitəçi olmadan Belarusa birbaşa ixracı üçün gözəl imkan yaradır.

Ümumiyyətlə, 2018-ci ilin son 10 ayı ərzində iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 dəfə artıb və 331,5 milyon dollara bərabər olub. Respublikamızda 70-ə yaxın Belarus, bu ölkədə isə 59 Azərbaycan kapitallı şirkətlər fəaliyyətdədirlər.

Bununla yanaşı, hər iki dövlət müxtəlif sahələrdə qarşılıqlı fəaliyyət göstərir, mühüm beynəlxalq problemlərdə həmrəy olur, beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləyir.

Azərbaycan-Belarus münasibətlərində qarşılıqlı siyasi etimadın formalaşmasının səbəblərindən biri də rəsmi Minskin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu prinsipial mövqedir. Belarus Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında Ermənistanın müttəfiqi sayılsa da, ərazi bütövlüyü məsələsində Azərbaycanın mövqeyini dəstəkləyir və bunu Prezident Aleksandr Lukaşenko daim bəyan edir.

Elə dünənki səfərdə prezidentlər arasında keçirilən təkbətək görüşdə də İlham Əliyev bunu bir daha xatırladaraq dedi ki, bu gün Azərbaycanda Belarus haqqında danışanda, ikitərəfli münasibətlərlə bağlı müəyyən hadisələri yada salanda cəmiyyətdə həmişə çox müsbət hisslər yaranır.

Aleksandr Lukaşenkonun söylədiyi “Belaruslar Azərbaycanı bizə çox dost olan, yaxşı münasibət bəslədiyimiz qardaş respublika kimi qəbul edirlər... Bizim münasibətlərimizdə heç vaxt qapalı mövzu olmayacaq” fikirləri isə iki ölkənin bütün sahələrdə əlaqələrinin daha da dərinləşdiyini, genişləndiyini bir daha təsdiq etdi.

Əminliklə deyə bilərik ki, imzalanan yeni sənədlər Azərbaycan və Belarus əlaqələrinin getdikcə daha da dinamik inkişafına təkan verəcək. Bu səfər həm də gələcək əməkdaşlıq, daha da yaxınlaşmaq yollarını müəyyən etmək üçün yeni bir imkan oldu, desək yanılmarıq. Çünki İlham Əliyevin söylədiyi kimi, təməlində ənənəvi etimad duran münasibətlər onunla fərqlənir ki, hər iki ökə razılığa gəldiyi bütün məsələləri yerinə yetirir. Dünənki səfər zamanı da liderlərin apardığı müzakirələr, qəbul edilən mühüm qərarlar bir daha onu deməyə əsas verir ki, Belarus- Azərbaycan münasibətləri strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə çatıb.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***

# Ana dili - milli varlığımızın ruhu

*Əvvəli 1-ci səh.*

Bəzi dillər bir neçə dövlətin rəsmi dili kimi qəbul edilib. O cümlədən, ingilis dili 56, fransız dili 29, ərəb dili 24, ispan dili 20, portəgiz dili 8, alman dili 6, italyan və rus dilləri 4, holland və serb dilləri 3 ölkənin dövlət dili statusuna malikdir. Daha 12 dilin hər biri iki ölkədə rəsmi dil kimi işlədilir. Eyni zamanda, iki və daha artıq dövlət dili olan ölkələr də mövcuddur.

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Bu dil dövlət dili kimi ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), həmkarlar təşkilatlarında, digər hüquqi şəxslərdə, onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə bağlı fəaliyyət “Azərbaycan Respublikasında dövlət dili haqqında” qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq işləri də dövlət dilində aparılır.

### Tarixi fədakarlıq

Ana dilimizin dövlət dili statusu qazanmasında 1978-ci il Konstitusiyasına bu barədə maddənin salınmasının çox böyük əhəmiyyəti oldu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə etdiyi bu böyük fədakarlığın milli dövlətçiliyimizin, xalqımızın milli varlığının bu günü və gələcəyi baxımından nə qədər mühüm olması indi daha aydın görünür.



O illərdə əyalətlərdən olan gənclərimizin ali və orta ixtisas məktəblərinə qəbulunda tətbiq edilən güzəştlər, Bakıda və ölkəmizin mərkəzi regionlarında böyük sənaye zonalarının yaradılması, yüzlərlə yaşayış binalarının tikilməsi və bu zonalarda, əsasən, regionlardan gəlmiş ana dili daşıyıcılarının, milli ruhlu gənc ailələrin məskunlaşdırılması da Heydər Əliyevin bir tərəfdən ölkə iqtisadiyyatının inkişafına, digər tərəfdən, Azərbaycan dilinə qarşı təhdidlərin aradan qaldırılmasına yönəlmiş uzaqgörən fəaliyyəti idi.

Müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə də ulu öndər milli dil məsələsinə xüsusi həssaslıqla yanaşırdı. 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında Azərbaycan dilinin bu torpaqları özünə tarixi vətən bilən hər kəsin milli birlik fenomeni kimi təsbit olunması ilə bu istiqamətdə tarixi bir addım atıldı. 2001-ci ilin iyununda “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərmanın imzalanması, 2001-ci il avqust ayının 1-dən qəti olaraq latın qrafikalı Azərbaycan əlifbasına keçidin təmin olunması, Azərbaycan Respublikasının Prezidenti yanında Dil Komissiyasının təşkili, 1 avqustun Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan edilməsi, 2002-ci ilin sentyabrında “Azərbaycan Respublikasında dövlət dili haqqında” qanunun qüvvəyə minməsi ümummilli liderin müstəqillik dövründə ana dilimizin inkişafı ilə bağlı mühüm tarixi qərarlarıdır.

Ulu öndərin ana dilimizin qarşısında da bütün bunlar qədər əhəmiyyətli olan daha bir tarixi xidməti isə bu dili dünyanın ən yüksək tribunalarına daşıması idi. Yüksək natiqlik məharəti ilə bu dilin zənginliyini, hüdudsuz ifadə imkanlarını həmin tribunalardan bütün dünyaya sərgiləməsi idi. Əsrlər boyu obyektiv səbəblərdən kargüzarlıq sistemindən, diplomatik fəaliyyətdən, hərbi sahədən, müəyyən qədər elmi fəaliyyətdən, qanunvericilik sənədlərindən xeyli kənarda saxlanmış Azərbaycan dilini bütün parametrlər üzrə, sözün əsl mənasında, dövlət dilinə çevirməsi idi.

### Ana dilimizin hamisi

Bu gün Heydər Əliyevin milli dövlətçilik irsini hər bir sahə üzrə uğurla davam etdirərək Azərbaycanı öz tarixinin ən qüdrətli mərhələsinə çatdıran cənab İlham Əliyev ulu öndərin milli dil əmanətinə də sadiqdir. Azərbaycan Prezidentinin 12 yanvar 2004-cü il tarixli “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”, 14 yanvar 2004-cü il tarixli “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, eləcə də 30 dekabr 2007-ci il tarixli “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında” sərəncamları, ayrı-ayrı toplantılarda dilimizin inkişafı ilə bağlı irəli sürdüyü tezislər müasir dövrdə milli dilimizin inkişafına təkan verən tarixi addımlardır.

Son illərdə ölkə rəhbərliyinin dilimizin qorunması və inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər daha da artıb. Bu da səbəbsiz deyil. Sürətli qloballaşma prosesləri xalqlara, dövlətlərə böyük imkanlar açdığı qədər böyük problemlər də yaradır. Bu problemlər, əsasən, milli-mənəvi dəyərlərin və bu dəyərlərin ən mühümü olan dilin qloballaşma seli qarşısında qorunması ilə bağlıdır. İndiki dövrdə qloballaşma bu dəyərlər ətrafındakı mühafizə sərhədini ortadan götürüb. Bu sərhədlərin varlığı xalqın özünəməxsus dəyərlərinin mühafizəsini, o cümlədən dilin qorunmasını kifayət qədər asanlaşdırır. Bu zaman cəmiyyət özü xarici mühitdən nələri götürmək, nələrdən imtina etməkdən ötrü vasitələrə, geniş seçim imkanlarına, ən əsası isə çox böyük zaman kəsiyinə malik olur. Qloballaşma mühitində isə bunların heç biri yoxdur. Nəzərə alaq ki, bu gün dünyada əsas aparıcı dilə çevrilən ingilis dilinin arxasında ABŞ, Böyük Britaniya kimi aparıcı ölkələrin güclü iqtisadiyyatı, böyük ənənələrə malik qlobal media resursları, zəngin elmi-texnoloji məlumat bazası durur. Ona görə də ingilis dili milli dillərin istifadə məkanına daxil olaraq onları tədricən sıxışdırır.

Təkcə bir faktı diqqətə çatdıraq: hazırda mövcud internet resurslarının və bu resurslarda olan informasiyaların təxminən 53 faizi ingilis dilinin payına düşür. Qalan 47 faiz isə əsasən, rus, alman, yapon, ispan, fransız, çin, portuqal və italyan dilləri kimi aparıcı dillər arasında bölünüb. Bu rəqəmlər milli dillərin gələcək taleyi barədə düşünməkdən ötrü çox ciddi xəbərdarlıqdır. UNESCO ekspertlərinin proqnozlarına görə, XXI əsrin sonuna qədər dünyadakı dillərin 50 faizindən 90 faizinə qədəri tamamilə məhv olub yoxa çıxa bilər.

Ona görə də bu vəziyyət indi təkcə sayca az xalqların nümayəndələrini narahat etmir. Yüz milyonlarla adamın danışdığı alman, fransız, ispan, rus və s. dillərin təmsilçiləri də öz dillərinin gələcəyi qayğısına qalmağa çalışırlar. Azərbaycan dövləti də bu məsələni xüsusi diqqətdə saxlayır. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı addımlar onun strateq kimi ana dilimizin gələcəyinə aydın baxışlarından, milli dövlətçiliyimiz üçün mühüm əhəmiyyət daşıyan dilimizi qorumaq və inkişaf etdirmək əzmindən irəli gəlir. Dövlət rəhbərimiz belə bir şəraitdə ana dilimizin qüdrətli hamisidir.

### Yeni vəzifələr qarşısında

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” 2012-ci il 23 may tarixli 2236 nömrəli sərəncamında, 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nda bu istiqamətdə bir sıra konkret vəzifələr irəli sürülüb.

17 iyul 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncam imzalayıb.

Düşünürəm ki, sərəncam “Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması”nın yaradılmasını nəzərdə tutur. Belə bir platforma Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsini, bu dillə maraqlanan şəxslər üçün əlçatanlığını təmin edəcək, hər bir insan tərəfindən dilimizin öyrənilməsini asanlaşdıracaq. Əcnəbilərin, o cümlədən, ölkəmizdə təhsil alan xarici tələbələrin Azərbaycan cəmiyyətinə inteqrasiyasına kömək göstərəcək. Dillərin bu gün elektron məkanda, internet istifadəçiləri arasında nə qədər böyük rol oynadığını nəzərə alsaq, bu sərəncamın da zəruri əhəmiyyəti var.

1 noyabr 2018-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərman imzalamışdır. Fərmanda “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi” publik hüquqi şəxsin yaradılması nəzərdə tutulmuşdur. Mərkəz dövlət dilinin tətbiqinin vəziyyətini nəzarətdə saxlayacaq, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edəcəkdir.

Bu da dilimizin qorunması və inkişafı ilə bağlı dövlət rəhbərimizin həyata keçirdiyi siyasətin ardıcıllığını, məqsədyönlülüyünü, bu istiqamətdə yerinə yetirilən tədbirlərin mahiyyət etibarilə bir-birini tamamladığını göstərir. Yada salaq ki, ötən ilin oktyabrında ictimaiyyət nümayəndələrinin, o cümlədən, kütləvi informasiya vasitələri rəhbərlərinin iştirakı ilə “Azərbaycan ədəbi dilinin qorunmasında və inkişafında KİV-in rolu” mövzusunda maraqlı konfrans keçirilmişdi. Konfransın xüsusi əhəmiyyətli cəhəti ondan ibarət idi ki, o, birbaşa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilirdi və dövlət rəhbəri bu məsələ ilə bağlı siyasi iradəsini əks etdirirdi.

“Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” fərman bir daha göstərdi ki, dövlət rəhbəri ana dilimizin qorunması və inkişafı ilə bağlı konkret fəaliyyət strategiyasına malikdir. Bu strategiya bütün istiqamətlər, ictimai müzakirələrdən irəli gələn ən mühüm faydalı təkliflər nəzərə alınmaqla mərhələ-mərhələ həyata keçirilir.

### Örnək

Ana dilinə münasibət dövlət tərəfindən irəli sürülən norma və tələblərlə yanaşı, eyni zamanda, fərdi vətəndaşlıq məsuliyyəti tələb edir. Ana dilimizdə milyonlarla fərd danışıb yazır. Bu insanların dildən hansı şəkildə faydalandıqlarını, ona necə münasibət göstərdiklərini tam nəzarətdə saxlamaq praktik baxımdan xeyli çətin olsa da, Monitorinq Mərkəzinin yaradılması kimi təşəbbüslər problemin həllinə böyük kömək göstərə bilər. Bu addım, ilk növbədə dövlətimizin ali şəxsinin - Azərbaycan Respublikası Prezidentinin bütün təbəqələrdən olan vətəndaşlarımıza, - ziyalılarımıza, kütləvi informasiya vasitələrimizə dilimizə münasibətlə bağlı bir məsuliyyət çağırışıdır. Özü bir neçə xarici dildə səlis danışan, eyni zamanda, ana dilində də yüksək natiqlik məharəti ilə onun zəngin ifadə imkanlarını nümayiş etdirən, dövlətçilik statusunu ucalara yüksəldərək daha da möhkəmləndirən cənab İlham Əliyevin göstərdiyi nümunə təqdirəlayiqdir. Hər bir vətəndaş fərd olaraq özünün, çevrəsindəki insanların ana dilinin imkanlarından hansı şəkildə faydalandıqlarının fərqinə varıb dilimizin korlandığı hallarla rastlaşdığı zaman, ən azı, bu nümunəni xatırlada bilər. İctimai qınağın gücü ilə bu halın aradan qalxmasına xeyli dərəcədə nail olmaq mümkündür.

Digər tərəfdən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunması ilə bağlı inzibati mexanizmin işə düşməsi Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı problemlərin əhəmiyyətli hissəsinin həlli üçün real şərait yaradır. Çünki ölkəmizdəki dil situasiyasını müşahidə edərkən, ana dilimizin gələcəyini təhdid edən əsas mənfi halların məhz bu sferalarda - KİV-də, internet resurslarında və reklam daşıyıcılarında baş verdiyini görürük. Bu mənbələr digər cəmiyyət üzvlərinin də dil mədəniyyətinə ciddi təsir göstərir. Gənc nəslin ana dilinə yiyələnməsində və dilimizə bir dəyər kimi münasibətin formalaşmasında müstəsna rol oynayır.

Əfsuslar olsun ki, bu sahələrdə Azərbaycan dilinin norma və qaydalarının pozulması hallarına rəvac verənlər bununla milli-mənəvi dəyərlərimiz qarşısında nə qədər böyük məsuliyyətsizlik etdiklərinin fərqində deyillər. Mərkəzi şəhərlərimizdə, xüsusilə də paytaxtdakı reklam lövhələrində, əmtəə nişanlarında, radio, televiziya, qəzet və internet portallarının dilində ana dilimizin mövqeyinin məhdudlaşdırılması hallarına tez-tez rast gəlirik. Xüsusilə yeni yaranan şirkət və müəssisələrin adlarında dövlət dilinə etinasız münasibət hiss olunur. Sahibkarlıq subyektləri öz şirkətlərinə, xidmət və məhsullarına əcnəbi dillərdə ad axtarmaqdan ötrü, bir-biri ilə sanki yarışa çıxıblar. Bu adların çoxu bütünlüklə ingilis dilində, ingilis transliterasiyası və orfoqrafiyasında yazılır. Bir çox jurnal və qəzetlərin adlarında da vəziyyət eynidir. Özü də əcnəbi adlarla adlandırılmış media orqanlarının dili, əsasən, Azərbaycan dili olduğundan belə adlanmaların məntiqini anlamaq çətindir.

Hər gün işə gəlib-gedərkən şəhərdə hərəkət edərkən, yolum xeyli sayda özəl qurumların, mağaza, restoran və digər iaşə obyektlərinin yanından keçir. Onların bir hissəsinin qarşısından asılan lövhələrdə Azərbaycan dilinin heç kiçicik işartısına da rast gəlmək olmur. Bütün bu özəl fəaliyyət subyektlərinin sahibləri özümüz deyilikmi? Azərbaycan dilində danışan, ana laylasını bu dildə eşidən, dünyanı ilk dəfə ana dilimizdə qavrayan biz deyilikmi?

### Dil məsuliyyətdir

Əlbəttə, bu məsələyə birmənalı yanaşmağın da tərəfdarı deyiləm. Bütün dünyada tanınmış elə əmtəə nişanları var ki, onların yazılışını dövlət dilinin tələblərinə uyğunlaşdırmaq düzgün olmazdı. Məsələn, Coca-cola, Bosh, Mercedes-Benz, Mc Donalds və s. kimi marka adlarını buna nümunə göstərə bilərik. Bütün dünya onların yazılışını bu cür qəbul edib. Bu sözlər milli dillərə tərcümə və transliterasiya edilmir. Azərbaycan dilinin əlifbası latın qrafikalı olduğundan onların ingilis və başqa Avropa dillərindəki yazılışı ilə dilimizdəki yazılışı arasında böyük bir fərq yoxdur. Burada ana dilimiz üçün qorxulu nəsə görmürük. Necə ki, ruslar, çexlər, italyanlar, macarlar və başqa millətlərin nümayəndələri də öz şəhərlərində belə əmtəə nişanlarını görəndə burada təhlükəli hal axtarmırlar. Xoşagəlməz vəziyyət yerli bazar üçün çalışan iş adamlarımızın bu əmtəə nişanlarını bayağı şəkildə təqlid edərək paytaxtımızın küçələrini anlaşılmaz dildə reklam lövhələri ilə doldurmalarıdır.

Televiziya və radio efirində də dilimizin gözəlliyinə xələl gətirən məqamlara təsadüf edilir. Aparıcılar bəzi sözlərin tələffüzündə fonetik səhvlərə yol verirlər. Efirdə nitq mədəniyyəti ilə bağlı gözə çarpan əsas nöqsanlardan biri dilimizin orfoepik normalarının dil faktı səviyyəsinə çatmaması ilə bağlıdır. Efirə qonaq qismində dəvət edilmiş bəzi ziyalıların, tanınmış ictimaiyyət nümayəndələrinin hər birinin səslərin tələffüzü üçün, sanki öz normalarının olduğunu görürük. Onlar təmiz, tam ədəbi dildə danışmaqdan, elə bil çəkinirlər. Ehtiyat edirlər ki, birdən danışıqları süni görünər. Odur ki, bəzən hətta dialekt dilində danışmağa meyl göstərirlər. Halbuki dövlət dilində buna əsla yol vermək olmaz.

Azərbaycan dilinin daxili imkanlarından lazımi qədər istifadə olunmaması, yad ünsürlərin yerli-yersiz dilimizə gətirilməsi və bunun efir dilindən cəmiyyətə təqdim olunaraq ümumişləklik qazanması da başqa bir problemdir. Bir çox aparıcılarımız yeni öyrəndikləri hər hansı xarici sözü, termini, ifadəni dərhal dinləyici və tamaşaçılara çatdırmağa, auditoriya ilə qondarma dillə danışmağa daha çox meyil göstərirlər.

Dildə zənginləşmə prosesi daim getməlidir. Buna kimsənin etirazı yoxdur. Dünyanın bütün dilləri başqa xalqlardan, mədəniyyətlərdən yeni sözlər götürür. Cəmiyyətin gündəlik həyatına daxil olan kompüter, mobil telefon, planşet və s. bu kimi məfhumlarla birgə, o məfhumları adlandıran söz və ifadələrin də dilimizə daxil olması bütün hallarda baş verəcək. Dildəki bütün yeni sözlərin süni qarşılıqlarının yaradılması purizm meyli kimi dilçilikdə də bir o qədər yaxşı qiymətləndirilmir. Bununla belə, elə yeni sözlər var ki, öz dilimizdə onların çox uğurlu qarşılıqlarını asanlıqla tapıb istifadə etmək olar. Dialekt leksikası, artıq muzey eksponatına çevrilmiş bir çox əşyaları adlandıran arxaik sözlərin zəngin fondu bundan ötrü böyük bir xəzinədir. Amma ortaya sual çıxır: televiziya və radio kanalları bu xəzinədən lazımınca bəhrələnə bilirmi?! Əfsus ki, yox. Obyektivlik hissi bu sualın ədəbiyyat adamlarımıza, şairlərimizə, yazıçılarımıza da aid olunmasını diktə edir.

Amma bu gün bütün dünyada televiziya və radionun auditoriyası ədəbiyyatın, publisistikanın auditoriyasını qat-qat üstələdiyindən qoyulmuş sualın əsas məsuliyyət yükü də efir dilinin üzərinə düşür. Üstəlik, nəzərə almalıyıq ki, indi müasir ədəbiyyat təmsilçilərimizin də kütlələrlə əsas ünsiyyət vasitəsi, məhdud tirajla nəşr edilmiş kitablardan daha çox, məhz televiziya, radio efiri, internet, sosial şəbəkələrdir.

Bu gün bütün dünyada televiziya, radio xalqın öz ana dilində səlis danışa bilməsinə görə məsuliyyət daşıyır. Onlar bu məsuliyyətin fərqində olmalıdırlar. Efirdə dilimizin ədəbi normalarının pozulmasına əsla yol verilməməlidir.

### Yolverilməz sərbəstlik

Bütün bunlar hazırda Azərbaycanda böyük populyarlıq qazanaraq ənənəvi qəzet və jurnalları xeyli üstələyən internet portallarının dilinə də aiddir. Ədəbi dilimizin mətbuat üslubunu hazırda, əsasən, bu portallar müəyyənləşdirir. Elə isə onların dil, üslub xüsusiyyətlərinə diqqət edək və görək, onlar dillə bağlı missiyalarını hansı şəkildə yerinə yetirirlər?! Təəssüf ki, bu sahədə də vəziyyət xoşagəlməz məqamlardan təcrid edilməyib. İstər leksik və qrammatik, istərsə də qrafik və orfoqrafik sahədə özünü göstərən meyillər bu resurslarda, demək olar ki, dilin bütün səviyyələri üzrə tam bir problemlər sistemi yaradıb.

Yad ünsürlərin yerli-yersiz dilimizə gətirilməsi yazılı mətbuatın dilində də baş alıb gedir. Məsələn, illərdən bəridir ki, dilimizdə oturuşmuş dükan əvəzinə - market, seçim əvəzinə - kastinq, yoxlama əvəzinə - monitorinq, təbliğat əvəzinə - piar, marka əvəzinə - brend, qapıçı əvəzinə - qolkiper, hakim əvəzinə - referi, birgə əvəzinə - bahəm sözlərini işlətməyə zəruri ehtiyac varmı?

Müasir dünyanın reallıqlarına uyğun olaraq, dilimizə təzə keçən alınma sözlərin çoxu ingilis mənşəlidir. Ancaq son vaxtlar yazılı mətbuatda dil qanunlarına sığmayan bir hal da müşahidə olunur. İngilis mənşəli nəinki yeni, hətta köhnə sözləri də ingilis transkripsiyası ilə yazmağa başlayıblar (şifahi nitqdə isə buna müvafiq olaraq, həmin sözləri ingilis, daha dəqiqi, amerikan ləhcəsi ilə tələffüz edirlər). İngilis dilini bilməyən, onun hərf birləşmələrindən xəbərsiz olan azərbaycanlı oxucu bu mətnlərin qarşısında çaş-baş qalır. Bu hal ən çox xüsusi isimlərin yazılışına aiddir. Məsələn: “Bakıya uzaq məsafəyə uça bilən “Boeing” təyyarəsi gətirildi”, “New York Times” qəzeti bu çıxışa sərt reaksiya verdi”, “ABŞ-ın ilk prezidenti Corc Washingtonun abidəsi önünə əklil qoyuldu”.

Əvvəldən dilimizdə işlənən söz və terminlərin yazılışında yolverilməz bir sərbəstlik özünü göstərir. Məsələn, bəzən görürsən ki, “kəmfürsət” əvəzinə yazırlar - “fürsətkeş”, “məxfilik” əvəzinə - “gizlinc”, “maraqlı” əvəzinə - “ilginc”, “bildirmək” əvəzinə - “bəlli etmək”, “hörmət etmək” əvəzinə - “təqdir etmək”, “təyin etmək” əvəzinə - “bəlirləmək” və s.

“Özünü öldürmək” - “intihar etmək” sinonim cərgəsindən də müəyyən hallarda düzgün istifadə edilmir. Daha doğrusu, alınma sözün mənası təhrif olunur. Görürsən, yazırlar: “özünü intihar etmişdir”. Bu ifadədə “özünü” kəlməsini işlətmək yanlışlıqdır.

Yanlış anlaşılan və yanlış da işlənən sözlərdən biri də məxsus sözüdür. Məsələn, bəzən belə yazılır: “Bir vaxtlar o, Balaxanı kəndi yaxınlığında Nobel qardaşlarına məxsus neft mədənlərində işləyirdi”. Yaxud: “Bu misralar görkəmli alman şairi Folker fon Terniyə məxsusdur”. Bu və digər belə saysız cümlələrdəki “məxsus” sözü “mənsub” və “aid” mənalarında işlənib. Əslində, həmin sözləri “məxsus” sözü olmadan işlətmək daha düz olardı. Məsələn, belə: “Bir vaxtlar o, Nobel qardaşlarının neft mədənlərində işləyirdi”. Və ya “bu misralar Folker fon Terninindir”.

KİV-in dilində orfoqrafik səhvlər də artıq adi bir hala çevrilmişdir. Bəzi sözlərin yazılışında çoxvariantlılığa yol verilir: deklorasiya (əslində isə deklarasiya), lotoreya (əslində lotereya), səlist (əslində səlis), töhvə (əslində töfhə) və s. Tarixlərdə şəkilçilərin istifadəsində də qüsurlar nəzərə çarpır. “1990-ıncı il fevralın 5-indən 9-una kimi...”, “30-uncu illərin” və s. Halbuki hər bir halda defis işarəsi mənsubiyyət şəkilçisini ifadə etdiyinə görə həmin sözlər belə yazılmalıdır: “27-də”, “13-də”, “1990-cı”, “5-dən 9-na”, “30-cu” və s.

Bütün bunlar Azərbaycan Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrası çərçivəsində dilimizin üslubiyyatı, normativ qrammatikası, orfoqrafiya və orfoepiya qaydaları, terminologiya məsələləri, çeşidli sorğu kitabları hazırlamaq kimi tətbiqi işlərə də bir daha yenidən baxmağı tələb edir.

Görkəmli pedaqoq Konstantin Uşinskinin bu kəlamı çoxumuza uşaqlıqdan tanışdır: “Bir millətin, xalqın varını, dövlətini əlindən alsan, o millət ölməz, yaşayar. Ancaq ana dilini əlindən alsan, həmin millət məhv olar, ondan əsər-əlamət qalmaz”. Böyük mütəfəkkirimiz Həsən bəy Zərdabi də ana dilini xalqın varlığı, yaşaması və tərəqqisi üçün qüdrətli vasitə, müstəsna təsir gücünə malik amil sayaraq deyirdi: “Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Çünki bir millətin varlığına, isbati-vücud etməsinə səbəb onun dilidir”.

Dilimizi yaşatmaq milli ruhumuzu yaşatmaqdır. Ana dilimizi zamanın yellərindən qoruyaraq gələcəyə daha da inkişaf etmiş şəkildə çatdırsaq, özümüz də, gələcək nəsillərimiz də onun mənəvi işığında əbədi var olacaq.

***Nurlana ƏLİYEVA, Bakı Slavyan Universitetinin rektoru, professor***

## “Azərişıq” ASC müxtəlif tipli sayğacların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:
**LOT-1**
1 və 3 fazalı elektron tipli sayğacların satın alınması - 400 manat
**LOT-2**
MP-106 markalı Smart-kart tipli 1 fazalı sayğacların satın alınması - 400 manat

**“Azərişıq” ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.
Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26 dekabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 8 yanvar 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri 9 yanvar 2019-cu il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küçəsi, 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Energetika Nazirliyi *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**
“Ölkədə dayanıqlı və etibarlı istilik təchizatı sisteminin yaradılması, istehlakçıların fasiləsiz və keyfiyyətli istilik enerjisi ilə təmin edilməsi, isitmə məqsədi ilə istifadə edilən təbii qaz və elektrik enerjisi sərfiyyatının azaldılması, enerji resurslarından səmərəli istifadə olunması, yanğın və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədi ilə “Azəristiliktəchizat” ASC-nin texniki, təşkilati və maliyyə vəziyyəti ilə bağlı diaqnostik araşdırmanın aparılması və optimallaşdırılması tədbirlərinin həyata keçirilməsi üçün mərhələli tədbirlər planının hazırlanması” işlərinin satın alınması.
Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.
Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən “Çinar Plaza” İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Gülnarə Nuriyeva (telefon 598 16 53/54 - daxili 1130, mob: +994504502085)
İştirak haqqı **1100,00** manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.
**Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005,**
**VÖEN:1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT :CTREAZ22**
**Alan: Energetika Nazirliyi**
**VÖEN:1300087531**
**Hesab №: AZ44CTRE00000000000002218301**
**Təyinatı mütləq yazılmalıdır!**
**Təyinatı: Tenderdə iştirak haqqı Energetika Nazirliyi XHK 2218301**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat: 142340**
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **5 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının (o cümlədən hüquqi şəxslərin birliyinə daxil olan iddiaçılar) hüquqlarını, ixtisaslarını və ixtisas göstəricilərini təsdiq edən sənədlər;*
- *iddiaçının (o cümlədən hüquqi şəxslərin birliyinə daxil olan iddiaçılar) işçi heyətinə (mütəxəssislər, ekspertlər) daxil olacaq mütəxəssislərin peşəkarlığını və təcrübəsini təsdiq edən sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).
Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanuna uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **21.12.2018-ci il**, saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09.01.2019-cu il**, saat 11:00-a qədər Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən “Çinar Plaza” İş Mərkəzinə məxsus binanın 13-cü mərtəbəsində yerləşən ofisinə (ümumi şöbəyə) təqdim etməlidirlər.
Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.
İddiaçıların təklifləri **10.01.2019-cu il,** saat 15:00-da Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən “Çinar Plaza” İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisindən açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Bizi yaşadan dövlətin qayğısıdır

Azərbaycan Prezidenti İlham Əliyevin fərmanına əsasən şəhid ailələrinə birdəfəlik 11 min manat yardım verilməsi dövlətin bizlərə olan diqqət və qayğısının bariz nümunəsidir.

Həyat yoldaşım leytenant Habil Əliyev Şəmkirdə “N” saylı hərbi hissədə xidmət edirdi. 1992-ci ilin oktyabrında ailə qurduq. Xoşbəxt günlərimizi yaşayırdıq. Amma Habil Ermənistan qoşunlarının yurdumuzun müəyyən kənd və rayonlarını atəşə tutmalarından, torpaqlarımızı işğal etmələrindən çox narahat idi. Cəbhədə olmamasını, quldurlara qarşı döyüşlərdən kənarda qalmasını özünə sığışdıra bilmirdi. Ailə qurandan bir neçə ay sonra müharibəyə səfərbər olunanda çox sevindi. Hərdən mənə ürək-dirək verib deyirdi: “Bu erməni ki var, çox qorxaq millətdi. Bir-iki aya onları elə qovacağıq ki, əməllərinə də peşman olacaqlar... Heç narahat olma, yaxın vaxtlarda hər şey yoluna düşəcək, mən də evə qayıdacağam”.
Habil bir neçə gündən sonra telefonla böyük qürurla Qarabağda, Ağdərə rayonunda döyüşlərdə olduğunu bildirdi. Özü demiş, imkan olandan-olana zəng edirdi, hər işin yaxşı getdiyinə işarə edirdi, yaxın günlərdə evə gələcəyini bildirirdi. İlk övladımız Aqil dünyaya gələndə o cəbhə bölgəsində ermənilərlə vuruşurdu, oğlu olduğuna, üzünü görməsə də, qürurlanırdı. Təəssüf ki, bu sevincli günlər onun üçün çox çəkmədi. Aqil dünyaya gələndən bir ay sonra - 1992-ci il dekabrın 30-da Ağdərənin Madagis kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. Habil ailənin yeganə övladı idi. Hərbçi yoldaşları onu rayonun Dəllər-Daşbulaq kənd qəbiristanlığında əzizlərinin yanında, hərbi qaydada yaylım atəşlərinin sədası ilə dəfn etdilər.
O vaxtlardan ölkə Prezidentinin tapşırığına əsasən mənə, mənim tanıdığım bir neçə şəhid ailəsinə dövlət tərəfindən yardımlar edilir, lazımi kömək göstərilir. Həyat yoldaşım Habil Əliyev Azərbaycan Prezidentinin sərəncamı ilə ölümündən sonra “İgidliyə görə” medalı ilə mükafatlandırılıb. Bu medal evimdə olanların ən dəyərlisi, qiymətlisidir, övladımın fəxarət yeridir. Mən də, oğlum da bu mükafatın varlığı ilə qürur duyuruq. Şəhid ailəsi kimi dövlət tərəfindən şəhərin mərkəzində çoxmərtəbəli binada üçotaqlı mənzillə təmin olunmuşam. Az sonra şəhid ailəsi olduğuma görə rayon icra hakimiyyəti tərəfindən mənə 6 sot torpaq sahəsi verilib. Oğlum boya-başa çatandan sonra şəhid ailəsinin övladı kimi işlə təmin edilib. Rahat, çətinlik çəkmədən dolanırıq, bir nigarançılığımız işğal altında olan torpaqlarımızdandır. İstərdik ki, tezliklə məcburi köçkünlərimiz dədə-baba yurdlarına qayıtsınlar.
Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş, hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailələrinə - vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməyə başlanılıb. Bu ödəmənin 5 min 500 manatı bank vasitəsi ilə mənim hesabıma, 5 min 500 manatı da oğlum Əliyev Aqil Habil oğlunun bank hesabına köçürülüb.
Bütün bunlara görə Prezident İlham Əliyevə mənə və digər şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə sonsuz minnətdarlığımı bildirirəm. Onu da xatırladım ki, oğlum Aqil artıq 25 yaşına qədəm qoyub. O da bu gün Ali Baş Komandanın əmrinə müntəzirdir: Ali Baş Komandan əmr etsə, atası kimi o da torpaqlarımızın erməni tapdağından azad edilməsində, cəbhənin istənilən nöqtəsində vətənin müdafiəsində iştirak etməyə hazırdır.

***Elnurə BÖYÜKKİŞİYEVA,***
***Şəmkir rayonu***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının *əməkdaşlarının və onların ailə üzvlərinin könüllü tibbi sığorta növü üzrə sığortalanmasına dair tender elanı*

1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası öz əməkdaşlarının və onların ailə üzvlərinin könüllü tibbi sığorta növü üzrə sığortalanmasına dair açıq tender keçirir.
Tender proseduru **7 yanvar 2019-ci il** tarixdə saat **11:00**-da Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında (Bakı şəhəri, Bülbül prospekti, 27) keçiriləcəkdir.
2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və reyestrdən çıxarış ) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (Tender təklifi 19 fevral 2019-cu il tarixinədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) %-i məbləğində bank təminatı (Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçıya Azərbaycan Respublikası ərazisində sığorta fəaliyyətini həyata keçirmək hüququ verən xüsusi razılığın (lisenziyanın) və könüllü tibbi sığorta növü üzrə müvafiq qaydada təsdiq olunmuş qaydaların surəti;*
- *son bir ili əhatə edən pul dövriyyəsini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və digər müvafiq orqanlardan arayış;*
- *iddiaçının tibbi sığorta fəaliyyəti sahəsində ən azı üç il təcrübəsinin olmasını və bu sahədə korporativ müştərilərə göstərilən xidmətlər haqqında məlumatları əks etdirən sənəd (tenderin əsas şərtlər toplusuna əlavə olunan formada);*
- *sığorta qanunvericiliyinə uyğun olaraq onunla əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı iki korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 4 yanvar 2019-cu ilə qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 24 dekabr 2018-ci il saat 17:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti 27 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.
4. İştirak haqqı **500** manat təşkil edir və tenderin nəticələrindən asılı olmayaraq geri qaytarılmır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının aşağıdakı hesabına köçürülməlidir:

**Bank: ASC “Xalq” Bankının “Sahil” filialı**
**Bank VÖEN: 2000296061**
**Müxbir hesab: AZ24NABZ01350100000000067944**
**Kod: 510675**
**SWIFT: HAJCAZ 22**
**İBAN: AZ92 HAJC NCRA ZN00 9000 7131 0001**
**VÖEN: 1403372311**

5. Xidmətin göstərilməsinə başlanma vaxtı: 22.01.2019-cu il tarixdən.
Xidmətin göstərilməsi müddəti: **12 ay.**
6. Qiymətləndirmə meyarları: maliyyə amili, sığortaçının sığorta portfelində könüllü tibbi sığorta sinfinin xüsusi çəkisi, və sığorta xidmətləri paketi üzrə sığorta şərtləri.
11. Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti 27 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Təminat və satınalmalar sektorunun əməkdaşı Ələmqulu Quliyev (Alamgulu.Guliyev@fimsa.az, Tel: 4935058 (daxili 346), Fax 498 12 14. İnsan resursları idarəsinin əməkdaşı Nərminə Sultanova (Narmina.Sultanova@fimsa.az, 4935058 (daxili 345)

***Tender komissiyası***

***Bakı Dövlət Universiteti tərəfindən 1997-ci ildə Könül Tariyel qızı Əliyevanın adına verilmiş bakalavr (AN 011172) və 1999-cu ildə verilmiş magistr diplomları (MNA 001826) itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası
**SÜSƏN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi və kollektivi Hirkan Milli Parkın elmi işlər üzrə direktor müavini biologiya elmləri üzrə fəlsəfə doktoru
**HACIAĞA SƏFƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi “6 N-li Magistral Yolların İstismarı” MMC-nin direktoru Şükür Astanova bacısı
**SARITEL XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi Əsəd İsmayılova anası
**ZİBA ƏLİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları Əli Heybətova atası
**NƏSİR HEYBƏTOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Biznes Universitetinin rektorluğu və professor-müəllim heyəti universitetin prorektoru, dosent Sabir Əmirxanova qardaşı
**ABDURAHMAN ƏMİRXANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universiteti Qazax filialının kollektivi filialın direktoru, professor Vüsət Əfəndiyevə anası
**GÜLSƏFA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## Makedoniyada Konstitusiyanın dəyişdirilməsinə qarşı kütləvi mitinq keçirilib




Makedoniyanın müxtəlif icmalarından olan minlərlə adam ölkə Konstitusiyasına dəyişikliklərə qarşı kütləvi mitinqdə iştirak etmişdir. Tələb Konstitusiyanın dəyişdirilməsi prosesinin dayandırılması, Makedoniya ilə Yunanıstan arasında Prespa razılaşmasının ləğvi, dövlətdaxili və xarici hüquqa hörmət, Makedoniya Respublikası dövlət adının müdafiəsi, parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin olunmasıdır. Bu barədə TASS agentliyi xəbər verir.
Konstitusiyaya dəyişikliklər “Makedoniya Respublikası” adının “Şimali Makedoniya Respublikası” adı ilə əvəzlənməsini nəzərdə tutur. Həmçinin Konstitusiyanın mətninə “Makedoniya qonşu dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət edir” müddəasının əlavə olunması təklif edilir. Daha bir yenilik Əsas Qanunun mətnində “Respublika xaricdə müvəqqəti, yaxud daim yaşayan vətəndaşlarının maraqlarını və hüquqlarını müdafiə edir” ideyasının yer almasıdır.
Xatırladaq ki, iyunun 17-də Makedoniya və Yunanıstan xarici işlər nazirləri iki ölkənin sərhədində yerləşən Prespa gölü sahilində təntənəli mərasim zamanı keçmiş Yuqoslaviya Respublikasının yeni rəsmi adı barədə razılaşma imzalamışlar. Prespa sazişi “Şimali Makedoniya Respublikası” adından istifadə olunmasını nəzərdə tutur.
Bu razılaşma Afina ilə uzun sürən mübahisəni həll etməklə yanaşı, həm də Skopye üçün NATO-ya və Avropa İttifaqına yol açacaq.

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

## Yunanıstan polisi Afinada toqquşmalarda 22 nəfəri saxladı

Yunanıstanın paytaxtı Afinada ABŞ səfirliyi yaxınlığında kütləvi mitinqdən sonra etirazçılarla polislər arasında toqquşmalar baş vermişdir. Nümayişçilər asayiş keşikçilərinə qarşı “Molotov kokteylləri” və fişənglərdən istifadə etmiş, bayrağı yandırmışlar. Anarxistlər həmçinin hakim SİRİZA Partiyasının bir qrup deputatına və nazirlərə hücum etmişlər. Buna cavab olaraq polis xüsusi qumbaralardan və gözyaşardıcı qazdan istifadə etmişdir. Toqquşmalar nəticəsində 2 polis əməkdaşı yaralanmış, 22 nümayişçi saxlanmışdır.
Bildirilir ki, aksiya iştirakçıları Politexnik İnstitutu tələbələrinin 1967-1974-cü illərdə Yunanıstanda hakimiyyətdə olmuş və ABŞ-ın himayəsindən istifadə etmiş “qara polkovniklər” diktatura rejiminə qarşı üsyanının 45-ci ildönümünü qeyd etmişlər. Müxtəlif məlumatlara görə, on mindən çox adam küçələrə çıxmışdır.
Xatırladaq ki, 1973-cü il noyabrın 17-də Afinadakı Politexnik İnstitutunda diktator Georgios Papadopulos rejiminə qarşı tələbə nümayişləri olmuşdur. Həmin vaxt dinc nümayişlər hərbçilər tərəfindən qəddarlıqla yatırdılmışdır.
Georgios Papadopulos 1967-ci ildə dövlət çevrilişi nəticəsində hakimiyyəti ələ keçirmişdir. Tələbələrin üsyanından sonra - 1973-cü ildə onu general Dmitrios İoannidis devirmişdir.

## Bolqarıstanda əhali etiraz nümayişlərinə çıxdı




Bolqarıstanda bir neçə gündür davam edən nümayişlərdə əhali yanacağın artan qiymətinə qarşı etiraz edir. Nümayişçilər paytaxt Sofiyadan Qara dənizə aparan iki avtobanı, habelə Stara-Planina dağlarındakı Petroxan aşırımını öz avtomobilləri ilə bağlamışlar. Bundan əlavə, Türkiyə və Yunanıstanla sərhəddəki keçid məntəqələrində hərəkət çətinləşmişdir. Etirazçılar köhnə avtomobillərin sahibləri üçün vergilərin artırılmasından da narazılıq etmiş, həyat səviyyəsinin aşağı olmasını pisləmiş, hökumətin istefasını və “sistemin dəyişdirilməsini” tələb etmişlər.
Etiraz aksiyaları Bolqarıstanın digər şəhərlərində, o cümlədən Varnada və Plovdivdə keçirilmişdir.
Bu arada Bolqarıstanın eks-prezidenti Rosen Plevneliyev etiraz aksiyalarına Rusiyanın müdaxiləsini istisna etməmişdir. Televiziyaya müsahibəsində sabiq dövlət başçısı Rusiya nömrələri olan avtomobillər barədə məlumat vermiş, lakin onların “etirazlara başçılıq edə bilməmələrini” qeyd etmişdir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8398
Sifariş 3467